metodik vəsait

# Təsviri incəsənət

6



LAYİHƏ

**Yeganə Cəlilova**
**Kəmalə Cəfərzadə**
**Məhsəti Məmmədova**

# TƏSVİRİ İNCƏSƏNƏT

# 6

**Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün**
**Təsviri incəsənət fənni üzrə dərsliyin**
**METODİK VƏSAİTİ**

**Bu nəşrlə bağlı irad və təkliflərinizi**
**bn@bakineshr.az və derslik@edu.gov.az**
**elektron ünvanlarına göndərməyiniz xahiş olunur.**
**Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!**

BAKI NƏŞR

LAYİHƏ

## KİTABIN İÇİNDƏKİLƏR

DƏRSLİK KOMPLEKTİ HAQQINDA ....3

ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏ PRİNSİPLƏRİ VƏ FORMALARI....5

TƏSVİRİ İNCƏSƏNƏT DƏRSLƏRİNDƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARINDAN (İKT) İSTİFADƏ İMKANLARI....7

TƏSVİRİ İNCƏSƏNƏT FƏNNI ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) HAQQINDA ....8

DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU.... 11

FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ VƏ İLLİK İŞ PLANI .... 12

FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ.... 13

**MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ**

1. TƏSVİRİ SƏNƏTİN NÖVLƏRİ .... 14
   - QRAFİKA .... 14
   - RƏNGKARLIQ .... 26
   - HEYKƏLTƏRAŞLIQ .... 36

2. QƏDİM DÜNYA MEMARLIĞI .... 42

3. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR .... 53

4. DEKORATİV-TƏTBİQİ SƏNƏT NÖVLƏRİ.... 67
   - GÜNDƏLİK PLANLAŞDIRMAYA DAİR DƏRS NÜMUNƏLƏRİ.... 79
   - KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ.... 87
   - MƏNBƏLƏR .... 94

LAYİHƏ

# DƏRSLİK KOMPLEKTİ HAQQINDA

Azərbaycan Respublikasında ümumi orta təhsilin konsepsiyası (milli kurikulumu) əsasında hazırlanmış 6-cı siniflər üçün “TƏSVİRİ İNCƏSƏNƏT” fənni üzrə dərslik komplekti – **dərslik və müəllim üçün metodik vəsait**dən ibarətdir.

## DƏRSLİK

Dərslikdə qədim dünya incəsənəti haqqında şagirdlər üçün yeni məlumat və anlayışlar verilmişdir. Mövzularda sənətkarlıq, memarlıq, təsviri sənətin növ və janrları inkişaf tarixi baxımından şərh edilir. Dərslikdə istifadə olunan elmi anlayış və zəngin reproduksiyalar əhatəli məzmunla müşayiət olunur.

Mövzular 4 tədris vahidində cəmləşdirilmişdir:

**1-ci tədris vahidi** “TƏSVİRİ SƏNƏTİN NÖVLƏRİ” adlanır və üç bölmədən ibarətdir: “Qrafika”, “Rəngkarlıq” və “Heykəltəraşlıq”.

**2-ci tədris vahidi** – “QƏDİM DÜNYA MEMARLIĞI” qədim dünya və Azərbaycan memarlığında forma, element və naxışların öyrənilməsinə həsr edilib.

**3-cü tədris vahidi** “TƏSVİRİ SƏNƏTDƏ JANRLAR” adlanır. Burada qədim zamanlardan yaranmış natürmort, portret və mənzərə janrlarının tarixi ilə bağlı məlumatlar yer almışdır.

**4-cü tədris vahidi** “DEKORATİV-TƏTBİQİ SƏNƏT NÖVLƏRİ” adlanır. Şagirdlər qədim dünya incəsənətində keramika, metal və zərgərlik növlərinin yaranma tarixi, uyğun illüstrasiya və məlumatlarla tanış olacaqlar.

Demək olar ki, hər mövzuda yaradıcı tapşırıq və müzakirə üçün suallar verilmişdir. Şagirdlər bu tapşırıqları fərdi seçim əsasında da yerinə yetirə bilərlər.

Mövzuların metodoloji quruluşu müəllimə məzmundan müxtəlif variantlarda istifadə etmək üçün geniş şərait yaradır. Şagirdlərin məzmunla mexaniki tanış olmaları kifayət deyil. Qazanılmış bilikləri yoxlamaq və dərinləşdirmək üçün nəzərdə tutulmuş müxtəlif təlim materialları, həmçinin illüstrasiyalar mövzunun dərk edilməsində əsas yardımçı elementlərdir.

Dərslikdə hər bir mövzu üzrə təlim materialları müəyyən metodoloji ardıcıllıqla təqdim olunur. Yadda saxlanılması vacib olan **məlumatlar** ayrıca izah edilir.

Zəngin illüstrasiyalar məktəblilərə incəsənət aləmi ilə ünsiyyət yaratmağa, “bədii” biliklərin sistemləşməsinə və yaradıcı təfəkkürün formalaşmasına yardım göstərir.

Diferensial təlim prinsipləri nəzərə alınmaqla hazırlanmış dərsliyə bilik və bacarıqları möhkəmləndirmək üçün müxtəlif yaradıcı tapşırıqlar və praktik çalışmalar daxildir.

Dərslikdə ***xüsusi qayğıya ehtiyacı olan şagirdlər*** üçün də çalışmalar nəzərdə tutulmuşdur. Çalışmalar sadədən mürəkkəbə doğru yerləşdirilmişdir.

Şagirdlərin bütün tapşırıqları yerinə yetirmələri vacib deyil. Tapşırıqlar diferensial yanaşma əsasında, çətinlik dərəcələrinə görə şagirdlər arasında bölüşdürülə bilər.

Uşaqların incəsənətlə ünsiyyəti prosesində müəllimin rolu danılmazdır. Məhz müəllim dərsdə emosional-bədii atmosfer yaradır, məqsədlər qoyur, şagirdlərin bədii əsərlərlə canlı ünsiyyətini təşkil edir. Bu da uşaqların estetik dünyagörüşlərinin inkişafına səbəb olur.



LAYİHƏ

Dərslikdə hər mövzu üzrə təlim materialları aşağıdakı metodoloji ardıcıllıqla verilmişdir:



1. **İncəsənətə dair dialoq** – mövzuya maraq oyatmaq üçün motivasiyanın verilməsidir. Burada sual, şəkil, anlayışların çıxarılması əvvəllər qazanılmış biliklərə əsaslanır və şagirdləri aktiv fəaliyyətə cəlb edir.
2. **Nəzəri məlumat** – dərs zamanı müstəqil tanış olmaq və müzakirə üçün verilən məzmundur.
   Burada təsviri sənətin tarixi, onun cəmiyyətdə rolu haqqında məlumatlar, müxtəlif sxem və cədvəllər əks olunur.
3. **Görkəmli sənətkarlar** – Azərbaycanın və dünyanın görkəmli təsviri sənət nümayəndələrinin yaradıcılığı ilə tanışlıq.
4. **Təsviri sənət qalereyası** – şagirdin estetik münasibət bildirməsi üçün Azərbaycan və dünya rəssamlarının qrafika, rəngkarlıq və heykəltəraşlıq əsərlərinin nümayişi.
5. **Müzakirə sualları** – məzmunun mənimsənilməsinə xidmət edən və şagirdlərin təfəkkürlərini fəallaşdırmaq üçün vacib sayılan suallar.
6. **Bu, maraqlıdır** – mövzu ilə əlaqəli olan və şagirdlərin dünyagörüşünü genişləndirməyə xidmət edən daha maraqlı faktlar, hadisələr öz əksini tapır.
7. **Yadda saxla** – şagirdin bilməsi tələb olunan yeni məlumatlar, praktiki və yaradıcı tapşırıqlarda əməl edilməsi vacib olan qaydalardan ibarətdir.
8. **Öyrəndiklərinizi tətbiq edin** – mövzu ilə bağlı nəzəri və praktiki tapşırıqlar, yeni qazanılmış bacarıqların tətbiqi, onların izahı və rəsm zamanı şagirdlərə yardım edən təsvir ardıcıllıqlarının metodikası.
   *Sərbəst iş üçün tapşırıq variantları* – şagirdlərin təlim nəticələrindən asılı olaraq (zəif, orta, yüksək) müəllimin diferensial yanaşmasına, yaxud şagirdlərə könüllü seçim imkanı verən tapşırıqlardır.
9. **Açar sözlər** – mövzuda rast gələnən mühüm anlayışlardır.
10. **Nə öyrəndiniz** – yeni məlumatları ümumiləşdirməyə xidmət edir. Dərsdə öyrənilən açar sözlərdən istifadə etməklə mövzunun xülasəsinin şagirdlərin özləri tərəfindən verilməsi tələb olunur.
11. **Öyrəndiklərinizi yoxlayın** – şagirdin özünüqiymətləndirməsi üçün verilmiş sual və tapşırıqlar.



LAYİHƏ

Təsviri incəsənət fənni üzrə müəllim üçün metodik vəsaitdə aşağıdakı materiallar öz əksini tapmışdır:

- təsviri sənət fənn kurikulumu haqqında;
- fənn üzrə məzmun standartlarının reallaşma cədvəli və illik planlaşdırma nümunəsi;
- şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və formaları;
- fənlərarası inteqrasiya imkanları və digər fənlərin uyğun alt-standartları ilə inteqrasiya cədvəli;
- inklüziv təlim prinsipləri haqqında ümumi məlumat;
- müəllim üçün metodik vəsaitdə istifadə olunan forma və üsullar;
- dərsin fəal təlim mərhələləri üzrə planlaşdırılma nümunələri;
- müəllimlər üçün mövzu üzrə əlavə məlumatlar;
- bölmə və vahidlər üzrə qiymətləndirmə vasitələri;
- müəllimin istifadə edə biləcəyi mənbələr.

Təsviri sənət dərsləri məşğələ növləri vasitəsilə təqdim edilir: ***mövzu üzrə rəsm, naturadan rəsm, dekorativ-tətbiqi fəaliyyət, yapma, təsviri sənət haqqında söhbət.***

Müəllim tövsiyə olunan materiallardan sinfin hazırlıq səviyyəsinə, tədris vaxtına, texniki təchizata və diferensial təlim prinsiplərinə uyğun olaraq lazım bildiyi kimi istifadə edə bilər. Vəsaitdə, ümumiyyətlə, tədqiqat işlərində qruplarla və cütlərlə iş formalarına daha çox üstünlük verilir. Praktik dərslər zamanı isə şagirdlərdə fərdi bacarıqların formalaşdırılması məqsədilə əsasən fərdi və cütlərlə iş formasından istifadə edilməsi daha məqsədəuyğundur. Cütlərdə işləyən şagirdlər tədqiqat işini də birlikdə yerinə yetirirlər.

## Təsviri incəsənət fənni üzrə təhsil proqramı (kurikulumu) haqqında

Kurikulumda təsbit olunmuş məqsəd və vəzifələri aşağıdakı məzmun xətləri vasitəsilə həyata keçirmək nəzərdə tutulur:

**1. Cəmiyyət və təsviri incəsənət**

Bu məzmun xətti cəmiyyətdə təsviri incəsənətin rolu, cəmiyyət və təsviri incəsənət arasındakı əlaqələri, təsviri incəsənətin cəmiyyətin aynası olması, baş verən tarixi hadisələrin mahiyyətinin dərk olunmasında təsviri incəsənət nümunələrinin əhəmiyyəti, milli və dünya təsviri incəsənət tarixinin görkəmli nümayəndələri, onların məşhur əsərləri haqqında məlumatları əhatə edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

Təsvir fəaliyyəti şagirdlərin əqli və estetik inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, onların görmə yaddaşının, mühit və məkan duyumunun, obrazlı təsəvvür qabiliyyətinin formalaşmasında mühüm rol oynayır. Təsviri yaradıcılıq fəaliyyəti gerçəkliyi dərk etmək, obrazlı və məntiqi düşünmək, hiss və duyğuları vizual obrazlarda əks etdirmək bacarıqlarının təmin edilməsində başlıca vasitə hesab olunur. Təsviri və dekorativ yaradıcılıq şagirdlərə eyni zamanda tərtibat, quraşdırma, dizayn bacarıqları aşılayır.

**3. Estetik reaksiya**

Təsviri və dekorativ sənət növlərinə aid nümunələr təbiətin, ətraf aləmin insanın daxili aləminə, hislərinə, duyğularına təsirindən yaranır. Təsviri incəsənət əsərləri ilə təmasda olmaq şagirdə milli və ümumbəşəri dəyərlərə yiyələnməklə, bir növ, mədəni mübadilə prosesini yaşadır. Təsviri və dekorativ incəsənət əsərlərinin şəxsiyyətə göstərdiyi təsir nəticəsində estetik-emosional meyar və normalar, mənəvi zənginləşmə və mədəni tolerantlıq formalaşır, hissiyyat diapazonu daha da genişlənir.



LAYİHƏ

## VI sinif üzrə təsviri incəsənət məzmun standartları

**VI sinfin sonunda şagird:**

- təsviri incəsənətin cəmiyyət həyatındakı rolunu izah edir;
- təsviri və dekorativ sənətin növ və janrlarını (natürmort, mənzərə, portret) bədii xüsusiyyətlərinə görə şərh edir;
- Azərbaycanın, dünya təsviri incəsənətinin görkəmli nümayəndələri (Əcəmi Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir;
- müxtəlif vasitələrdən istifadə etməklə həyati görüntüləri təsviri sənətin janrlarında (natürmort, mənzərə, portret) real və abstrakt təsvir edir;
- məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;
- təsviri sənətin janrlarını ayırır, milli-üslubi cəhətini estetik-emosional hislərə görə izah edir.

**1. Cəmiyyət və təsviri incəsənət**

**1.1. Təsviri incəsənətin cəmiyyətin həyatında əhəmiyyətinə dair bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.**

1.1.1. Təsviri sənətin cəmiyyət həyatındakı rolunu şərh edir.

**1.2. Təsviri və dekorativ-tətbiqi sənətin növ və janrlarına aid bilik və bacarıqlar nümayiş etdirir.**

1.2.1. Təsviri sənətin növ və janrlarını (natürmort, mənzərə, portret) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

1.2.2. Dekorativ-tətbiqi sənət növlərini (metal üzərində döymə, keramika, zərgərlik) xarakterik xüsusiyyətlərinə görə şərh edir.

**1.3. Azərbaycanın, dünya incəsənətinin görkəmli nümayəndələri və onların əsərlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.**

1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri (Əcəmi Naxçıvani, Sadiq bəy Əfşar, Vəcihə Səmədova, Lətif Kərimov, Leonardo da Vinçi, Mikelancelo, Rafael Santi, Albrext Dürer, Memar Sinan) və onların əsərləri haqqında məlumatları şərh edir.

**2. Təsviri və dekorativ yaradıcılıq**

**2.1. Həyati görüntüləri real və abstrakt təsvir edir.**

2.1.1. Həyati görüntüləri natürmort, mənzərə, portret janrlarında real və abstrakt təsvir edir.

2.1.2. Həyati görüntülərin real və abstrakt təsvirində müxtəlif vasitələrdən (pastel təbaşirlər, sulu boya, plastilin və ya gil) istifadə edir.

**2.2. Tərtibat və dizayn bacarıqları nümayiş etdirir.**

2.2.1. Məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

**3. Estetik reaksiya**

**3.1. Təsviri və dekorativ-tətbiqi sənət nümunələrinə estetik-emosional münasibət bildirir.**

3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir.

3.1.2. Təsviri sənətin janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir.



LAYİHƏ

## DƏRSLİK KOMPLEKTİNİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| TƏDRİS VAHİDİ | MÖVZULAR | |
|---|---|---|
| **1. TƏSVİRİ SƏNƏTİN NÖVLƏRİ** | **Qrafika** | |
| | 1. | İnsan və təsviri sənət |
| | 2. | Rəsm – təsviri yaradıcılığın əsasıdır |
| | 3. | Rəsmdə xətt və onun ifadə imkanları |
| | 4. | Çap qrafikası |
| | 5. | Rəssam yaradıcılığında reallıq və fantaziya |
| | **Rəngkarlıq** | |
| | 6. | Qədim dünya rəngkarlığı |
| | 7. | Spektr və rəng dairəsi |
| | 8. | Rəngkarlıq əsərlərində kolorit |
| | 9. | Miniatür rəngkarlığı |
| | **Heykəltəraşlıq** | |
| | 10. | Heykəltəraşlığın növləri |
| | 11. | Heykəltəraşlıqda material və obraz |
| **2. QƏDİM DÜNYA MEMARLIĞI** | 12. | Tikililərdə forma və konstruksiya |
| | 13. | Şərq memarlığının inciləri |
| | 14. | Memarlıqda ornament sənəti |
| | 15. | Qədim sütunlarda təbiət formaları |
| **3. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR** | 16. | Təsviri sənət əsərlərində məzmun |
| | 17. | Rəssam yaradıcılığında insan obrazı |
| | 18. | Zəriflik və mərhəmət simvolu |
| | 19. | Əşyalar aləmi |
| | 20. | Təbiət motivləri |
| **4. DEKORATİV-TƏTBİQİ SƏNƏT NÖVLƏRİ** | 21. | Qədim dünyanın keramika sənəti |
| | 22. | Keramika üzərində rəngkarlıq |
| | 23. | Metalın bədii emal üsulları |
| | 24. | Zərgərlik sənəti |
| | 25. | Dünyanın təsviri sənət xəzinəsi |



LAYİHƏ

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ VƏ İLLİK İŞ PLANI

**İl ərzində 34 saatın 6 saatı kiçik summativ qiymətləndirməyə (KSQ), 2 saatı – ümumiləşdirici dərsə, qalan 25 mövzu isə 26 saat olmaqla məşğələlərin tədrisi üçün nəzərdə tutulmuşdur. Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.**

| | TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | Məşğələ növü | Cəmiyyət və təsviri incəsənət | | | | Təsviri və dekorativ yaradıcılıq | | | Estetik reaksiya | | Saat |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 1.1. | 1.2 | | 1.3. | 2.1. | | 2.2 | 3.1. | | |
| | | | | 1.1.1 | 1.2.1 | 1.2.2 | 1.3.1 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1. | 3.1.2. | |
| 1. | 1. Təsviri sənətin növləri | 1. İnsan və təsviri sənət | m.ü.r. | + | + | | | | + | | + | | 1 |
| 2. | | 2. Rəsm – təsviri yaradıcılığın əsasıdır | n.r. | + | | | | | + | | + | | 1 |
| 3. | | 3. Rəsmdə xətt və onun ifadə imkanları | n.r. | + | | | | + | + | | | | 1 |
| 4. | | 4. Çap qrafikası | m.ü.r. | | | | + | | + | | + | | 1 |
| 5. | | 5. Rəssam yaradıcılığında reallıq və fantaziya | m.ü.r. | + | | | + | | + | | | | 1 |
| 6. | | **Qiymətləndirmə (KSQ №1)** | | | | | | | | | | | 1 |
| 7. | | 6. Qədim dünya rəngkarlığı | t.s.h.s. | + | + | | | | | | + | | 1 |
| 8. | | 7. Spektr və rəng dairəsi | n.r. | + | | | | | + | | + | | 1 |
| 9. | | 8. Rəngkarlıq əsərlərində kolorit | m.ü.r. | | + | | + | | + | | + | | 1 |
| 10-11 | | 9. Miniatür rəngkarlığı | m.ü.r. | | + | | + | + | | + | | | 2 |
| 12. | | **Qiymətləndirmə (KSQ №2)** | | | | | | | | | | | 1 |
| 13. | | 10.Heykəltəraşlığın növləri | yapma | + | + | | | | + | | + | | 1 |
| 14. | | 11. Heykəltəraşlıqda material və obraz | yapma | | + | | + | | + | | | | 1 |
| 15. | | **Qiymətləndirmə (KSQ №3)** | | | | | | | | | | | |
| 16. | | **Ümumiləşdirici dərs** | | | | | | | | | | | 1 |
| 17. | 2. Qədim dünya memarlığı | 12. Tikililərdə forma və konstruksiya | m.ü.r. | + | | | + | | + | | + | | 1 |
| 18. | | 13. Şərq memarlığının inciləri | m.ü.r. | + | | | + | | + | + | | | 1 |
| 19. | | 14. Memarlıqda ornament sənəti | d.-t.f. | + | | | + | | | + | + | | 1 |
| 20. | | 15. Qədim sütunlarda təbiət formaları | d.-t.f. | + | | | | | + | + | | | 1 |
| 21. | | **Qiymətləndirmə (KSQ №4)** | | | | | | | | | | | 1 |
| 22. | 3. Təsviri sənətdə janrlar | 16. Təsviri sənət əsərlərində məzmun | t.s.h.s. | | + | | | | | | + | + | 1 |
| 23. | | 17. Rəssam yaradıcılığında insan obrazı | t.s.h.s. | + | + | | | | | | + | + | 1 |
| 24. | | 18. Zəriflik və mərhəmət simvolu | m.ü.r. | | + | | + | + | + | | | + | 1 |
| 25. | | 19. Əşyalar aləmi | n.r. | + | + | | | + | + | | | + | 1 |
| 26. | | 20. Təbiət motivləri | m.ü.r. | + | + | | | | + | | + | | 1 |
| 27. | | **Qiymətləndirmə (KSQ №5)** | | | | | | | | | | | 1 |
| 28. | 4. Dekorativ-tətbiqi sənət növləri | 21. Qədim dünyanın keramika sənəti | yapma | + | | + | | | + | + | | | 1 |
| 29. | | 22. Keramika üzərində rəngkarlıq | d.-t.f. | | | + | | | + | + | + | | 1 |
| 30. | | 23. Metalın bədii emal üsulları | yapma | + | | + | | | + | + | | | 1 |
| 31. | | 24. Zərgərlik sənəti | d.-t.f. | + | | + | | | + | | | | 1 |
| 32. | | 25. Dünyanın təsviri sənət xəzinəsi | t.s.h.s. | + | | | | | | | + | | 1 |
| 33. | | **Qiymətləndirmə (KSQ №6)** | | | | | | | | | | | 1 |
| 34. | | **Ümumiləşdirici dərs** | | | | | | | | | | | 1 |

**M.ü.r.** – Mövzu üzrə rəsm; **T.s.h.s.** – Təsviri sənət haqqında söhbət; **D-t.f.** – Dekorativ-tətbiqi fəaliyyət; **N.r.** – Naturadan rəsm.

*Müəllim tövsiyə edilən illik planlaşdırma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.*

LAYİHƏ

## FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| TƏDRİS VAHİDİ VƏ MÖVZULAR | | | FƏNNİN ADI VƏ ALT-STANDARTIN NÖMRƏSİ |
|---|---|---|---|
| 1. Təsviri sənətin növləri | 1. | İnsan və təsviri sənət | Tex.–1.1.2.; İnf. –1.2.1.; X-d. –2.1.3. |
| | 2. | Rəsm – təsviri yaradıcılığın əsasıdır | Ə. –3.1.2; İnf. –1.2.1; Tex. –1.3.3. |
| | 3. | Rəsmdə xətt və onun ifadə imkanları | Ə. –2.1.2; 3.1.1; A-d. –1.1.2; 2.1.3. |
| | 4. | Çap qrafikası | A-d. –3.1.3; A.t. –1.1.1; Ə. –2.1.1; 2.2.1; Tex. –1.3.3. |
| | 5. | Rəssam yaradıcılığında reallıq və fantaziya | A-d. –1.1.2; 3.1.3; A.t. –5.1.1; X-d. –1.1.1. |
| | 6. | Qədim dünya rəngkarlığı | A-d. –1.1.2; 3.1.3; Ə. – 2.1.1; 2.2.1; X-d. – 2.1.1. |
| | 7. | Spektr və rəng dairəsi | İnf. –1.2.1; X-d. –1.1.2; 2.1.3; Ə. –2.1.1. |
| | 8. | Rəngkarlıq əsərlərində kolorit | A-d. –2.1.4; A.t. –1.2.2; Ə. –2.2.1; 2.1.1; Tex. –1.3.3. |
| | 9. | Miniatür rəngkarlığı | A-d. –1.1.2; A.t. –1.1.2; Tex. –1.3.3. |
| | 10. | Heykəltəraşlığın növləri | İnf. –1.2.1; Tex. –1.2.2; X-d. –1.1.2. |
| | 11. | Heykəltəraşlıqda material və obraz | A-d. –1.1.1; Ə. –2.1.2; Tex. –1.3.3. |
| 2. Qədim dünya memarlığı | 12. | Tikililərdə forma və konstruksiya | A-d. –1.1.2; A.t. –5.1.1; Tex. –1.3.3. |
| | 13. | Şərq memarlığının inciləri | A-d. –2.1.4; Ü.t. –5.1.1; X-d. –2.1.1. |
| | 14. | Memarlıqda ornament sənəti | Ə. – 2.1.1; 2.2.1; Tex. – 1.3.2; X-d. –2.1.2. |
| | 15. | Qədim sütunlarda təbiət formaları | Tex. –1.3.3; A-d. –2.1.4; A.t. –1.1.2; Ə. – 2.1.1. |
| 3. Təsviri sənətdə janrlar | 16. | Təsviri sənət əsərlərində məzmun | A-d. – 3.1.3; X-d. –1.1.1; Ə. –2.1.1. |
| | 17. | Rəssam yaradıcılığında insan obrazı | A-d. –1.1.2; 2.1.3; Ə. –2.2.1; İnf. –1.2.1. |
| | 18. | Zəriflik və mərhəmət simvolu | A-d. –1.1.2; Ə. –2.1.1; Tex. –1.3.3. |
| | 19. | Əşyalar aləmi | Ə. –2.2.1; A.t. –1.2.1; X-d. –2.1.3. |
| | 20. | Təbiət motivləri | B. –1.1.2; A-d. –1.1.2; Tex. –1.3.3. |
| 4. Dekorativ-tətbiqi sənət növləri | 21. | Qədim dünyanın keramika sənəti | A-d. –1.1.2; A.t. –1.2.1; Tex. –1.3.2. |
| | 22. | Keramika üzərində rəngkarlıq | A-d. –2.1.3; Ü.t. –3.1.2; Tex. –1.3.3; X-d. –2.1.1. |
| | 23. | Metalın bədii emal üsulları | Tex. –1.3.3; 1.2.2; Ə. –1.2.4; İnf. –1.2.2. |
| | 24. | Zərgərlik sənəti | A-d. –1.1.2; Ə. –1.2.4; Tex. –1.2.2. |
| | 25. | Dünyanın təsviri sənət xəzinəsi | A-d. –1.1.2; A.t. –1.2.1; Ü.t. –5.1.3. |

*A-d. – Azərbaycan dili, X-d. – Xarici dil, Az.t. – Azərb. tarixi, Ə. – Ədəbiyyat, Ü-t – Ümumi tarix, Tex. – Texnologiya, B. –Biologiya, İnf. – İnformatika.*

## Şagird nailiyyətlərinin qiymətləndirilmə prinsipləri və üsulları

Təlim prosesinin ən mühüm mərhələlərindən biri qiymətləndirmədir. Hər bir fənn üzrə təlim prosesinin müxtəlif mərhələlərində aparılan qiymətləndirmə şagirdlərdə mənfi emosiya doğurmamalıdır. O cümlədən təsviri incəsənət fənni üzrə əldə edilən bilik və bacarıqların qiymətləndirilməsində bir yaradıcılıq, şəffaflıq, yüksək estetik zövq və daimi yüksəlişə, ümumbəşəri dəyərlərə köklənmiş müsbət emosiya hiss olunmalıdır. Bu prosesdə müəllim şagirdin səhvlərini deyil, daha çox əldə etdiyi nailiyyətləri, keyfiyyət



LAYİHƏ

göstəricilərini və qazandığı dəyərləri vurğulamalıdır. Müəllim təlim prosesində müəyyənləşdirilmiş hər hansı bir səhvin ən asan həlli yollarını tapmaqda onlara dəstək verməklə, stimul yaratmalıdır.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır. Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur. Bu qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr: müsahibə; söhbət; müşahidə; tapşırıqlar; valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir. Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr:

| Üsullar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |



LAYİHƏ

## TƏSVİRİ İNCƏSƏNƏT FƏNNİ ÜZRƏ FORMATİV QİYMƏTLƏNDİRMƏ ZAMANI İSTİFADƏ OLUNAN ÜSUL VƏ VASİTƏLƏR

| FƏALİYYƏT NÖVLƏRİ | ÜSULLAR | VASİTƏLƏR |
|---|---|---|
| **Müşahidəetmə** | **Müşahidə** (müəllim şagirdlərin fəaliyyətini müşahidə edərək qiymətləndirir). | **Müşahidə vərəqi** (şagirdin təlim fəaliyyətindən gözlənilən nəticəni əks etdirən meyarların yazıldığı cədvəl):<br>natura, təbiət, interyer, meyvə, tərəvəz, məişət əşyaları və s.<br>Təsviri incəsənət əsərləri (rəsm və heykəltəraşlıq nümunələri).<br>Dekorativ-tətbiqi sənət nümunələri (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər). |
| **Təsvirlərin təhlili** | **Tapşırıqvermə** | **Təsviri sənət əsərləri, rəsm işləri** |
| | **Nəzəri tapşırıqlar** | |
| | Sənət əsərlərinin izahı, müqayisəsi, şərhi, təhlili | Təsviri (reproduksiya, fotoşəkil və s.) və dekorativ sənət əsərlərinə (ağac üzərində oyma, xalçaçılıq, bədii tikmə, parça, misgərlik, zərgərlik, keramika, milli geyimlər) münasibət |
| | **Praktiki tapşırıqlar**: | |
| | ***Məzmun*** | ***İşləmə texnikası*** |
| | səth üzərində | rəsm, rəngkarlıq, aplikasiya |
| | həcmli (model) | kağız, karton, plastilin, gil, maket |
| | • rəsm çəkmək (naturadan rəsm, mövzu üzrə rəsm, dekorativ fəaliyyət və s.);<br>• dekorativ-tətbiqi fəaliyyət (texnikalar: aplikasiya, panno, kollaj, dekupaj, vitraj, mozaika, batika, tikmə, hörmə və s.);<br>• yapma (relyefli və ya həcmli);<br>• kompüter qrafikası | • karandaş, flomaster, diyircəkli və rəngli qələm, tuş, kömür, qrafit, pastel tabaşir, rəngli kağız, karton, qutu, parça, boya (quaş, akvarel, akril, yağlı boya və s.) və s.;<br>• təbiət materialları (düyü, buğda, şam qozası, ağac, budaq, toxum, yarpaq və s.);<br>• plastilin, gil, gips, duzlu xəmir;<br>• qrafik redaktor (Paint və s.) |
| **Sorğu** | Şifahi sual-cavab | • Təsviri incəsənət əsərləri, ətraf aləm, qayda və anlayışlar üzrə sual-cavablar, təhlil, müzakirə üzrə ***qeydiyyat vərəqi*** |
| **Təqdimat** | Şifahi, yazılı, rəmzi, təsviri, kompüterdə təqdimatlar | Şifahi cavablar;<br>bədii əsərlərə esselərin yazılması;<br>rəmzi təsvirlər (işarələr);<br>bədii yaradıcılıq və əl işləri, slayd vasitəsilə təqdimat;<br>layihələr |
| **Qiymətləndirmə** | Qrup işlərinin qiymətləndirilməsi, özünüqiymətləndirmə, rubrik üzrə qiymətləndirmə, qrafik, sxem, şkala, test və s. | Qiymətləndirmə vərəqləri, qiymətləndirmə sxemləri, meyarlar cədvəli, şkalalar, sxemlər, test tapşırıqları və s. |



LAYİHƏ

**Qrup diskussiyaları üçün qrupun özünüqiymətləndirməsi**

Şagirdlər qruplar şəklində işləyərkən dərsin sonunda müəllim tərəfindən onlara öz işlərini qiymətləndirmək üçün vaxt verilir. Müəllim şagirdlərə öz işlərini qiymətləndirmək üçün müəyyən istiqamətlər verə bilər.

| № | Meyarlar | Həmişə | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| 1 | Müzakirəyə başlamazdan əvvəl tapşırığı dəqiqləşdiririk. | | | |
| 2 | Tapşırıqdan kənara çıxmırıq. | | | |
| 3 | Hamı fikrini söyləyir. | | | |
| 4 | Bir rəyə gələ bilirik. | | | |
| 5 | Qrupda yerinə yetiriləcək işləri aramızda düzgün bölürük. | | | |
| 6 | İşi verilən vaxt ərzində yerinə yetiririk. | | | |

Şagirdlər qrup daxilində öz işlərini qiymətləndirdikdən sonra bu işin səmərəsini necə artırmaq barədə müəllimlə müzakirə apara bilərlər.

**Qrup fəaliyyətinin qiymətləndirilməsi**

Şagirdləri qiymətləndirmək üçün müəllim özü də şagirdlərlə birlikdə meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər. Bunun üçün o, tədqiqat işinə başlamazdan əvvəl şagirdlərlə birlikdə qrupun fəaliyyətini qiymətləndirmək üçün meyarlar işləyib hazırlamalıdır. Qiymətləndirmə ballarını ulduzlardan, müxtəlif işarələrdən, simvollardan (smayliklərdən) istifadə etməklə göstərmək olar. Nəticədə isə hər qrupun topladığı ulduz, simvol (smayliklər) sayılır.

| QRUP | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | Dinləmə | Əməkdaşlıq | Tapşırıq tam və uyğun yerinə yetirilib | Əlavələr | Tərtibat | Vaxtında yerinə yetirilib |
| **I** | | | | | | |
| **II** | | | | | | |
| **III** | | | | | | |
| **IV** | | | | | | |

**Toplum halında qiymətləndirmə**

Toplum halında qiymətləndirmə şagirdlərin bilik və bacarıqlarını ən obyektiv şəkildə qiymətləndirməyə imkan verir. Lakin bu üsul digər qiymətləndirmə formalarına nisbətən mürəkkəb olduğu üçün daha çox səy tələb edir. Bunun üçün hər şagirdə bir qovluq ayrılır. Qiymətləndiriləcək işlər müəllim və ya şagirdin özü tərəfindən bu qovluğun içinə yığılır. Müəllim və şagirdlər qiymətləndiriləcək materialları müəyyən etdikdən sonra şagirdlərin qoyulmuş məqsədə çatmaq səviyyəsini müəyyən etmək üçün bu materiallar üzrə qiymətləndirmə meyarları barədə razılığa gəlirlər. Bu materiallar dərsin mövzuları üzrə çalışma və tapşırıqlardan, müxtəlif testlərdən, layihələrdən, tədqiqat işlərindən, ev tapşırıqlarından, özünüqiymətləndirmə formalarından, dərsdənkənar praktik tapşırıqlardan, şagirdlərin formalaşdırdığı suallar toplusundan və s. ibarət ola bilər. Bu, toplum vasitəsilə summativ qiymətləndirmə adlanır.

Müvafiq qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin arxasında verilmişdir.

Müəllim üçün metodik vəsaitdə bir sıra qiymətləndirmə üsullarından istifadə olunması tövsiyə edilir. Müəllim bu üsul və formalardan öz məqsədinə uyğun şəkildə istifadə edib, yenilərini yarada bilər.



LAYİHƏ

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır. Tədris prosesində formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə oluna bilər.

Formativ qiymətləndirmə aparmaq üçün rubriklərdən istifadə olunur. Rubrik xüsusi növ qiymətləndirmə şkalasıdır. O, iki əsas suala cavab verir:

- "Mən nəyi qiymətləndirməliyəm?" (obyekt, məzmun, aspektlər, tərəflər, xüsusiyyətlər);
- "Aşağı, orta, yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə bilmək olar?"

Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Rubrik vasitəsilə qiymətləndirmə nəticəsində şagirdlərin keçilmiş materialı necə mənimsədiklərini, buraxdıqları xarakterik səhvləri müəyyən etmək, növbəti dərsdə qarşıya çıxa biləcək problemlər üzərində görüləcək işləri dəqiqləşdirmək olar.

Qiymətləndirmə şkalası nailiyyət səviyyələrinə qiymət (bal) verilməsi üçün mexanizmdir. Rubriklərin hazırlanması üçün əvvəlcə dərsin məqsədləri müəyyən olunmalıdır.

**Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:**

1. Qısa və sadə tərzdə, şagirdin anlayacağı sadə dildən istifadə edilməlidir.
2. Müqayisəli və ya normativ dildən fərqli olaraq deskriptiv dildən istifadə edin. Pis, orta, kafi, yaxşı, əla kimi qeyri-müəyyən deskriptorlardan uzaq durulmalıdır.
3. Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.
4. Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalıdır, üst-üstə düşməməlidir.
5. Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.
6. Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.
7. Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məsələn: bir aspekt üzrə "4" qiyməti digər aspekt üzrə "4" qiyməti ilə müqayisə oluna bilməlidir).
8. Əvvəlcə "ən yüksək", sonra "ən aşağı" səviyyələr, sonda "aralıq" səviyyələr təsvir edilməlidir.
9. Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, bununla yanaşı, real olmalıdır.
10. Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

Vəsaitdə hər bir dərsin sonunda təlim nəticələrinə uyğun formativ qiymətləndirmə meyarları göstərilmişdir.

**Summativ qiymətləndirmə** hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur. VI sinifdə böyük summativ qiymətləndirmə aparılmır.

Kiçik summativ qiymətləndirmə VI sinifdə təsviri incəsənət fənni üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur. Kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

Kiçik summativ qiymətləndirmə 100 ballıq şkala ilə ölçülür.

Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə



LAYİHƏ

ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:
– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.
Təhsilalanın summativ qiymətləndirmədə topladığı ballar və onların uyğunlaşdırıldığı qiymət summativ qiymətləndirmənin aparıldığı tarixdə sinif jurnalında və "Məktəbli kitabçası"nda yazılır. Tədris vahidlərinin sonunda isə summativ qiymətləndirmə vasitələri verilmişdir. Qiymətləndirmə dərslərində müəllim vəsaitdəki vasitələrdən yararlana bilər və ya bu nümunələr əsasında yeni qiymətləndirmə vasitəsini özü tərtib edə bilər. Kiçik summativ qiymətləndirmə vasitələrinə aid nümunələr vəsaitin sonunda verilmişdir.

**Yarımillik və illik qiymətlərin hesablanması**

Təhsilalanların kiçik summativ qiymətləndirmədə topladığı ballar əsasında yarımillik ballar hesablanır. II sinifdə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y= (ksq1+ ksq2+\ldots+ ksqn ) / n$$

*Y*- təhsilalanın yarımillik üzrə balını;

$ksq_1, ksq_2, \ldots ksq_n$ - hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;

*n* – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

## Təsviri incəsənət dərslərində informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə imkanları

Müasir tədris sistemində informasiya texnologiyaları o qədər geniş tətbiq olunur ki, artıq onların zəruriliyi şübhə doğurmur.

Artıq məktəbin gündəlik praktik həyatında interaktiv avadanlıq və elektron lövhələr tətbiq olunmaqdadır ki, bu da qısa müddət ərzində təlim-tədris prosesinin ayrılmaz hissəsinə çevrilib.

## Təlimin təşkilində istifadə olunan forma və üsullar

Təlim üsulları təlim prosesinin səmərəliliyini təmin edən faktorlardan biridir. Nəzərdə tutulan bacarıqların formalaşdırılmasının ən real rolu təlim prosesinin əsasında, fəal təlim üsullarından istifadə etməklə təşkil etməkdir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Vəsaitdə fəal təlimin iş formalarından istifadə etməklə şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafı, işgüzar iş mühiti, əməkdaşlıq şəraiti təmin olunur.

## Təsviri incəsənət dərslərində musiqinin rolu

Orta məktəbdə təsviri incəsənət dərslərində musiqinin rolu əvəzedilməzdir. Təsviri sənətlə musiqi arasında çoxtərəfli əlaqə var. Qeyd edilməlidir ki, onlar eyni dərəcədə bədii təxəyyülü, fantaziyanı inkişaf etdirir, emosional aktivliyi artırır, bir sözlə, insanın daxili aləminin zənginliyinə gətirib çıxarır. Müəllim nəzərə almalıdır ki, musiqinin səslənməsi görmə obrazlarına xüsusi ahəng və qabarıqlıq verir. Şübhəsiz, belə coşqun qavrama şagirdin yaradıcı fəaliyyətinə stimullaşdırıcı təsir göstərir. Musiqi fraqmentinin optimal səslənmə müddəti konkret şəraitdən asılı olaraq 20-40 saniyədir.



LAYİHƏ

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

## 1. TƏSVİRİ SƏNƏTİN NÖVLƏRİ

**Qrafika**
1. İnsan və təsviri sənət
2. Rəsm – təsviri yaradıcılığın əsasıdır
3. Rəsmdə xətt və onun ifadə imkanları
4. Çap qrafikası
5. Rəssam yaradıcılığında reallıq və fantaziya

**Rəngkarlıq**
6. Qədim dünya rəngkarlığı
7. Spektr və rəng dairəsi
8. Rəngkarlıq əsərlərində kolorit
9. Miniatür rəngkarlığı

**Heykəltəraşlıq**
10. Heykəltəraşlığın növləri
11. Heykəltəraşlıqda material və obraz




## QRAFİKA

### 1. İNSAN VƏ TƏSVİRİ SƏNƏT

<table>
<tr><td>Məşğələ növü:</td><td>mövzu üzrə rəsm</td></tr>
<tr><td>Alt-standart:</td><td>1.1.1; 1.2.1; 2.1.2; 3.1.1.</td></tr>
<tr><td colspan="2">Təlim nəticələri:<br>• təsviri sənətin və cəmiyyətin inkişafını nümunələr əsasında əlaqələndirərək şərh edir;<br>• təsviri sənətin növlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyalardan istifadə edir;<br>• təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə) estetik münasibət bildirir.</td></tr>
<tr><td>Təchizat:</td><td>dərslik, albom, A3 və ya A4 formatlı rəsm vərəqi, müxtəlif materiallardan istifadə (seçimə əsasən).</td></tr>
</table>

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*İlk mövzu təsviri sənət növləri haqqında geniş təsəvvürlər, onların əsas ifadə və təsvir vasitələri haqqındadır. Burada təsviri sənət növlərinin yaranmasına, müxtəlif material və*



LAYİHƏ

*texnikaların xarakterinə və işləmə imkanlarına geniş yer verilmişdir. Şagirdlərə incəsənətin hələ qədim dövrlərdən yaranmasını və insanın həyatı ilə sıx əlaqədə olmasını vurğulamaq lazımdır. Buna nümunə – yazı yazmaq bacarığı formalaşmadığı halda qədim insanın qaya üzərində cızdığı təsvirlərdir. Bu dərsdə "Niyə başər tarixində cəmiyyət heç zaman incəsənətsiz mövcud olmayıb və ola bilməz?", "Təsviri sənətlə harada qarşılaşırıq?", "Təsviri sənət insanın həyatında hansı rolu oynayır?" sualları ətrafında müzakirə aparılır.*

Müəllim lövhədən sual işarəsi yazılmış vərəq, ətrafına isə kiçik formada yazılmış anlayışlar asır. Şagirdlərdən bu anlayışların nəyə aid olduğunu soruşur. Onları "TƏSVİRİ SƏNƏT" cavabına istiqamətləndirmək üçün əlavə suallar verilə bilər.




– İnsan nə zamandan rəsm çəkir, gildən fiqurlar yapır və özünə sığınacaq tikir?
– Bu fəaliyyətlər necə adlanır?

Şagirdlər təsviri sənət növlərinin bir-birindən fərqli və oxşar xüsusiyyətlərini müəyyən edirlər.
Bu, ilk dərs olduğu üçün müəllim təsviri sənətin növləri haqqında diaqnostik qiymətləndirmə apara bilər.

*Nümunə:*

| | |
|---|---|
| **Təsviri sənətin növləri:**<br>a) mənzərə, natürmort, portret<br>b) qrafika, heykəltəraşlıq, rəngkarlıq<br>c) rəngkarlıq, mənzərə, qrafika<br>d) heykəltəraşlıq, qrafika, natürmort | **Dekorativ-tətbiqi sənət növləri:**<br>a) rəngkarlıq, qrafika<br>b) bədii metal, keramika<br>c) memarlıq, dizayn<br>d) heykəltəraşlıq, xalçaçılıq |
| **Qrafik materiallar bunlardır:**<br>a) karandaş, flomaster b) quaş, akvarel<br>c) gil, plastilin d) qayçı, yapışqan | **Rəngkarlıq – təsviri sənətin...**<br>a) növüdür b) hissəsidir<br>c) janrıdır d) elementidir |
| **Təsviri sənətin bu növü boyalar vasitəsilə yaradılır:**<br>a) heykəltəraşlıq b) rəngkarlıq<br>c) dekorativ-tətbiqi sənət d) qrafika | **Təsviri sənətin hansı növündə əsas material daş, mərmər, gil sayılır?**<br>a) portret b) heykəl<br>c) rəngkarlıq d) heykəltəraşlıq |

**Tədqiqat sualı: Təsviri sənətin insanın həyatında rolunu nədə görürsünüz?**
**Təsviri sənətin növlərinə aid simvolik rəsmi necə çəkmək olar?**

BİBÖ cədvəlindən istifadə etməklə şagirdlər təsviri sənətin insan həyatında rolu, onun növləri haqqında bildiklərini cədvəlin "Bilirik" sütununa yazırlar. Sonra bu haqda nə öyrənmək istədikləri və meydana gələn suallar cədvəlin "İstəyirik bilək" hissəsində qeyd edilir.

Bu üsulu (vaxta qənaət məqsədilə) qruplarla deyil, kollektiv şəkildə təşkil etmək



LAYİHƏ

məqsədəuyğundur. Şagirdlər dərslikdəki məlumatla tanış olurlar.

Dərslikdən öyrəndiklərini cədvəlin 3-cü hissəsində yazılan "Öyrəndik" hissəsinə əlavə edirlər.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Şagirdlər mövzu ilə tanış olduqdan sonra hər qrupa təsviri sənət növlərini bir-biri ilə müqayisə etmək tapşırığı verilir. Bu onlara təsviri sənətin növlərini daha dərindən mənimsəməyə kömək edər.

***Qeyd:***

- *Rəngkarlıqda təsvir zamanı bütün rənglərdən istifadə edilə bilər. Qrafikada isə yalnız ağ və qara rənglər üstünlük təşkil edir, bəzən isə iki-üç rəngdən istifadə etmək olar.*
- *Dekorativ-tətbiqi sənət isə gündəlik həyatımızda ətrafımızı gözəlləşdirən və yaraşıq verən növdür və s.*

Şagirdlərin təsviri sənət növlərinin özünəməxsus təsvir və ifadə vasitələrinə malik olduğunu xatırlatmaq üçün müəllim lövhədə hər növə aid kişik vərəqlər hazırlayır və orada növlərə xas olan ifadə vasitələrini qeyd edir.




*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər qruplara cəlb edilir. Onlar rəsm çəkildikdən sonra hər hansı bir hissəni rəngləyə bilərlər.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun tapşırıqlar vermək olar; məsələn:

| | |
|---|---|
| Zəif | Gündəlik həyatda təsviri sənətlə harada qarşılaşdığını düşünmək və xatırladıqlarınızı təsvir etmək. |
| Orta | Təsviri sənət növlərini sxem və ya cədvəl şəklində qruplaşdırmaq və hər növə aid simvolik təsvir, yaxud sadə nümunələrin rəsmini çəkmək. |
| Yüksək | Təsviri sənət növləri haqqında təqdimat hazırlamaq. |

Tapşırıq zamanı müəllim müzakirə apara bilər:

– İnsan hər gün təsviri sənətlə evdə (rəsm əsərləri, xalça, qab-qacaq və s.), küçədə (heykəl, plakat, afişa, tikililər və s.), məktəbdə (rəsm əsərləri, heykəltəraşlıq nümunələri, təsviri sənətə dair guşə, muzey və s.) qarşılaşır. Bu nümunələri təsvir edəndə bir daha insan həyatında onun rolunun nə qədər vacib olduğunu anlayır.

Təsviri sənət növlərini qruplaşdırmaq üçün sxem və ya cədvəl qurmaq olar.

Şagirdlər hər bir növə aid cədvəlin içində simvolik təsvir, yaxud sadə nümunələrin rəsmini çəkə bilərlər.



LAYİHƏ

**Yaradıcı tətbiqetmə**

Birinci dərs olduğu üçün müəllim şagirdlərə yay tətili təəssüratlarını çəkməyi tapşıra bilər.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından istifadə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətin və cəmiyyətin inkişafını nümunələr əsasında əlaqələndirərək şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin insanların həyatındakı əhəmiyyətini müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin və cəmiyyətin inkişafını nümunələr əsasında əlaqələndirərək şərh edərkən kiçik səhvlərə yol verir. | Təsviri sənətin və cəmiyyətin inkişafını nümunələr əsasında əlaqələndirərək şərh edir. |
| Təsviri sənətin növlərini fərqləndirməkdə və xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə səthi şərh edir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə tam şərh edir. |
| Həyati görüntülərin real təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyaların istifadəsində çətinlik çəkir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər, sulu boyalardan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyalardan səliqəsiz istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyalardan istifadə edir. |
| Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə) səthi estetik münasibət bildirir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Təsviri sənətin əsas növləri – **rəngkarlıq, qrafika** və **heykəltəraşlıq** çox qədim tarixi keçmişə malikdir. Süni mağaralar, qalalar, məbədlər təsviri sənətin **memarlıq** növünə aid ən qədim nümunələrdəndir. **Dulusçuluq, misgərlik** kimi dekorativ-tətbiqi sənət növlərinə aid nümunələr həm də insanların gündəlik həyatında, məişətində istifadə etdikləri əşyalardır.



LAYİHƏ

# 2. RƏSM – TƏSVİRİ YARADICILIĞIN ƏSASIDIR

| | |
|---|---|
| **Məşğələ növü**: | naturadan rəsm |
| **Alt-standart:** | 1.1.1; 2.1.2; 3.1.1. |
| **Dərsin məqsədi:**<br>• rəsm növlərinin cəmiyyət həyatındakı rolunu şərh edir;<br>• obyektlərin real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə edir;<br>• rəsm növlərindəki üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, sadə karandaş, gel qələm, pastel təbaşirlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərsin əsas məqsədi – şagirdlərdə müxtəlif dövrlərdə təsvir fəaliyyətinin əsasını rəsmin təşkil etdiyini, rəsmin müxtəlifliyinin mövcudluğunu, onun bədii-ifadəli vasitələri haqqında təsəvvürləri formalaşdırmaqdır.*



Müəllim şagirdlərdə dərsə maraq yaratmaq üçün dərslikdə verilən qrafik materialların (karandaş, flomaster, qələm və ya tuş) təsvirini yazı lövhəsindən asa bilər.

– Karandaş, kömür, flomaster, qələm və ya tuş vasitəsilə çəkilən təsvirlər necə adlanır?

Karandaş, kömür, flomaster, qələm və ya tuş vasitəsilə çəkilən təsvirlər **rəsm** adlanır. Eyni zamanda bu təsvirlər "qrafik əsərlər"dir. Rəsmlər qısamüddətli və uzunmüddətli olur. Onların müxtəlif növləri mövcuddur:




**Tədqiqat sualı: Təsviri sənət əsərlərinin meydana gəlməsində və inkişafında rəsmin nə kimi əhəmiyyəti var? Təbiət obyektlərinin naturadan və ya təsəvvürdən qaralama və eskizini necə çəkmək olar?**

Şagirdlər dərslikdəki mövzu ilə adi qaydada tanış olmurlar. Bunun üçün "Ziqzaq" texnikasından istifadə etmək olar. Onları 1-ci qrup – *Qaralama,* 2-ci qrup – *Eskiz*, 3-cü qrup – *Tədris rəsmi*, 4-cü qrup – *Yaradıcı rəsm*, 5-ci qrup – *Texniki rəsm* adlanan qruplara ayırmaq olar. Bu qruplar "Doğma" adlanır.

Müəllim onlara rəsm haqqında bildiklərini yazmağı, sonra isə yazdıqlarını səsləndirməyi tapşırır. Hər qrup 1, 2, 3, 4, 5 saymaqla "Ekspert" qruplara ayrılır. 1-ci "Ekspert" qrupu – *Qaralama*, 2-ci "Ekspert" qrupu – *Eskiz,* 3-cü "Ekspert" qrupu –



LAYİHƏ

*Tədris rəsmi*, 4-cü “Ekspert” qrupu – *Yaradıcı rəsm*, 5-ci “Ekspert” qrupu – *Texniki rəsm* haqqında dərslikdəki mövzunu öyrənir. Onların öyrənmələrinə müəyyən vaxt ayırmaq olar. Sonra “Ekspert” qruplar “Doğma” qruplara qayıdıb öyrəndiklərini bir-birinə söyləyirlər. Nəticədə “Doğma” qruplar bütün mövzunu mənimsəyir və öyrəndiklərini digərlərinə təqdim edirlər. Müəllim mövzunu mənimsətmək üçün BİBÖ, yaxud “Fasilələrlə oxu” üsullarından da istifadə edə bilər.

Qruplar dərsi mənimsədikdən sonra naturadan rəsm çəkməyə başlayırlar. Şagirdlər təbiət obyektlərinin (gül, ot, meyvə, yarpaq, qoza) və ya əşyaların naturadan qaralamasını və eskizini çəkə bilərlər. Obyektlərin dəqiq forması, əsas hissələrin hündürlüyünün nisbəti, obyektin xarakterik cizgiləri tapılmalıdır.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər qrupda yalnız rəngləmə işlərinə kömək edə bilərlər.

Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Güllərin rəsmini (qaralama və ya eskiz) çəkmək. |
| Orta | Əşyaların rəsmini (qaralama və ya eskiz) çəkmək. |
| Yüksək | Heyvanların rəsmini (qaralama və ya eskiz) çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Rəsmin növləri haqqında əlavə məlumat toplamaq və inkişaf mərhələlərini göstərməklə təqdimat hazırlamaq.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından iştifadə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Rəsm növlərinin cəmiyyət həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Rəsm növlərinin cəmiyyət həyatındakı rolunu müəllimin köməyi ilə şərh edir. | Rəsm növlərinin cəmiyyət həyatındakı rolunu verilmiş nümunə əsasında şərh edir. | Rəsm növlərinin cəmiyyət həyatındakı rolunu şərh edir. |
| Obyektlərin real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə etməkdə çətinlik çəkir. | Obyektlərin real və ya abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Obyektlərin real təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Obyektlərin real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə edir. |
| Rəsm növlərindəki üslubi cəhətlərə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Rəsm növlərindəki üslubi cəhətlərə estetik münasibət bildirməyə çalışır. | Rəsm növlərindəki üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) nümunələr əsasında estetik münasibət bildirir. | Rəsm növlərindəki üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Qrafik materiallarla çəkilən təsvirlər **rəsm** adlanır. Rəsmin müxtəlif növləri mövcuddur: **qaralama, eskiz, tədris rəsmi** və s.



LAYİHƏ

## 3. RƏSMDƏ XƏTT VƏ ONUN İFADƏ İMKANLARI

| **Məşğələ növü**: | naturadan rəsm |
|---|---|
| **Alt-standart:** | 1.1.1; 2.1.1; 2.1.2. |
| **Təlim nəticələri:**<br>• xətlərin cəmiyyətin həyatındakı rolunu şərh edir;<br>• xətlər vasitəsilə natürmort, mənzərə, yaxud portret janrlarını real və abstrakt təsvir edir;<br>• həyati görüntülərin xətt vasitəsilə real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə edir. | |
| **Təchizat**: | dərslik, rəsm əsərlərindən nümunələr, sadə karandaş, gel qələm, pastel təbaşirlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Mövzuda xəttin ifadə imkanları, xətlərin müxtəlif xarakterləri ilə tanışlıq yer alır. Mövzu əvvəlkinin davamı sayılır. Bu dərsi bütövlükdə praktiki tapşırıqların həllinə həsr etmək məqsədəuyğundur.*

Müəllim suallarla sinfə müraciət edə bilər:

– Rəsm nədən başlayır? (*xətdən*). Xətt haqqında nə bilirsiniz?

Əvvəlki siniflərdə də şagirdlər xətt haqqında məlumat toplayıblar. Ona görə də müəllim bu mövzuda müzakirə təşkil edə bilər.

Tədqiqat sualı: **Təsviri incəsənətdə xətlərin rolu nədən ibarətdir? Xətlər vasitəsilə hisləri, ovqatı necə göstərmək olar?**

Şagirdlərə mövzunu mənimsətmək üçün İQS (**İNSERT**) üsulundan istifadə etmək olar. Bunun üçün onlara dərslikdəri mətnin üzərində karandaşla işləmək məsləhət görülür. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓" – bilirəm, "+"– yeni informasiyadır, "?"– anlamadım). Oxuduqdan sonra müəllim deyə bilər:

– İndi "işarələmə cədvəli" çəkin. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəlin uyğun sütunlarına yazın.

| "✓" – bilirəm | "+" – yeni informasiyadır | "?" – anlamadım |
|---|---|---|
| | | |

Hər şagird yanında oturan yoldaşı ilə cütlükdə mətni müzakirə edə bilər. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra onların anlamadığı fikirləri müəllim müzakirə vasitəsilə izah etməlidir. Mətni mənimsədikdən sonra şagirdlər yenidən cütlükdə verilən tapşırığı müxtəlif ləvazimatlar çəkirlər.

**1-ci sıra.** Rəssamların çəkdikləri rəsmləri nisbi dəqiqliklə təkrarlamağa çalışır. Qaralamaları diqqətlə öyrənir, onları maraqlandıran əşyanı müəyyənləşdirir, sonra cəsarətli və ifadəli xətlərdən istifadə etməklə onu çəkməyə çalışır.

**2-ci sıra.** Bir neçə xətdən istifadə edərək çiçək, heyvan, insan təsviri çəkə bilərlər.

**3-cü sıra.** Külək əsərkən ağacların yellənməsini təsvir etmək olar. Burada bütün yarpaqları və budaqları çəkmək tələb olunmur. Başlıca ifadə vasitəsi – xətlərin ritmidir. Ritm – bu elementlərin ardıcıllığı və ya öz arasında təkrarıdır.



LAYİHƏ

**4-cü sıra.** Konkret əşyanı çəkmədən “qəzəb” və “sevinc” – xətt, ştrix və cizgilər vasitəsilə vərəqdə təsvir etmək olar.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər 2-ci sırada əyləşib tapşırıqlarını çəkə bilərlər.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Ağacların küləkdə yellənməsini təsvir etmək. |
| Orta | Xətlərdən istifadə etməklə istədiyin əşyanın təsvirini çəkmək. |
| Yüksək | Vərəq üzərində “qəzəb” və “sevinc” təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Xətlərdən istifadə edərək portret çəkmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsviretmə;
- Təsvir materiallarından istifadə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| İnsanların həyatında xətlərin rolunu şərh etməkdə çətinlik çəkir. | İnsanların həyatında xətlərin rolunu müəllimin köməyi ilə şərh edir. | İnsanların həyatında xətlərin rolunu şərh edərkən kiçik səhvlərə yol verir. | İnsanların həyatında xətlərin rolunu sərbəst şərh edir. |
| Xətlər vasitəsilə natürmort, mənzərə, yaxud portret janrlarını real və abstrakt tərzdə təsvir etməkdə çətinlik çəkir. | Xətlər vasitəsilə natürmort, mənzərə, yaxud portret janrlarını real və abstrakt təsvir edilməsində müəllimin köməyindən istifadə edir. | Xətlər vasitəsilə natürmort, mənzər, yaxud portret janrlarının real və abstrakt təsvirində kiçik səhvlərə yol verir. | Xətlər vasitəsilə natürmort, mənzərə, yaxud portret janrlarını real və abstrakt təsvir edir. |
| Həyati görüntülərin xətt vasitəsilə real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Həyati görüntülərin xətt vasitəsilə real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin xətt vasitəsilə real və ya abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Həyati görüntülərin xətt vasitəsilə real və abstrakt təsvirində sadə karandaş, gel qələm, pastel təbaşirlərdən istifadə edir. |

**Nə öyrəndiniz**

Təsviri sənətdə **xətt** – əsas ifadə vasitələrindən biridir. Təsvirdə əşyanın kənarı **kontur** xətlə işarə edilir. Hər bir xəttin öz **xarakteri** var.



LAYİHƏ

# 4. ÇAP QRAFİKASI

| | |
|---|---|
| **Məşğələ növü**: | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.3.1; 2.1.2.; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• görkəmli rəssam Albrext Dürer və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• monoqramın real tərzdə təsvirində rəngli karandaşlar, gel qələmlər, flomasterlər, pastel tabaşirlərdən istifadə edir;<br>• Albrext Dürerin əsərlərində üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat**: | dərslik, sadə və rəngli karandaşlar, gel qələmlər, flomasterlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Mövzunun məqsədi təsviri sənətin qrafika növünün iki hissəyə – rəsm və çap qrafikasına ayrıldığını, onların ən qədim və ənənəvi növünün rəsm olduğunu şagirdlərə çatdırmaqdır. Qrafikanın növlərini təhlil etmək üçün karandaşla işlənilən rəsmin əsasən kağız üzərində və yalnız bir nüsxədə çəkildiyini vurğulamaq məqsədəuyğundur. Qrafikanın digər növü – çap qrafikasını rəsmdən fərqləndirən əsas cəhət odur ki, çap qrafikasında əsərlərdən eyni keyfiyyətdə istənilən qədər nüsxə almaq mümkündür. Buraya daş, metal, ağac və linoleum üzərində qazılmış və ya həkk olunmuş rəsmlər daxildir.*

Müəllim dərslikdə mövzunun "İncəsənətə dair dialoq" blokundakı sualı şagirdlərə verə bilər:

– İbtidai insanın mağara divarlarında, sümük və daşlar üzərində cızdığı təsvirlər necə adlanır? (*rəsm, qrafika*)

– İbtidai dövrə aid qaya üzərində gördüyümüz təsvirlər ənənəvi qrafik rəsmlərdir. Qrafika – təsviri sənətin ən qədim növüdür. Qrafika əsərləri müxtəlifdir və texnikasına görə iki növə ayrılır.




Tədqiqat sualı: **Albrext Dürer haqqında nə bilirsiniz? Monoqramı necə çəkmək olar?**

Yeni dərsi şagirdlərə mənimsətmək üçün BİBÖ cədvəlindən istifadə etmək olar. Bunu kollektiv şəkildə aparmaq məsləhətdir. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsi çəkilir. 3-cü "Öyrəndim" hissəsinə isə toxunulmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Sinifdən qrafika, çap qrafikasının növləri, qravür haqqında bildiklərini soruşub cədvəlin "Bilirik" hissəsinə yazmaq olar. Onlardan qrafik rəssamlar haqqında da bildiklərini qeyd etmək olar, çünki mövzuda qravür sənətinin görkəmli nümayəndəsi,



LAYİHƏ

alman rəssamı Albrext Dürer haqqında məlumat verilmişdir. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşub, meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazmaq lazımdır.

**Qravürün növləri və üsulları**

| Ofort | Litoqrafiya | Ksiloqrafiya | Linoqravür |
|---|---|---|---|
| Metal üzərində kimyəvi üsulla cızma | Daş üzərində həkkolunma | Ağac üzərində oyma | Linoleum üzərində kəsmə |
| Fransızca "eau-forte" – cod su. Metal üzərindən çap üsulu. | Yunanca "lito" – daş. Litoqrafiya daşı üzərindən çap üsulu. | Yunanca "ksilo" – ağac. Ağac üzərindən çap üsulu. | Yunanca "lino" – linoleum. Linoleum üzərindən çap üsulu. |

Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Sonra cədvələ 3-cü hissə – "Öyrəndik" sözü əlavə edilir və oraya şagirdlərin əlavə öyrəndikləri yazılır.

Mövzu ilə tanış olduqdan sonra hər qrupa tapşırıq verilir. Yeni sözləri təhlil etmək məsləhətdir. Qruplardan qravürün növlərinin fərqini soruşmaq olar. Sonra qruplara fərdi tapşırıq verilir: yaratdıqları əsərin onlara məxsus olduğunu göstərən işarə – monoqram düşünüb çəkirlər.



Şagirdlər monoqramı çəkdikdən sonra yazı lövhəsinin qarşısına düzə bilərlər və müəllim *qalereya gəzintisi* üsulundan istifadə edərək onların bir-birinin işini təhlil etməsinə şərait yaratmalıdır. Müzakirə təşkil etmək, Albrext Dürer, qrafika, qravür haqqında suallar vermək olar.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər sadə karandaş və ya flomasterlə istədikləri formada ad və ya soyadlarının baş hərflərini çəkib bəzəyə bilərlər.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Ad və soyadın baş hərflərini bəzəmək. |
| Orta | Monoqram düşünüb çəkmək. |
| Yüksək | Süjetli janrda qrafik rəsm çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Albrext Dürer və əsərləri haqqında əlavə məlumat toplamaq və təqdimat etmək.



LAYİHƏ

**Qiymətləndirmə meyarları**

- Şərhetmə; İstifadəetmə; Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Görkəmli rəssam Albrext Dürer və onun əsərləri haqqında məlumatları şərh etməkdə çətinlik çəkir. | Görkəmli rəssam Albrext Dürer və onun əsərləri haqqında məlumatları suallar əsasında şərh edir. | Görkəmli rəssam Albrext Dürer və onun əsərləri haqqında məlumatları şərh edərkən kiçik səhvlərə yol verir. | Görkəmli rəssam Albrext Dürer və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Monoqramın real tərzdə təsvirində yalnız rəngli karandaşlar və flomasterlərdən istifadə edir. | Monoqramın real tərzdə təsvirində rəngli karandaşlar, gel qələmlər, flomasterlər, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Monoqramın real tərzdə təsvirində rəngli karandaşlar, gel qələmlər, flomasterlər, pastel təbaşirlərdən kiçik səhvlərə yol verərək istifadə edir. | Monoqramın real tərzdə təsvirində rəngli karandaşlar, gel qələmlər, flomasterlər, pastel təbaşirlərdən sərbəst istifadə edir. |
| Albrext Dürerin əsərlərində üslubi cəhətlərə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Albrext Dürerin əsərlərində üslubi cəhətlərə müəllimin köməyi ilə estetik münasibət bildirir. | Albrext Dürerin əsərlərində üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) suallar əsasında estetik münasibət bildirir. | Albrext Dürerin əsərlərində üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Təsviri sənətin ən qədim və ənənəvi növlərindən biri də **qrafika**dır. Çap qrafikası **qravür** adlanır. Daş üzərində həkk olunmuş çap üsulu **litoqrafiya**, ağac üzərində oyulmuş çap üsulu isə **ksiloqrafiya** adlanır.

## 5. RƏSSAM YARADICILIĞINDA REALLIQ VƏ FANTAZİYA

| | |
|---|---|
| **Məşğələ növü**: | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.1.1; 1.3.1; 2.1.2. |

**Təlim nəticələri:**

- təsviri sənətdəki real və fantastik təsvirlərin cəmiyyət həyatındakı rolunu şərh edir;
- dahi rəssam Leonardo da Vinçinin yaradıcılığında real və fantastik təsvirləri fərqləndirərək şərh edir;
- əfsanəvi varlıqların real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən istifadə edir.

| | |
|---|---|
| **Təchizat**: | dərslik, rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***



LAYİHƏ

*Mövzu reallıq və fantaziyanın, təxəyyülün rəssam yaradıcılığındakı roluna həsr edilib. Dərsin əsas məqsədi – reallıq və yaradıcı fantaziyanın rəssam əsərlərinin müxtəlif mövzularında qavranılması və bir-birinin ayrılmaz hissəsi olduğunu müəyyən etməkdir.*

Müəllim mövzunun "İncəsənətə dair dialoq" blokundakı və ya buna bənzər təsvirləri nümayiş etdirib suallar verə bilər:

– Dahi rəssam Leonardo da Vinçinin rəsmlərində təsvir olunmuş fantastik məxluqlar real həyatda da mövcuddurmu, yoxsa bu, rəssam təxəyyülünün məhsuludur?
– İnsana fantaziya və təxəyyül nə üçün lazımdır?
–





Tədqiqat sualı: **Əfsanəvi varlıqların və ya obyektlərin təsvirini əks etdirən zaman nə etmək lazımdır? Leonardo da Vinçinin ixtiralarında reallıq və fantaziya öz əksini necə tapmışdır?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar. Müzakirə təşkil etmək üçün aşağıdakı sualları vermək olar:

– Siz fantaziyanın insan həyatındakı rolunu necə başa düşürsünüz? İncəsənət fantaziyanın inkişafına kömək edirmi?
– İnsanın yaratdığı əşyaların formasını dəyişməsinə hansı faktorlar təsir edir? Əşyaların dizaynında bu formaların dəyişdirilməsinə aid öz nümunələrinizi gətirin və onun nə ilə əlaqədar olduğunu araşdırın.
– Reallıq dedikdə nə başa düşürsünüz? Fantaziya dedikdə nə başa düşürsünüz?
– Onların fərqi nədədir? Leonardo da Vinçi haqqında Nə öyrəndiniz?

***Bu, maraqlıdır.*** *Bütün ömrü boyu Leonardo quşlara qarşı güclü bir bağlılıq duymuşdur: onları şəhər bazarından alaraq azadlığa buraxır və quşların uçuşunu və qanadlarının hərəkətini diqqətlə müşahidə edirdi. Rəssam uçan quşlar təsvir edilmiş çoxlu rəsm yaratmış və onun ilk çertyojlarında uçan maşın konstruksiyaları əks olunmuşdur. O öz tədqiqatlarında fizikanın qanunlarını, havanın və küləyin xüsusiyyətlərini öyrənirdi.*

Müzakirədən sonra onlar qruplarda rəsm çəkirlər.

*Diferensial təlim.* Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Təbiət formalarından istifadə edərək əfsanəvi varlıqların rəsmini çəkmək. |
| Orta | Adi məişət əşyasını fantastik nəqliyyat vasitəsinə və ya sualtı qayığa çevirərək təsvir etmək. |
| Yüksək | Karton, məftil və ya ağacdan qeyri-adi konstruksiyaya malik, asan idarə olunan, sadə model düzəltmək. |



LAYİHƏ

**Yaradıcı tətbiqetmə**
Mövcud olmayan fantastik şəhər təsvir etmək.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsvir materiallarından istifadəetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətdəki real və fantastik təsvirlərin cəmiyyət həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətdəki real və fantastik təsvirlərin cəmiyyətin həyatındakı rolunu mətn əsasında şərh edir. | Təsviri sənətdəki real və fantastik təsvirlərin cəmiyyət həyatında rolunu kiçik səhvlərlə şərh edir. | Təsviri sənətdəki real və fantastik təsvirlərin cəmiyyət həyatındakı rolunu sərbəst şərh edir. |
| Dahi rəssam Leonar-do da Vinçinin yaradıcılığında real və fantastik təsvirləri fərqləndirməkdə çətinlik çəkir. | Dahi rəssam Leonardo da Vinçinin yaradıcılığında real və fantastik təsvirləri müəllimin köməyi ilə fərqləndirərək şərh edir. | Dahi rəssam Leonardo da Vinçinin yaradıcılığında real və fantastik təsvirləri dərslikdəki rəsmlər əsasında fərqləndirərək şərh edir. | Dahi rəssam Leonardo da Vinçinin yaradıcılığında real və fantastik təsvirləri fərqləndirərək şərh edir. |
| Əfsanəvi varlıqların real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Əfsanəvi varlıqların real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Əfsanəvi varlıqların real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Əfsanəvi varlıqların real və abstrakt təsvirində rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən sərbəst istifadə edir. |

**Nə öyrəndiniz**
Ətraf aləmi görən, özünü dərk edən və anlayan insan yaradıcı **təxəyyülə** malikdir. **Reallıq** və **fantaziya** – bədii yaradıcılığın iki qanadıdır.

---

**Kiçik summativ qiymətləndirmə** (KSQ № 1) nümunəsi vəsaitin sonunda verilmişdir.

---



LAYİHƏ

## 6. QƏDİM DÜNYA RƏNGKARLIĞI

| | |
|---|---|
| **Məşğələ növü:** | təsviri sənət haqqında söhbət |
| **Alt-standart:** | 1.1.1; 1.2.1; 3.1.1. |

**Təlim nəticələri:**
- təsviri sənət nümunələri əsasında rəngkarlığın və cəmiyyətin inkişafını şərh edir;
- rəngkarlığın növlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə estetik münasibət bildirir.

| | |
|---|---|
| **Təchizat:** | dərslik, rəngkarlığa dair kitablar, çap olunmuş əlavə məlumatlar. |

Müəllim dərsliyin "İncəsənətə dair dialoq" blokundakı sualı verir:

– Boyalar vasitəsilə yaranan təsviri sənət növü necə adlanır? (*rəngkarlıq*)

**Tədqiqat sualı: Müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərinin əhəmiyyəti və xüsusiyyəti nədir?**

Şagirdlərə mövzunu mənimsətmək üçün İQS (İnsert) üsulundan istifadə etmək olar. Bunun üçün onlara dərslikdəki mətnin üzərində karandaşla işləmək məsləhət görülə bilər. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓"– bilirəm, "+"– yeni informasiyadır, "?"–anlamadım). Oxuduqdan sonra müəllim deyə bilər:

– İndi işarələmə cədvəli tutun. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəldə sistemləşdirin.

| "✓" – bilirəm | "+" – yeni informasiyadır | "?" – anlamadım |
|---|---|---|
| 1. | | |
| 2. | | |

Oxuyub qurtardıqdan sonra şagirdlər cütlükdə mətni müzakirə edə bilərlər. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra müəllim onların anlamadığı fikirləri müzakirə vasitəsilə izah etməlidir. Sonra cütlükdə yerinə yetirmək üçün tapşırıq verilir:

**1-ci sıra**. Qədim zamanlardan müasir dövrümüzə qədər olan müddət ərzində rəngkarlığın inkişafına dair əlavə məlumatlar toplayın.

**2-ci sıra.** Rəngkarlıq, qrafika və heykəltəraşlığın oxşar və fərqli xüsusiyyətlərini yazılı şəkildə müqayisə etməyə çalışın.

**3-cü sıra**. Tanış olduğun rəngkarlıq janrlarını, o cümlədən bütün texniki istiqamətləri göstərilən cədvəl, yaxud sxem şəklində çəkin.

Müəllim bu tapşırıqları yerinə yetirən zaman şagirdlərə rəngkarlığa dair əlavə kitablar, internetdən xüsusi resurslar verə bilər.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər rəngkarlıq haqqında bildiklərini yazırlar. Köməkçi müəllim onlara yardım edə bilər.



LAYİHƏ

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Qədim zamanlardan müasir dövrümüzə qədər olan müddətdə rəngkarlığın inkişafına dair əlavə məlumatlar yazmaq. |
| Orta | Rəngkarlıq, qrafika və heykəltəraşlığın oxşar və fərqli xüsusiyyətlərini yazılı şəkildə müqayisə etmək. |
| Yüksək | Tanış olduğun rəngkarlıq janrları, o cümlədən bütün texniki istiqamətlərini göstərilən cədvəl, yaxud sxem şəklində çəkmək. |

**Yaradıcı tətbiqetmə**
Qədim dünya rəngkarlığı haqqında məlumat toplamaq.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənət nümunələri əsasında rəngkarlığın və cəmiyyətin inkişafını şərh etməkdə çətinlik çəkir. | Təsviri sənət nümunələri əsasında rəngkarlığın və cəmiyyətin inkişafını müəllimin köməyi ilə şərh edir. | Təsviri sənət nümunələri əsasında rəngkarlığın və cəmiyyətin inkişafını kiçik səhvlərə yol verərək şərh edir. | Təsviri sənət nümunələri əsasında rəngkarlığın və cəmiyyətin inkişafını şərh edir. |
| Rəngkarlığın növlərini xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Rəngkarlığın növlərini xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Rəngkarlığın növlərini xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Rəngkarlığın növlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə müəllimin köməyi ilə estetik münasibət bildirir. | Müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə kiçik səhvlərə yol verməklə estetik münasibət bildirir. | Müxtəlif dövrlərdə yaradılmış rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**
Boyalardan istifadə olunaraq yaradılan əsərlər təsviri sənətin **rəngkarlıq** növünə aiddir. Nəm suvaq üzərinə sulu boyalarla çəkilən təsvir **freska** adlanır. Rəngli, qeyri-şəffaf, xırda saxsı parçalarının düzülməsindən yaranan təsvir **mozaika** adlanır.



LAYİHƏ

# 7. SPEKTR VƏ RƏNG DAİRƏSİ

| | |
|---|---|
| **Məşğələ növü:** | naturadan rəsm (təsəvvürə əsasən) |
| **Alt-standart:** | 1.1.1; 2.1.2; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• təsviri sənət nümunələri əsasında rəngin insanların həyatındakı rolunu şərh edir;<br>• həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan istifadə edir;<br>• rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, sadə karandaş, akvarel, quaş, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

Müəllim sinfə sual verə bilər:

– Aləm ağ-qara olsaydı, nə baş verərdi? Nəyə əsasən bu, belə deyil?
– Biz nəyin köməyi ilə əşya haqqında ilk məlumatı əldə edirik?

Müəllim qeyd edə bilər ki, dərsdə rəngin insanın ovqatına necə təsir göstərdiyi, rəngkarlığın və rəngşünaslığın nəzəri əsasları ilə tanışlıq haqqında söhbət olacaq.

**Tədqiqat sualı: "Rəng şkalasında" yeni rəng tonunu və əsas, qarışıq rənglərdən ibarət natürmortu necə yaratmaq olar?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar.

– Biz dünyanı rəngli görürük və rəng çox qüvvətli təsir gücünə malik təbiət hadisəsi olduğu üçün onu bir çox elmlər araşdırır. Fizika – təbiətin rəng energetikasını, riyaziyyat – rəngi ölçmək üsullarını, biologiya – rəngin heyvanların və çiçəklərin həyat fəaliyyətindəki yerini və əhəmiyyətini öyrənir.

Müəllim şagirdlərə sual verə bilər:

– Əsas rənglər hansılardır? Qarışıq rəngi necə almaq olar?
– Hansı isti və soyuq rəngləri tanıyırsınız?
– Rəngin insanın həyatında nə əhəmiyyəti var?
– Əgər bütün rənglər yox olsa, nə baş verər?

Mətn mənimsənildikdən sonra şagirdlər cütlükdə verilən praktiki tapşırığı yerinə yetirirlər. "Rəng şkalası"nda rəngləri qarışdıraraq yeni rəng tonu yaradın: karandaş vasitəsilə albom vərəqində enli zolaq çəkin və beş bərabər hissəyə bölün. Orta zolağın sol xanasını **göy,** sağ xanasını isə **sarı** ilə rəngləyin; ortadakı üç xananı yaşıl rəngin tonları ilə rəngləyin; aşağı və yuxarı xanalarda isə digərlərini əsas rənglərlə qarışdırın.

**Nümunə:**

| | | | | |
|---|---|---|---|---|
| sarı | ↑ | ↑ | ↑ | qırmızı |
| göy | | | | sarı |
| qırmızı | ↓ | ↓ | ↓ | göy |



LAYİHƏ

Şagirdlər sonra payız meyvə və tərəvəzlərindən ibarət natürmort çəkirlər. Qalereya gəzintisi üsulu vasitəsilə sıralarda əyləşən cütlər ardıcıl olaraq rəsmlərini yazı lövhəsinin qarşısında düzürlər. Digər şagirdlər rəsmlərə münasibətini bildirir.

*Diferensial təlim.* Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Əsas rənglərdən istifadə edib əşya çəkmək. |
| Orta | Əsas və qarışıq rənglərdən ibarət olan rəsm düşün və çəkmək. |
| Yüksək | Payız meyvə və tərəvəzlərindən ibarət natürmort çəkmək. |

**Yaradıcı tətbiqetmə**
Rənglər haqqında məlumat toplamaq.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsvir materiallarından istifadə (akvarel, quaş);
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənət nümunələri əsasında rəngin insanların həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Təsviri sənət nümunələri əsasında rəngin cəmiyyət həyatındakı rolunu müəllimin köməkliyi ilə şərh edir. | Təsviri sənət nümunələri əsasında rəngin cəmiyyət həyatındakı rolunu kiçik səhvlərlə şərh edir. | Təsviri sənət nümunələri əsasında rəngin insanların həyatındakı rolunu sərbəst şərh edir. |
| Həyati görüntülərin real və ya abstrakt təsvirində akvarel və ya quaşdan çətinliklə istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində akvarel və ya quaşdan səliqəsiz istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində akvarel və ya quaşdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Həyati görüntülərin real və abstrakt təsvirində akvarel və ya quaşdan sərbəst istifadə edir. |
| Rəngkarlıq əsərlərində üslubi cəhətlərə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) səthi olaraq estetik münasibət bildirir. | Rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**
Rəng haqqında elm **rəngşünaslıq** adlanır. Rəngarəng zolaq və ya göyqurşağı **spektr** adlanır. Sarı, qırmızı, göy – **əsas rənglər**dir. Narıncı, yaşıl, bənövşəyi – **qarışıq rənglər**dir. Ağ, boz, qara – **axromatik rənglər**dir.



LAYİHƏ

# 8. RƏNGKARLIQ ƏSƏRLƏRİNDƏ KOLORİT

| | |
|---|---|
| **Məşğələ növü:** | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.2.1; 1.3.1; 2.1.2; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• mənzərə janrında rəngkarlıq əsərlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• Azərbaycanın görkəmli rəssamı Vəcihə Səmədova və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• mənzərə janrının real və ya abstrakt təsvirində akvarel və quaşdan istifadə edir;<br>• rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, akvarel, quaş, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərsdə məqsəd – rəngin, rəngkarlıq əsərinin emosional ifadəsi, koloritin Vəcihə Səmədovanın əsərlərində əsas təsvir vasitəsi olduğu haqqında fikirləri şagirdlərə izah etməkdir.*

– Rəssamların əsərlərində başlıca ifadə vasitəsi nədir? O nə ilə insana təsir etməyi bacarır?



*Xalidə Səfərova. "Qayıqlar"*



*Lətif Feyzullayev. "Kəndin köhnə hissəsi"*

Tədqiqat sualı: **Vəcihə Səmədovanın yaradıcılığı hansı xüsusiyyətlərinə görə fərqlənir? Həyəcan və zəriflik hissini təsvirdə hansı rəng münasibətləri ilə ifadə etmək olar?**

Dərslikdəki mövzu ilə tanışlıq üçün "Ziqzaq" üsulundan istifadə etmək olar. Şagirdləri "Doğma" qruplara ayrılır. Müəllim qruplara rəngkarlıq əsərlərində rəngin rolu haqqında biliklərini yazmağı tapşırır. Sonra hər qrup yazdığını səsləndirir. "Doğma" qruplar 1, 2, 3, 4 saymaqla "Ekspert" qruplarına ayrılırlar. 1-ci "Ekspert" qrupu mövzunun 1-ci səhifəsindəki məlumatı, 2-ci "Ekspert" qrupu lokal rəng haqqında, 3-cü "Ekspert" qrupu V.Səmədovanın koloritini təhlil edir, 4-cü "Ekspert" qrupu isə rəssam haqqında qeydləri öyrənir. Onların öyrənmələrinə müəyyən vaxt ayırmaq olar. Sonra "Ekspert" qrupları "Doğma" qruplara qayıdıb öyrəndiklərini bir-birinə söyləyir. Nəticədə "Doğma" qruplar bütün mövzunu mənimsəyir, öyrəndiklərini hamıya təqdim edə bilir. Müəllim bu mövzunu BİBÖ, İQS (**İnsert**) üsulları ilə də mənimsədə bilər.

Müzakirə üçün aşağıdakı suallar verilir:

– Rəng hansı əhvali-ruhiyyə yaradır?
– V.Səmədova yaradıcılığının əsas xüsusiyyəti hansılardır?



LAYİHƏ

Mövzu mənimsənildikdən sonra qruplara təsvir üçün tapşırıq verilir. *1 və 2-ci qruplar* "Ovqatının rəsmi"ni düşünüb çəkir. Müəllim xatırladır ki, gərginlik, həyəcan, sirlilik, zəriflik, sevinc və s. təsvirini rəng ləkələrinin birləşməsi vasitəsilə ifadə edərkən nə isə konkret bir forma seçməyə gərək yoxdur. Şagirdlər yalnız rəng və rəng münasibətlərindən istifadə edə bilərlər. *3 və 4-cü qruplar* isə soyuq koloritdə qış fəslini təsvir edə bilər.

Ümumiləşdirmək üçün qruplar işlərini yazı lövhəsinin qarşısında düzür. Qalereya gəzintisi üsulu vasitəsilə qruplar işləri təhlil edir.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdləri 3 və ya 4-cü qruplarda əyləşdirmək lazımdır. Onlara, əsasən, rəngləmə işlərini tapşırmaq məsləhətdir.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Əhvalına uyğun müxtəlif rəng ləkələrini vərəqə yaxmaq. |
| Orta | Soyuq koloritdə qış fəslini təsvir etmək. |
| Yüksək | İsti koloritdə yaz fəslini təsvir etmək. |

**Yaradıcı tətbiqetmə**

Sulu boya ilə istənilən mövzuda süjetli rəsm çəkmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından istifadə (akvarel və quaş);
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənzərə janrında rəngkarlıq əsərlərini xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Mənzərə janrında rəngkarlıq əsərlərini xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Mənzərə janrında rəngkarlıq əsərlərini xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Mənzərə janrında rəngkarlıq əsərlərini xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Azərbaycanın görkəmli rəssamı V.Səmədova və onun əsəri haqqında məlumatları şərh etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı V.Səmədova və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Azərbaycanın görkəmli rəssamı V.Səmədova və onun əsərləri haqqında məlumatları mətndəki suallar əsasında şərh edir. | Azərbaycanın görkəmli rəssamı V.Səmədova və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Mənzərə janrının real və ya abstrakt təsvirində akvarel və ya quaşdan çətinliklə istifadə edir. | Mənzərə janrının real və ya abstrakt təsvirində akvarel və ya quaşdan səliqəsiz istifadə edir. | Mənzərə janrının real və ya abstrakt təsvirində akvarel və ya quaşdan istifadə qaydalarını bildiyini nümayiş etdirir. | Mənzərə janrının real və ya abstrakt təsvirində akvarel və quaşdan istifadə edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Rəngkarlıq əsərlərində üslubi cəhətlərə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Rəngkarlıq əsərlərində üslubi cəhətlərə (obraz, obyekt, hadisə) səthi olaraq estetik münasibət bildirir. | Rəngkarlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**
Əsərdə rəng düzümü, onun bütün rəng elementlərinin qarşılıqlı əlaqəsi **kolorit** adlanır. Təbiətin özünəməxsus, dəyişilməz rəngi **lokal rəng** adlanır.

## 9. MİNİATÜR RƏNGKARLIĞI

| | |
|---|---|
| **Məşğələ növü:** | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.2.1; 1.3.1; 2.1.1; 2.2.1. |
| **Təlim nəticələri:**<br>• miniatür rəngkarlığını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• Azərbaycanın görkəmli rəssamı Sadiq bəy Əfşar və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• miniatür üslubunda mənzərə, yaxud portreti real və abstrakt tərzdə təsvir edir;<br>• qutu üzərində cilalı miniatür yaratmaq üçün sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | |
| **Təchizat:** | dərslik, sadə karandaş, akvarel, quaş, yapışqan, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Mövzuya 2 saat ayrılmışdır. Fəaliyyət baxımından müəllim 2 saatda fərqli tapşırıqlar verə və ya öz istəyinə uyğun dərsi planlaşdıra bilər.***

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Miniatür – təsviri sənətdə kənarlarına incə və zərif işləmələr, rənglər vurulmaqla nəfis hazırlanmış kiçik təsvirdir. Azərbaycan miniatürü klassik Şərq poeziyasının təsiri altında inkişaf etmişdir. Qədim Yunanıstan incəsənətinə əfsanələr təsir etdiyi kimi, Şərq miniatürləri üçün əbədi qaynaq nöqtəsi də ənənəvi Şərq poeziyası olmuşdur. Əsrlər boyu ölməz əsərləri ilə şöhrət qazanmış dahi sənətkarlar – Nizami, Firdovsi, Sədi, Hafiz, Nəvai və Şərq poeziyasının digər klassikləri rəssamlar üçün incəsənəti zənginləşdirməkdə tükənməz ilham mənbəyi olmuşlar.*

*Azərbaycan miniatürləri – əlyazmaların tam bədii tərtibatı demək idi. Zəngin naxışlar kompozisiyası, lirik mənzərələr, incə xətt ritmi, nəfis gül-çiçək ahəngdarlığı obrazlar çərgəsinin dekorativliyini müəyyən edirdi.*

Müəllim sinfə sual verə bilər:

– Kitabda mətni müşayiət edən təsvir necə adlanır?
– Bəs qədim zamanlarda rəngkarlığın bu kiçik nümunələri necə adlanırdı?

Əvvəlki siniflərdən şagirdlərin miniatür haqqında məlumatı olduğu üçün bu suallara cavab verə bilərlər.





LAYİHƏ

**Tədqiqat sualı: Sadiq bəy Əfşar yaradıcılığının əsas xüsusiyyətləri nədir? Miniatürün əsas növlərindən ( kitab, portret, cilalı) birini hansı ardıcıllıqla yaratmaq olar?**

Miniatürün əsas növləri – **kitab, portret** və **cilalı miniatürlər**dir.

Mövzu ilə tanışlıq üçün İQS üsulundan istifadə etmək olar. Bunun üçün onlara dərslikdə olan mətnin üzərində karandaşla işləmək məsləhət görülür. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓"– bilirəm, "+"– yeni informasiyadır, "?"– anlamadım). Oxuduqdan sonra müəllim deyə bilər:

– İndi işarələmə cədvəli tutun. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəldə sistemləşdirin.

| "✓" – bilirəm | "+" – yeni informasiyadır | "?" – anlamadım |
|---|---|---|
| | | |

Şagirdlər yoldaşları ilə cütlükdə mətni müzakirə edə bilərlər.

Aşağıdakı sualları vermək olar:

– Nə üçün mətnə illüstrasiya çəkilir? Kitabda əsas nə olmalıdır: mətn, yoxsa illüstrasiya?
– Miniatürün məzmunu necə olur? Onların təsvirində müəyyən qaydalar mövcuddurmu? Cavabınızı əsaslandırın.
– Sadiq bəy Əfşarın yaradıcılığının əsas xüsusiyyətləri nədir?
– Azərbaycanın daha hansı miniatür rəssamlarını və onların əsərlərini tanıyırsınız?

Sonra şagirdləri 6 qrupa ayırmaq olar. *1* və *2-ci qruplar* kitab miniatürləri üçün süjet çəkə bilər. Miniatürlərdə olduğu kimi, onların da təsvirində bahar fəsli hökm sürməli, təbiət təsvirləri rəmzi işarələr kimi verilməli, yəni iki-üç ağac meşəni, uzaqdan görünən təpələr dağları, çiçək kolu isə ətirli gül bağını əvəz edə bilər. Şagirdlər miniatürlərdə olan insan rəsmlərini də çəkə bilərlər. Bu zaman onlar atlı, gözəl qız, şah və ya ağsaqqal kişi təsvirlərini çəkirlər. Fərdiliyi deyil, müəyyən dövrün davranış qaydalarını, gözəllik ideallarını və təbəqələrarası münasibətləri əks etdirən uyğun tipləri yarada bilərlər.

3 *və 4-cü qruplara* "miniatür portret" çəkmək tapşırıla bilər. Şagirdlərə xatırlatmaq lazımdır ki, haşiyəli çərçivəni də çəkməyi unutmasınlar. Bu miniatür onların dostlarına, yaxınlarına hədiyyə edəcəkləri kiçik şəkil və ya asma boyunbağı da ola bilər.

5 *və 6-cı qruplara* kiçik boş qutu vermək olar. Bu, onların mücrüsü kimi ola bilər. Qutunun üzərinə təmiz kağız yapışdırdıqdan sonra qeyri-adi çiçəklər çəkilə bilər. Şagirdlər rənglər quruduqdan sonra qutunun səthinə parıltı, yaxud lak vurmaqla cilalı miniatürün gözəl nümunəsini yaratmış olarlar.

*Diferensial təlim.* Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Kitab üçün süjetli kompozisiya çəkmək. |
| Orta | Miniatür portret çəkmək. |
| Yüksək | Qutu üzərində çiçəklər çəkmək. |



LAYİHƏ

**Yaradıcı tətbiqetmə**
Miniatür rəngkarlığı və miniatür ustası Sadiq bəy Əfşarın yaradıcılığı haqqında təqdimat hazırlamaq.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsviretmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Miniatür rəngkarlığını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə şətinlik çəkir. | Miniatür rəngkarlığını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Miniatür rəngkarlığını xarakterik xüsusiyyətlərinə görə mənbələrdən istifadə etməklə şərh edir. | Miniatür rəngkarlığını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Azərbaycanın görkəmli rəssamı Sadiq bəy Əfşar və onun əsərləri haqqında məlumatları şərh etməkdə çətinlik çəkir. | Azərbaycanın görkəmli rəssamı Sadiq bəy Əfşar və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Azərbaycanın görkəmli rəssamı Sadiq bəy Əfşar və onun əsərləri haqqında məlumatları dərslikdəki suallar əsasında şərh edir. | Azərbaycanın görkəmli rəssamı Sadiq bəy Əfşar və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Miniatür üslubunda mənzərə, yaxud portreti real və abstrakt tərzdə təsvir etməkdə çətinlik çəkir. | Miniatür üslubunda mənzərə, yaxud portreti real və abstrakt tərzdə müəllimin köməyi ilə real və abstrakt təsvir edir. | Miniatür üslubunda mənzərə, yaxud portreti real və abstrakt tərzdə kiçik səhvlərə yol verməklə real və abstrakt təsvir edir. | Miniatür üslubunda mənzərə, yaxud portreti real və abstrakt tərzdə düzgün təsvir edir. |
| Qutu üzərində cilalı miniatür yaratmaq üçün sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Qutu üzərində cilalı miniatür yaratmaq üçün sadə tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Qutu üzərində cilalı miniatür yaratmaq üçün sadə tərtibat və dizayn bacarıqlarını səliqəsiz nümayiş etdirir. | Qutu üzərində cilalı miniatür yaratmaq üçün sadə tərtibat və dizayn bacarıqlarını sərbəst nümayiş etdirir. |

**Nə öyrəndiniz**
İlk kitab illüstrasiyaları **miniatür** adlanırdı. Miniatürlərin əsas növləri: **kitab, portret və cilalı miniatür**dür.

---

**Kiçik summativ qiymətləndirmə** (KSQ№ 2) nümunəsi vəsaitin sonunda verilmişdir.

---

LAYİHƏ

## 10. HEYKƏLTƏRAŞLIĞIN NÖVLƏRİ

| | |
|---|---|
| **Məşğələ növü:** | yapma |
| **Alt-standart:** | 1.1.1; 1.2.1; 2.1.2; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• heykəltəraşlığın cəmiyyət həyatındakı rolunu şərh edir;<br>• təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• heykəllərin real və abstrakt yapılmasında plastilin, gil və ya duzlu xəmirdən istifadə edir;<br>• heykəltəraşlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisə) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, plastilin gil və ya duzlu xəmir, plastik lövhə |

– Təsviri sənətin hansı növündə insan əsas obyekt sayılır və üçölçülü formaya malikdir?

Müəllim şagirdlərdən mövzunun adını anlayışın çıxarılması üsulu ilə də ala bilər.




– Heykəltəraşlığın inkişafı qədim zamanlardan başlayır. Heykəltəraşlıq nümunəsi üçölçülü formaya malikdir, müəyyən mühitdə – məkanda qərar tutur. Heykəltəraşlıq əsərləri bərk materiallardan – ***daş, mərmər, qranit, ağac, metallardan*** istifadə edilməklə yerinə yetirilir. Bu materiallarla işləmə üsulları ***yapma, oyma, tökmə, döymə, həkketmə*** və s. sayılır. Heykəltəraşlıqda əsas obyekt insandır; heyvan və digər obyektlərə çox az müraciət olunur. Heykəltəraşlıq iki qrupa ayrılır: ***dəyirmi və relyef (qabarıq)***.




Tədqiqat sualı: **Heykəltəraşlığın xarakterik xüsusiyyətləri nədir? Dəyirmi və relyefli heykəli hansı ardıcıllıqla yapmaq olar?**

Şagirdlər mətnlə tanış olurlar. Bu zaman BİBÖ, İQS üsullarından istifadə etmək məqsədəuyğundur. Yeni dərsi oxuduqdan sonra dərslikdəki sualları vermək olar:

– Heykəltəraşlıq nədir? Heykəllərə harada rast gəlmək mümkündür?
– Heykəltəraşlığın hansı növləri mövcuddur? Onlardan hansı ilə tanışsınız?

LAYİHƏ

– Heykəltəraş heykəl formalarını yaratmaq üçün hansı materiallardan istifadə edir?

Müəllim 1-ci sıraya cütlükdə dəyirmi heykəltəraşlıq növlərindən birinə aid nümunə yapmağı, 2-ci sıraya süjet düşünməyi və səth üzərində qabarıq relyef yaratmağı tapşırır. Əgər sinifdə şagirdlərin sayı çoxdursa, başqa sıralara (3, 4 və s.) həmin tapşırıqlar təkrar verilə bilər. Təlim nəticələri yüksək olan şagirdlərə büst düzəltməyi də əlavə tapşırıq kimi vermək olar.

***Müəllim üçün məlumat:***

Heykəltəraşlıq sənətinin ən qədim dövrlərdən bəri üç sahəsi məlumdur:




**Monumental heykəltəraşlıq** əsərləri əksər hallarda açıq havada, böyük şəhərlərin meydanlarında, bağlarda və bəzən isə ictimai binaların daxilində qoyulur.

**Dekorativ heykəllər**, əsasən, memarlıq abidələrinin bəzədilməsinə xidmət edir. Onlar orta əsrlərdən bu günə kimi parkları, bağları və fəvvarələri bəzəyir.

Memarlıq abidələri ilə bağlı olmayan, park və fəvvarələrin tərtibatı üçün nəzərdə tutulmayan, əsasən muzeylərdə və sərgilərdə nümayiş etdirilən heykəllər **dəzgah heykəltəraşlığı** nümunələri sayılır.

Heykəltəraşlıq əsərinin hansı materialdan və hansı texnika ilə hazırlanmasının böyük əhəmiyyəti var. Adətən, heykəllər gil, mum, daş, ağac, plastilin, metal və s. materiallardan hazırlanır. Sənətkarlar gil, mum və plastilin kimi yumşaq materiallarla yapma, daş, ağac və sümüklə yonma və kəsmə, metal və gipslə isə tökmə üsulu ilə işləyirlər.

Cütlər işlərini bitirdikdən sonra yazı lövhəsinin qarşısında onları düzə, qalereya gəzintisi vasitəsilə bir-biri ilə işlər haqqında fikirlərini bölüşə bilərlər.

*Diferensial təlim.* Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Hər hansı bir əşya yapmaq. |
| Orta | Dəyirmi heykəl yapmaq. |
| Yüksək | Barelyef və ya qorelyef yapmaq. |



***Bu, maraqlıdır…***

*Qədim Misir incəsənətində insan fiquru bütövlükdə təsvir olunurdu. O, qollar bədənə yapışmış, sol ayaq azca qabağa çıxmış, yaxud dizlərə doğru uzanan qollar, sol əl diz üzərinə qoyulmuş və ya sağ əl sinəyə sıxılmış şəkillərdə yonulurdu. Heykəllərin ənənəvi rənglənməsi də mövcud idi. Kişi fiqurları tünd-qəhvəyi, qadın fiqurları isə sarı rənglərdə olurdu. Saçlar qara, geyim isə ağ rəngdə göstərilirdi. Kişi geyimi qısa, bel örtüyündən ibarət olurdu.*

**Yaradıcı tətbiqetmə**

Heykəltəraşlığın sahələrinə aid əlavə məlumat toplamaq və təqdimat hazırlamaq.



LAYİHƏ

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Yapma materiallarından istifadə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Heykəltəraşlığın cəmiyyət həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Heykəltəraşlığın cəmiyyət həyatındakı rolunu suallar əsasında şərh edir. | Heykəltəraşlığın cəmiyyət həyatındakı rolunu kiçik səhvlərlə şərh edir. | Heykəltəraşlığın cəmiyyət həyatındakı rolunu şərh edir. |
| Təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərini səhvlərə yol verməklə şərh edir. | Təsviri sənətin heykəltəraşlıq növünü xarakterik xüsusiyyətlərinə görə düzgün şərh edir. |
| Heykəllərin real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə etməkdə çətinlik çəkir. | Heykəllərin real və abstrakt yapılmasında plastilin və ya gildən müəllimin köməyi ilə istifadə edir. | Heykəllərin real və abstrakt yapılmasında plastilin və ya gildən səliqəsiz istifadə edir. | Heykəllərin real və abstrakt yapılmasında plastilin və ya gildən istifadə edir. |
| Heykəltəraşlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisə) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Heykəltəraşlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisə) dərslikdəki suallar əsasında estetik münasibət bildirir. | Heykəltəraşlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisə) bəsit formada estetik münasibət bildirir. | Heykəltəraşlıq əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisə) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Heykəltəraşlıq iki növdən ibarətdir: **dəyirmi heykəl** və **relyef.** Dəyirmi heykəltəraşlıq nümunələri bunlardır: **heykəl, tors, büst**. Relyef heykəltəraşlığın **barelyef** və **qorelyef** növləri mövcuddur.

## 11. HEYKƏLTƏRAŞLIQDA MATERİAL VƏ OBRAZ

| | |
|---|---|
| **Məşğələ növü:** | yapma |
| **Alt-standart:** | 1.2.1; 1.3.1; 2.1.2. |

**Təlim nəticələri:**

- heykəltəraşlığın növlərini xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir;
- görkəmli heykəltəraş Mikelancelo Buonarroti və onun əsərləri haqqında məlumatları şərh edir;
- heyvan fiqurunun real təsvirində plastilin, gil və ya duzlu xəmirdən istifadə edir.

**Təchizat:** dərslik, plastilin, duzlu xəmir və ya gil.

Müəllim şagirdlərə aşağıdakı sualları verə bilər:

– Heykəltəraşlıq nümunələrində nə təsvir olunur? (*insan, heyvan*)



LAYİHƏ

– Heykəltəraşlıq hansı imkanlara malikdir, o nəyi təsvir edə bilmir?

Sonra müəllim izahat verir:

– İnsanın bədii yaradıcılığının ən qədim növlərindən biri yapmadır.

**Tədqiqat sualı: Mikelancelo Buanarroti haqqında nə bilirsiniz? Heyvan fiqurunu necə yapmaq olar?**

Yeni dərsi şagirdlərə mənimsətmək üçün BİBÖ cədvəlindən istifadə etmək olar. Bunu vaxta qənaət etmək üçün qruplarla deyil, kollektiv şəkildə aparmaq məqsədəuyğundur. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsi çəkilir. 3-cü "Öyrəndim" hissəsinə isə toxunulmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Sinifdən Mikelancelo Buonarroti və ümumiyyətlə heykəltəraşlıq haqqında bildiklərini soruşub cədvəlin 1-ci "Bilirik" hissəsinə yazmaq olar. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşub, meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazmaq lazımdır.

Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Müəllim onlardan dərslikdən nə öyrəndikləri haqqında soruşa bilər. Sonra cədvəlin 3-cü – "Öyrəndik" hissəsinə şagirdlərin əlavə öyrəndikləri yazılır.

Şagirdləri dörd qrupa ayırmaq olar. *1 və 2-ci qruplar* istənilən heyvan təsvirini təsəvvürdən yapa bilər. Əvvəlcə plastilini əzərək ona diqqətlə baxsalar, yaxşı olar: bəlkə bu nahamar kütlənin görünüşündə gələcək təsviri görə biləcəklər. Müəllim xatırladır ki, heyvanın baş və bədənini əlavə hissələr birləşdirmədən hazırlamağa çalışsınlar, sanki onu bütöv kütlədən çıxarırlar.

*3 və 4-cü qruplar* kağızı götürüb əzir, onu əzməkdə davam edərək çalışırlar ki, yumşaq kağızdan seçdikləri heyvanın həcmli görünüşünü düzəltsinlər.

Hazır işləri yazı lövhəsinin qarşısında düzürlər. Təriflər, suallar, təkliflər üsulundan istifadə edərək işləri təhlil edirlər.

Müəllim müzakirə üçün əlavə suallar da verə bilər:

– Mikelancelonun hansı məşhur əsərlərini tanıyırsınız?

– Mikelancelonun aşağıdakı ifadələrini necə başa düşürsünüz:

*"Mən özümü yalnız iskənə əlimdə olduqda yaxşı hiss edirəm";*

*"Hər bir əsərin özünəməxsus qiyməti var, əgər özündə ideyanı saxlaya bilibsə"?*

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdləri 3 və 4-cü qruplarda əyləşdirmək məqsədəuyğun olar.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Plastilindən heyvan fiqurunu yapmaq. |
| Orta | Kağızı əzərək heyvan fiquru düzəltmək. |
| Yüksək | Plastilindən animalist janrında süjet düzəltmək. |

**Yaradıcı tətbiqetmə**

Plastilindən məişət mövzusuna həsr olunmuş süjetli təsvir yapmaq.



LAYİHƏ

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından istifadə;
- İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Heykəltəraşlığın növlərini xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh etməkdə çətinlik çəkir. | Heykəltəraşlığın növlərini xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə fərqləndirərək şərh edir. | Heykəltəraşlığın növlərini xarakterik xüsusiyyətlərinə görə dərslikdəki suallar əsasında fərqləndirərək şərh edir. | Heykəltəraşlığın növlərini xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |
| Görkəmli heykəltəraş Mikelancelo Buonarroti və onun əsərləri haqqında məlumatları şərh etməkdə çətinlik çəkir. | Görkəmli heykəltəraş Mikelancelo Buonarroti və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Görkəmli heykəltəraş Mikelancelo Buonarroti və onun əsərləri haqqında məlumatları kiçik səhvlərlə şərh edir. | Görkəmli heykəltəraş Mikelancelo Buonarroti və onun əsərləri haqqında məlumatları sərbəst şərh edir. |
| Heyvan fiqurunun real təsvirində plastilin, gil və ya duzlu xəmirdən istifadə etməkdə çətinlik çəkir. | Heyvan fiqurunun real təsvirində plastilin, gil və ya duzlu xəmirdən müəllimin köməyi ilə istifadə edir. | Heyvan fiqurunun real təsvirində plastilin, gil və ya duzlu xəmirdən səliqəsiz istifadə edir. | Heyvan fiqurunun real təsvirində plastilin, gil və ya duzlu xəmirdən sərbəst istifadə edir. |

**Nə öyrəndiniz**

Yapmada istifadə olunan **gil** — təbii, **plastilin** isə süni materialdır. Əsas təsvir obyekti heyvanlar olan təsviri sənətin janrı **animalistik** adlanır. Kiçikformalı heykəllər **statuetka** adlanır .

**Kiçik summativ qiymətləndirmə** (KSQ№ 2) nümunəsi vəsaitin sonunda verilmişdir.

**Ümumiləşdirici dərs və onun təşkili**

Ümumiləşdirici dərsin əsas didaktik məqsədi – mövzuların tədrisi zamanı əldə edilən biliklərin sistemləşdirilməsi və möhkəmləndirilməsidir. Belə dərslər biliklərin daha da dərinləşdirilməsinə və nəzərdə tutulmuş bacarıqların təkmilləşdirilməsinə yardım edir. Ümumi sorğu keçirməklə şagirdlərin çətinlik çəkdikləri mövzuları və nisbətən zəif reallaşdırılmış standartları müəyyən etmək olar. Bu zaman dərsi şagirdlərin zəif cəhətlərinin aradan qaldırılması istiqamətində qurmaq daha məqsədəuyğundur.



LAYİHƏ

# 2. QƏDİM DÜNYA MEMARLIĞI

12. Tikililərdə forma və konstruksiya
13. Şərq memarlığının inciləri
14. Memarlıqda ornament sənəti
15. Qədim sütunlarda təbiət formaları




## 12. TİKİLİLƏRDƏ FORMA VƏ KONSTRUKSİYA

| | |
|---|---|
| **Məşğələ  növü**: | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.1.1; 1.3.1; 2.1.2; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini şərh edir;<br>• Azərbaycanın görkəmli memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• memarlıq abidələrinin real və abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlərdən istifadə edir;<br>• memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat**: | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərsdə şagirdlər müşahidəni, dünya memarlığında formaların müxtəlifliyini, proporsiya hissini inkişaf etdirirlər. Müəllim şagirdlərə ətrafda insanı əhatə edən əşyaların sadə formalarda təqdim olunmasını nümayiş etdirə bilər. Dərsin əsas məqsədi – şagirdlərə əşyaların konstruksiyalarını fərqləndirməyi başa salmaqdır. Dərsi ən sadə əşyaların nümayişindən və ya dərslikdə verilmiş nümunələrlə başlayarkən bu nəticəyə gəlinir ki, əşyaların əsasını sadə həndəsi fiqurlar və ya cisimlər təşkil edir.*

Müəllim sual verə bilər:

– Təbiətdə hansı formalar mövcuddur və onlar memarlıqda necə əks olunmuşdur?

**Tədqiqat sualı: Əcəmi Əbubəkr oğlu Naxçıvani yaradıcılığının əsas xüsusiyyətləri nədir? Memarlıq abidəsini yaratmaq üçün nə etmək lazımdır?**

Müəllim mövzunun mənimsədilməsində “kublaşdırma” üsulundan istifadə edə bilər. Kublaşdırma mövzuya müxtəlif cəhətlərdən nəzər salmağı asanlaşdıran tədris üsuludur. Bu üsul təfəkkür və yazı üçün hər tərəfində müxtəlif qısa göstərişlər olan kubdan istifadəni nəzərdə tutur. Tili təqribən 15–20 sm olan kub kağızdan hazırlanır. Kubun tərəflərinə aşağıdakı 6 qısa göstəriş yazılır:

*1. Memarlıq abidəsi (forma, ölçü, hissələr, rəng) haqqında nə deyə bilərsiniz?(**təsvir edin**).*



LAYİHƏ

*2. Onun digər tikililərdən oxşar və fərqli cəhətləri hansılardır?(**müqayisə edin**).*
*3. Bu sizi nə haqqında düşünməyə vadar edir? Nəyi xatırladır? (**əlaqələndirin, assosiasiya yaradın**).*
*4. O, hansı materialdan və necə tikilmişdir?(**təhlil edin, təsvir edin, müqayisə edin, əlaqələndirin**).*
*5. Ondan necə istifadə edə bilərsiniz?(**tətbiq edin**).*




*6. Əvvəlcədən öz mövqeyinizi müəyyən edin. İstədiyiniz kimi məntiqli, mənasız və ya ikisinin arasında olan dəlillərdən istifadə edin (**lehinə, yaxud əleyhinə müqayisə edin).** Qruplara A1 formatlı kağız (vatman) verə bilərsiniz və onlar mövzunu öyrəndikdən sonra kubun tərəflərində yazılan suallara cavab verirlər.*

Müəllim şagirdləri 6 qrupa ayıra bilər. *1 və 2-ci qruplara* Misir ehramlarının, *3 və 4-cü qruplara* Babil qülləsinin, *5 və 6-cı* qruplara Kolizeyin fotoşəklini verə bilər. *Nümunə: **Misir ehramları** haqqında.*

**1. Təsvir edin:** piramida formadan ibarətdir.
**2. Müqayisə edin:** dağa bənzəyir. Digər memarlıq tikililərindən çoxömürlüyü, əzəməti, görünüşü, rəngi ilə fərqlənir. Dünyanın yeddi möcüzəsinə aid yeganə tikilidir ki, bugünədək qorunub saxlanılır.
**3. Assosiasiya yaradın (əlaqələndirin):** "Piramida" riyaziyyatdakı formanı xatırladır. Yunan dilində tərcümədə "çoxbucaqlı" deməkdir.
**4. Təhlil edin:** əhəng və daş bloklardan hörülüb və möhkəmdir.
**5. Tətbiq edin:** piramidaların ikili təyinatı vardır. Bir tərəfdən bu ehramlar mərhum fironun cəsədini qəbul edərək çürüməkdən qorumalı, digər tərəfdən isə fironun möhtəşəmliyini əbədiləşdirməli və gələcək nəsillərə onun mövcudluğu haqqında daim xatırlatmalıdır.
**6. Lehinə, yaxud əleyhinə müqayisə edin:** bu, möhtəşəm abidədir. Hamıda təəccüb və maraq doğurur. Eyfel qülləsi tikilənədək Xeops ehramı Yer üzündə hündür tikili sayılırdı.

***Qeyd.** Kublaşdırma üsulu çox vaxt aparаrsa, onu BİBÖ ilə əvəz etmək olar.*

Təhlildən sonra şagirdlər Əcəmi Naxçıvani haqqında dərslikdəki materialla tanış ola bilərlər. Yazı bitdikdən sonra şagirdlər kubun hər üzünə dair və Əcəmi Naxçıvani haqqında öz fikirlərini bölüşə bilərlər. Təsvir üçün tapşırıqlar verilir.

*1 və 2-ci qruplar* istənilən memarlıq tikilisinin forma və quruluşunu (konstruksiyasını) nəzərə alaraq layihə hazırlayırlar. Tapşırığı yerinə yetirərkən təbiət formalarına əsaslanmağı xatırlatmaq olar. Ümumi görünüşdən başqa, tikilini yan və yuxarı tərəfdən göstərməyə də çalışmaq lazımdır. *3 və 4-cü qruplar* konstruksiyasına görə təbiət formalarına malik məişət əşyası çəkə bilər. *5 və 6-cı qruplar* müxtəlif həndəsi cisimlərdən istifadə edərək qeyri-adi tikili yarada bilərlər.



LAYİHƏ

***Müəllim üçün əlavə məlumat:***

Yer kürəsində maraqlı və zəngin mədəniyyətə malik müxtəlif xalqlar yaşayır. Dünya xalqlarının incəsənət inciləri ilə sadəcə tanış olmaq yox, həm də bəşər tarixində silinməz izlər buraxmış **sivilizasiyanın incəsənət** və **mədəniyyətlərini**, həmin mədəniyyətlərin özünəməxsusluğunu və səciyyəvi qanunauyğunluqlarını anlamaq vacibdir.

Dünya mədəniyyətlərinin sonrakı inkişafına və müasir mədəniyyətə təsir göstərmiş qədim mədəniyyətlər mövcud olmuşdur. İlk rəssamların heyranedici mağara yazıları, Qədim Misirin möhtəşəm ehram və sirli sfinksləri, Mesopotamiyada şumer salnamələri, nəfis qədim yunan heykəlləri, Qədim Romaya məxsus ülviləşdirilmiş, mükəmməl gözəllik nümunələri olan memarlıq tikililəri – mühəndis xəyalının zirvəsi hesab edilir.

***Sivilizasiya*** (lat. *"civilis"*– "dövlət, cəmiyyət və ictimaiyyət" deməkdir) – cəmiyyətin maddi və mənəvi inkişaf səviyyəsi.

***Mədəniyyət*** (lat. *"cultura"– "ruhun maarif və tərbiyələnməsi"* deməkdir) – insan cəmiyyətinin sənaye, sosial və mənəvi nailiyyətləri.

***İncəsənət*** – yaradıcılıq forması; insanın hissetmə ifadə vasitələri ilə (səs, bədən plastikası, təsvir, rənglər və s.) mənəvi cəhətdən özünü təsdiq etməsi.

***Bu maraqlıdır…***



*Mesopotamiya, başqa cür desək, İkiçayarası – Dəclə və Fərat çayları arasında rəngarəng təbiətə malik bir ərazidir. Burada sonralar onu əvəzləyəcək bir neçə mədəniyyətin (Şumer, Babil və Assuriya) meydana gəlməsinə rəvac verən dünyanın ən qədim mədəniyyəti mövcud olmuşdur. İqlimin dəyişməsi və müharibələr nəticəsində Mesopotamiyanın şəhərləri dağılmış, bir çox abidələr qalmamışdır.*

*Hansı ölkədə tanrılara sitayiş edir, əfsanə və rəvayətlər qoşaraq danışardılar? Hansı ölkədə ölüm sonrakı həyatın davamı kimi qəbul olunurdu? Bu məqsədlə hansı memarlıq abidələri ucaldılırdı? (Qədim Misir, ehramlar)*



*Qədim Misir mədəniyyət və incəsənətinin üç min il yaşa malik olduğu hesab edilir; əsasən incəsənətin mahiyyətinə din və əfsanələrlə sıx bağlılığı təsir göstərmişdir. Qədim Misir mədəniyyətinin əsas xüsusiyyəti bir neçə minillik ərzində ənənələrə riayət etməsidir.*

*Qədim Misirdə icad olunmuş bu əşyalardan istifadə edirik:*

*hündürdaban ayaqqabı; kağız; qələmqabı və qələmlər; dekorativ kosmetika; sabun və diş məcunu; heykəllər; çörək; 365 günlük təqvim; ayın 30 günə bölünməsi; dulusçuluq dairəsi; düzbucaqlının, üçbucağın, dairənin və trapesiyanın sahələrinin müəyyən olunması.*

*Hansı ölkədə Tanrılara sitayiş edir, əfsanə və rəvayətlər qoşaraq danışırdılar? (Qədim Yunanıstan, Roma)*



*Antik dövr – Avropa mədəniyyət tarixində ən böyük dövr hesab olunur. "Antik" termini alimlərin qədim mədəniyyət abidələrini aşkar etməsindən sonra meydana çıxmışdır.*

*Dünya mədəniyyətlərindən heç biri qədim mədəniyyət kimi bizə yaxın deyildir.*

*"**Antik**" anlayışı – latın sözü "antiquus", yəni "qədim" mənasını verir. Qədim mədəniyyətlərə Qədim Yunanıstan və Qədim Roma tarix və incəsənətləri şamil edilir.*



LAYİHƏ

| | |
|---|---|
| Zəif | Konstruksiyasına görə təbiət formalarına malik olan məişət əşyası çəkmək. |
| Orta | Memarlıq tikilisinin layihəsini hazırlamaq. |
| Yüksək | Müxtəlif həndəsi cisimlərdən istifadə edərək qeyri-adi tikili yaratmaq. |

**Yaradıcı tətbiqetmə**

Memarlıq abidəsinin konstruksiyasını düzəltmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini çətinliklə şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini müəllimin köməyi ilə şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini suallar əsasında şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini şərh edir. |
| Azərbaycanın görkəmli memarı Əcəmi Əbubəkr Naxçıvani və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Əbubəkr Naxçıvani və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Əbubəkr Naxçıvani və onun əsərləri haqqında məlumatları kiçik səhvlərə yol verməklə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Əbubəkr Naxçıvani və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən istifadə edir. |
| Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) səthi şəkildə estetik münasibət bildirir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Memarlıq tikililəri müxtəlif **forma** və **konstruksiyaya** malikdir. Mesopotamiyada Şumer memarlığına xas olan pilləli məbəd **zikkurat** adlanır. Pilləkəni əvəz edən maili səthə **pandus** deyilir.



LAYİHƏ

## 13. ŞƏRQ MEMARLIĞININ İNCİLƏRİ

| | |
|---|---|
| **Məşğələ növü:** | naturadan rəsm (təsəvvürə əsasən) |
| **Alt-standart:** | 1.1.1; 1.3.1; 2.1.2; 2.2.1. |

**Təlim nəticələri:**
- Şərq memarlığının cəmiyyət həyatındakı rolunu şərh edir;
- Memar Sinan və onun əsərləri haqqında məlumatları şərh edir;
- Şərq memarlığı nümunələrinin real və ya abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən istifadə edir;
- memarlıq abidələri üzərində sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir.

| | |
|---|---|
| **Təchizat:** | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərsin məqsədi – memarlıq və memarlıq əsərləri, Memar Sinanın möhtəşəm ideyaları haqqında məlumat toplamaqdır. Memar Sinan Şərq memarlığında yüzillik bir mərhələ üçün inkişaf yolu müəyyənləşdirmiş yeni bədii üslub icad etmişdir. Onun layihəsi üzrə boz daşlardan tikilmiş məscidlər həndəsi formalar məntiqinə uyğunlaşdırılaraq xaricdən qətiyyətli, daxildən isə zənginlik və rəngarənglik baxımından heyranedici əzəmətə malikdir.*

Müəllim şagirdlərə sual verir:
– Hansı incəsənət növünü "ruhun musiqisi" adlandırırlar və o, əbədi olaraq bütün dövrlərdə xalqların tarixində və yaddaşlarında qalır?

Tədqiqat sualı: **Memar Sinan və onun əsərlərində yeni bədii üslub nədən ibarətdir? Şərq memarlıq üslubuna dair məscidin eskizini necə çəkmək olar?**

Yeni dərsi şagirdlərə mənimsətmək üçün BİBÖ cədvəlindən istifadə etmək olar. Bunu vaxta qənaət etmək üçün qruplarla deyil, kollektiv şəkildə aparmaq məsləhətdir. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsi çəkilir. 3-cü "Öyrəndim" hissəsinə isə toxunulmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Sinifdən Qədim Şərq memarlığı haqqında bildikləri soruşulur və cədvəlin 1-ci – "Bilirik" hissəsinə yazılır. Bundan başqa, onlardan, ümumiyyətlə, memarlıq, memarlar haqqında da bildiklərini soruşub yazmaq olar, çünki mövzuda Memar Sinan haqqında da məlumat var. Sonra bu haqda nə öyrənmək istədikləri soruşulur və meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə qeyd edilir.

Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Sonra müəllim cədvəlin 3-cü hissəsindəki "Öyrəndik" sözünü əlavə edir və oraya şagirdlərin əlavə öyrəndiklərini yazır. Mövzu ilə tanış olduqdan sonra qruplara tapşırıq verilir:



LAYİHƏ

– Yaddaşa əsasən Şərq memarlıq üslubuna dair məscid nümunəsinin eskizini çəkin. İri və kiçik günbəzləri, hündür minarələri unutmayın. Məscidi landşaftla uyğun elə yerləşdirin ki, ətrafdakı digər tikililərlə ahəngdarlıq yaratsın.

Rəsm bitdikdən sonra yeni sözlərin təhlilinə başlamaq məsləhətdir.

Müzakirə üçün cədvəlin "İstəyirik bilək" hissəsindəki suallar təhlil olunur. Bundan əlavə, müəllim aşağıdakı sualları da verə bilər:

– Memarlıq nədir? O, nəyi öyrənir?
– Memar Sinan hansı yeni bədii üslubu yaratmışdır?
– Məscidlərin əsas xüsusiyyətləri nədən ibarətdir?

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdləri daha fəal qrupda əyləşdirmək lazımdır və onlara rəngləmə işlərini tapşırmaq məqsədəuyğundur.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Yaddaşa əsasən çəkilmiş memarlıq abidəsini rəngləmək. |
| Orta | Yaddaşa əsasən memarlıq abidəsini çək və naxışlarla bəzəmək. |
| Yüksək | Yaddaşa əsasən memarlıq tikilisinin rəsmini çəkmək. Onu təbiət landşaftında yerləşdir və digər tikililərlə ahəngdarlığını təmin etmək. |

***Bu, maraqlıdır…***

*Süleymaniyyə məscidini yeddi il ərzində – 1550-ci ildən 1557-ci ilədək inşa etmişlər. Rəvayətə görə, İran şahı Təhmasib qəfildən belə bir fikrə düşür ki, məscidin tikintisinin müvəqqəti dayandırılması maliyyə xərcləri üzündən baş vermişdir. Bu səbəbdən də öz səfirini Sultan Süleymanın yanına qiymətli daş-qaşlarla dolu sandıqça və bahalı hədiyyələrlə yola salır. Hiddətlənmiş Sultan Süleyman elə səfirin yanında hədiyyələri tacirlərə paylamağı, qiymətli daş-qaşları isə tikintidə istifadə edilən daşlara qarışdırmağı Sinana əmr edir. Memar əmrə tabe olur və cavahiratları minarələrin birinin hüdud və xonçalarının bəzədilməsinə sərf edir. O vaxtdan həmin minarə "qiymətli, misilsiz minarə" adını daşıyır.*

*Süleymaniyyə camisinin memarlığında simvolik işarələrə də rast gəlmək mümkündür. Məsciddəki dörd minarə – Süleymanın İstanbulun dördüncü, minarədəki on eyvan isə onun Osmanlı imperiyasının onuncu sultanı olduğunu bildirir.*

## Yaradıcı tətbiqetmə

Memarlıq tikilisinin maketini düzəltmək.

## Qiymətləndirmə meyarları

- Şərhetmə;
- Təsvir materiallarından istifadəetmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şərq memarlığının cəmiyyət həyatındakı rolunu çətinliklə şərh edir. | Şərq memarlığının cəmiyyət həyatındakı rolunu müəllimin köməyi ilə şərh edir. | Şərq memarlığının cəmiyyət həyatındakı rolunu dərslikdəki nümunələr əsasında şərh edir. | Şərq memarlığının cəmiyyət həyatındakı rolunu şərh edir. |
| Memar Sinan və onun əsərləri haqqında məlumatları şərh etməkdə çətinlik çəkir. | Memar Sinan və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Memar Sinan və onun əsərləri haqqında məlumatları kiçik səhvlərlə şərh edir. | Memar Sinan və onun əsərləri haqqında məlumatları düzgün şərh edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Şərq memarlığı nümunələrinin real və ya abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən istifadədə çətinlik çəkir. | Şərq memarlığı nümunələrinin real və ya abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Şərq memarlığı nümunələrinin real və ya abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən kiçik səhvlərə yol verməklə istifadə edir. | Şərq memarlığı nümunələrinin real və ya abstrakt təsvirində sadə və rəngli karandaşlar, flomasterlər, pastel təbaşirlərdən sərbəst istifadə edir. |
| Memarlıq abidələri üzərində sadə tərtibat və dizayn bacarıqlarını çətinliklə nümayiş etdirir. | Memarlıq abidələri üzərində sadə tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Memarlıq abidələri üzərində sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirərkən kiçik səhvlərə yol verir. | Memarlıq abidələri üzərində sadə tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |

**Nə öyrəndiniz**

İncəsənətin ən qədim növlərindən biri də **memarlıq**dır. Memarlıq abidələri **landşaftın**, yəni yer səthinin ayrılmaz hissəsidir. Qədimdə hökmdarlar öz adlarını tarixdə əbədiləşdirmək üçün **məscid** tikdirərdilər.

## 14. MEMARLIQDA ORNAMENT SƏNƏTİ

| | |
|---|---|
| **Məşğələ növü**: | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | 1.1.1; 1.3.1; 2.2.1; 3.1.1. |

**Təlim nəticələri:**
- təsviri sənət nümunələri əsasında ornamentin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir;
- Azərbaycanın görkəmli xalçaçı rəssamı Lətif Kərimov və onun əsərləri haqqında məlumatları şərh edir;
- memarlıq nümunələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;
- müxtəlif sənət əsərləri üzərindəki ornament növlərinin milli-üslubi cəhətlərinə estetik münasibət bildirir.

| | |
|---|---|
| **Təchizat**: | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, gel qələmlər, A3 və ya A4 formatlı rəsm vərəqi |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Tarix boyunca incəsənət salnaməsində müxtəlif növ ornamentlərlə rastlaşmaq mümkündür. Hər bir xalqın özünəməxsus ornamentləri mövcuddur. Bu dərsdə şagirdlər ornament növləri ilə tanış olacaq, qədim dünya memarlığında onların necə istifadə edildiyini öyrənəcəklər.*

– Gördüyünüz qədim nişan və işarələr nəyi ifadə edir və necə adlanır? Onlara harada rast gəlmək olar?





LAYİHƏ

– **Ornament** – ritmik naxış elementlərindən ibarətdir, təkrarlanaraq ornamentlər sırası əmələ gətirir. Ornament, demək olar ki, həndəsi quruluşa malik olub dairə, yarımdairə, oval, spiral, kvadrat, romb, üçbucaq formalarının dəqiq birləşmələrindən ibarət idi. Rəssam, adətən, real formanı “həndəsi” olaraq stilizə edir. Bu zaman o, formasını itirərək adi “həndəsi naxış” kimi qəbul edilir. Ornament motivləri müxtəlif sahələrdən, məsələn, həndəsi, nəbati və heyvanlar aləmindən götürülə bilər. **Motiv** ornamentin hissəsi, əsas elementidir. O, bütöv tamlıq təşkil edən bir və ya bir neçə elementdən ibarət ola bilər. Bu elementlərin mahiyyətindən asılı olaraq ornament növlərə ayrılır:




**Tədqiqat sualı: Həndəsi, nəbati və zoomorf naxışlar arasında fərq nədir və onları hansı ardıcıllıqla çəkmək olar?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar. Müəllim onlara müzakirə üçün aşağıdakı sualları verə bilər:

– Ornament və dekor arasında fərq nədən ibarətdir? (cavab dərslikdəki mövzuda “Yadda saxla” başlığı altında verilmişdir)

– Həndəsi, nəbati və zoomorf naxışlar arasında fərq nədir?

***Bu, maraqlıdır...***

*Qədim Babildə, şəhər darvazaları üzərində zoomorf naxışlardan ibarət kaşı üzləmələrdə hündürlüyü 2 metr olan 120 yırtıcı Tanrıça İştar darvazasından zəvvarlara doğru boylanır, buynuzlu timsah və əjdahalar diş qıcayır, pul-pul gövdəyə malik, nəhəng pəncəli köpəyəbənzər məxluqlar vəhşi gözlərlə onlara baxırdı. Bu Babil əjdahalarının sayı 500-dən artıq idi. Darvazalar qızılı rəngli müqəddəs öküz təsvirləri ilə bəzədilmiş, tünd-göy kaşı kərpiclərlə üzlənmişdir. Cərgələrdə isə ilanbaşlı, qartalcaynaqlı, aslanpəncəli ağ və sarı əjdahalar – əfsanəvi məxluqlar sıralanmışdı. Şəhərin simvolik mühafizəçiləri darvazalara qeyri-adi dekorativlik və baxımlılıq verirdilər. Fonun göy rəngi təsadüfən seçilməmişdi, o, pis nəzərlərə qarşı sirli məna daşıyırdı.*

Müəllim şagirdlərə tanınmış rəssam, ornament ustası Lətif Kərimovun Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin interyerinin tərtibatında müxtəlif naxış növlərinə geniş yer verdiyini də vurğulamalıdır.

Mövzudan yeni sözləri soruşub müzakirə aparmaq məsləhətdir. Sonra şagirdləri 5 qrupa ayırıb onlara müxtəlif tapşırıqlar vermək olar: *1-ci qrupa* – həndəsi, *2-ci qrupa* – nəbati, *3-cü qrupa* isə zoomorf naxışlar çəkmək tapşırılır. Kompozisiyanı qurarkən simmetriyanı, ritmi nəzərə almaq lazımdır. *4-cü qrup* – bina forması fikirləşir və divarlarını verilmiş nümunələrə əsasən həndəsi naxışlarla bəzəyir. *5-ci qrup* istənilən məişət əşyasını çəkir və üzərində həndəsi naxışlar tətbiq edir.

Qruplar işlərini bitirdikdən sonra onları yazı lövhəsinin qarşısına düzə bilərlər. Təriflər, suallar, təkliflər üsulundan istifadə edib rəsmləri müzakirə etmək olar.



LAYİHƏ

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlərə məişət əşyası çəkib üzərini naxışlarla bəzəmək tapşırığı verilə bilər:

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Həndəsi, nəbati və zoomorf ornamentli haşiyə çəkmək. |
| Orta | İstənilən tikilinin fasadında və ya interyerində müxtəlif ornament növlərindən istifadə edərək bəzəmək. |
| Yüksək | Memarlıq ansamblı çək və bura daxil olan tikililəri ornamentlərlə bəzəmək. |

**Yaradıcı tətbiqetmə**

Plastilin və ya gildən memarlıq abidəsi düzəltmək və üzərini müxtəlif naxışlarla (cızma, basma üsulundan istifadə etməklə) bəzəmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə;
- Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənət nümunələri əsasında ornamentin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini çətinliklə şərh edir. | Təsviri sənət nümunələri əsasında ornamentin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini müəllimin köməyi ilə şərh edir. | Təsviri sənət nümunələri əsasında ornamentin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini kiçik səhvlərə yol verməklə şərh edir. | Təsviri sənət nümunələri əsasında ornamentin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir. |
| Azərbaycanın görkəmli xalçaçı-rəssamı Lətif Kərimov və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Lətif Kərimov və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Lətif Kərimov və onun əsərləri haqqında məlumatları səthi şərh edir. | Azərbaycanın görkəmli xalçaçı-rəssamı Lətif Kərimov və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Memarlıq nümunələri üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Memarlıq nümunələri üzərində tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Memarlıq nümunələri üzərində sadə tərtibat və dizayn bacarıqlarını nümayiş etdirir. | Memarlıq nümunələri üzərində orijinal tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |
| Müxtəlif sənət əsərləri üzərindəki ornament növlərinin milli-üslubi cəhətlərinə estetik münasibət bildirməkdə çətinlik çəkir. | Müxtəlif sənət əsərləri üzərindəki ornament növlərinin milli-üslubi cəhətlərinə müəllimin köməyi ilə estetik münasibət bildirir. | Müxtəlif sənət əsərləri üzərindəki ornament növlərinin milli-üslubi cəhətlərinə suallar əsasında estetik münasibət bildirir. | Müxtəlif sənət əsərləri üzərindəki ornament növlərinin milli-üslubi cəhətlərinə sərbəst estetik münasibət bildirir. |



LAYİHƏ

**Nə öyrəndiniz**

Bir və ya bir neçə elementin ritmik təkrarına **ornament** deyilir. Bitki motivindən ibarət naxışlar **nəbati ornament** adlanır. Həndəsi fiqurlardan yaranan naxışa **həndəsi ornament** deyilir. Quş və heyvan təsvirlərindən yaranan ornament **zoomorf ornament** adlanır.

## 15. QƏDİM SÜTUNLARDA TƏBİƏT FORMALARI

| | |
|---|---|
| **Məşğələ növü**: | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | 1.1.1; 2.1.2; 2.2.1. |
| **Təlim nəticələri:** • qədim dünya memarlığına aid tikililərdə geniş istifadə olunan sütunların cəmiyyət həyatındakı rolunu şərh edir; • sütun və kapitellərin real təsvirində rəngli karandaşlar, flomasterlərdən istifadə edir; • memarlıq abidələrini bəzəyən sütunlar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | |
| **Təchizat:** | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi |

Müəllim şagirdlərə sual verir:

– Əşyalara, tikililərə gözəllik verən nədir? Memarlıqda dayaq kimi nədən istifadə etmək olar? Sütunlar tikilinin əsas dayaq və estetik elementlərindən biridir. O, gərək kompozisiyaya, mövzu baxımından tikiliyə uyğun olsun.

Tədqiqat sualı: **Dünya memarlığında əsas dayaq elementlərindən sayılan sütunlar və onların fərqli xüsusiyyətləri haqqında nə bilirsiniz? Sütun və kapitelləri hansı ardıcıllıqla çəkmək və üzərini bəzəmək olar?**

Şagirdlərə dərslikdə olan mətnin üzərində karandaşla işləmək məsləhət görülə bilər. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓"– bilirəm, "+"– yeni informasiyadır, "?"– anlamadım). Şagirdlər işarələmə cədvəlində bildikləri, yeni və anlamadıqları informasiyaları sistemləşdirirlər.

| "✓" – bilirəm | "+"– yeni informasiyadır | "?"– anlamadım |
|---|---|---|
| 1. | | |

Mövzu ilə tanış olduqdan sonra cütlərə tapşırıq verilir. Cütlüklər sütunlar cərgəsindən ibarət panno hazırlayırlar. Hər cütlük öz sütun variantını çəkməyə çalışır. Ornament motivləri təbiət formalarını bənzəyə bilər. Qədim dünyanın ornamental incəsənətinə də müraciət etmək olar. Cütlüklər sütunları çəkəndən sonra kəsib ümumi pannoya yapışdıra bilərlər.

– Sütunların hansı növləri mövcuddur?

– Sütunların bəzədilməsində hansı təbiət formaları tətbiq olunmuşdur?

*Diferensial təlim*. Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:



LAYİHƏ

| | |
|---|---|
| Zəif | Təbiət formalarını əks etdirən sütun çəkmək. |
| Orta | Sütunlar cərgəsindən ibarət panno hazırlamaq. |
| Yüksək | Dorik, ionik və korinf sütunlarının kapitellərini çəkmək. |

**Yaradıcı tətbiqetmə**
Memarlıq tikilisini boş qutudan düzəltmək və üzərini sütunlarla bəzəmək.
**Qiymətləndirmə meyarları**
- Müqayisə və şərhetmə;
- Təsvir materiallarından istifadə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim dünya memarlığına aid tikililərdə geniş istifadə olunan sütunların cəmiyyət həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Qədim dünya memarlığında tikililərdə geniş istifadə olunan sütunların cəmiyyət həyatındakı rolunu müəllimin köməyi ilə şərh edir. | Qədim dünya memarlığında tikililərdə geniş istifadə olunan sütunların cəmiyyət həyatındakı rolunu dərslikdəki suallar əsasında şərh edir. | Qədim dünya memarlığında tikililərdə geniş istifadə olunan sütunların cəmiyyət həyatındakı rolunu şərh edir. |
| Sütun və kapitellərin real təsvirində rəngli karandaşlar, flomasterlərdən çətinliklə istifadə edir. | Sütun və kapitellərin real təsvirində karandaşlar, flomasterlərdən müəllimin köməyi ilə istifadə edir. | Sütun və kapitellərin real təsvirində rəngli karandaşlar, flomasterlərdən səliqəsiz istifadə edir. | Sütun və kapitellərin real təsvirində rəngli karandaşlar, flomasterlərdən istifadə edir. |
| Memarlıq abidələrini bəzəyən sütunlar üzərində tərtibat və dizayn bacarıqlarını nümayiş etdirməkdə çətinlik çəkir. | Memarlıq abidələrini bəzəyən sütunlar üzərində tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Memarlıq abidələrini bəzəyən sütunlar üzərində tərtibat və dizayn bacarıqlarının nümayişində kiçik səhvlərə yol verir. | Memarlıq abidələrini bəzəyən sütunlar üzərində tərtibat və dizayn bacarıqlarını sərbəst nümayiş etdirir. |

**Nə öyrəndiniz**
Qədim yunan memarlığında üç sütun növü mövcud idi: **ionik, dorik, korinf.** Sütunların tac hissəsi **kapitel** adlanır. Kapiteli spiralvarı formanı xatırladan sütun **ionik** adlanır.

---

**Kiçik summativ qiymətləndirmə** (KSQ№ 3) nümunəsi vəsaitin sonunda verilmişdir.



LAYİHƏ

# 3. TƏSVİRİ SƏNƏTDƏ JANRLAR

16. Təsviri sənət əsərlərində məzmun
17. Rəssam yaradıcılığında insan obrazı
18. Zəriflik və mərhəmət simvolu
19. Əşyalar aləmi
20. Təbiət motivləri




## 16. TƏSVİRİ SƏNƏT ƏSƏRLƏRİNDƏ MƏZMUN

| | |
|---|---|
| **Məşğələ növü:** | təsviri sənət haqqında söhbət |
| **Alt-standart:** | 1.2.1; 3.1.1; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• təsviri sənətdə “janr” anlayışını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir;<br>• təsviri sənətin natürmort, mənzərə, portret janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir. | |
| **Təchizat:** | dərslik, janrlar üzrə reproduksiyalar (müəllimin seçiminə əsasən), albom. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərsdə **“təsvir obyekti”** və **“əsərin məzmunu”** anlayışlarının təsviri sənətdə eyni olmadığını dərslik və rəssam reproduksiyaları vasitəsilə şagirdlərə çatdırmaq tövsiyə olunur. Təsviri sənət **növ** və **janrlara** ayrılır. Şagirdlərin təsviri sənətin növləri haqqında məlumatları var. Əvvəlki siniflərdən təsviri sənətin janrları haqqında da biliklərə malikdirlər. **“Janr”** anlayışının şagirdlərə — **“Nə təsvir olunub”** sualına cavab verdiyini və **təsvir obyektinə** görə bir-birindən fərqləndiyini çatdırmaq məqsədəuyğun sayılır.*

*Bu zaman yazı lövhəsində və ya videoproyektorda müxtəlif janrları əks etdirən təsvirlər də nümayiş etdirmək olar.*

Dərslikdə verilmiş suallarla da sinfə müraciət etmək olar:

– Rəssamların əsərlərində nə təsvir olunmuşdur? Müxtəlif məzmunlu sənət əsərləri necə adlanır?


1 *O.Şıxəliyev. “Ü.Hacıbəyov”*


2 *İlqar Əkbərov. “Lalələr”*


3 *Vəcihə Səmədova. “Göy göl”*



LAYİHƏ

**Tədqiqat sualı: Təsviri sənətin janrları arasında hansı fərqlər var?**




Tədqiqatın aparılmasını qruplarda yerinə yetirmək məsləhətdir. Qrupların adları janrlara müvafiq ola bilər.

| I qrup | II qrup | III qrup | IV qrup | V qrup |
|---|---|---|---|---|
| **Portret** | **Mənzərə** | **Natürmor** | **Məişət** | **Animalistika** |

Şagirdlər öncə dərslikdəki mövzu ilə tanış olur, sonra hər qrupa qarışıq şəkildə reproduksiyalar verilir. Şagirdlər həmin təsvirlərin arasından qrupların adına uyğun janrı tapa bilərlər. Məsələn, “Portret” adlanan qrupa qarışıq şəkildə həm portretlərin, həm mənzərə, natürmort və süjetli rəsmlərin reproduksiyaları və yaxud onların surətləri verilə bilər. Onlardan yalnız portretləri seçib ayırır və nümayiş etdirirlər.

Müəllim təsviri sənətin növləri haqqında da soruşa bilər. 1-ci qrup – heykəltəraşlığa, 2-ci və 3-cü qruplar – rəngkarlığa, 4 və 5-ci qruplar isə qrafikaya hansı janrların xarakterik olduğunu düşünüb tapır və sonra müzakirə edirlər.




– Heykəltəraşlıq sahəsinə hansı janrlar xarakterikdir? Bəs hansı janrlar xarakterik deyil və nə üçün? Bəs qrafikaya hansı janrlar xarakterikdir?

**Nümunə:**

*Təsviri sənətin RƏNGKARLIQ növündə* ***portret, mənzərə, natürmort, məişət*** *və* ***animalistika*** *janrları təsvir etmək olar.*

*QRAFİKA növündə yenə də həmin janrlar mövcuddur.*

*HEYKƏLTƏRAŞLIQ növündə isə* ***portret, animalistika****, relyeflərdə isə daha çox* ***məişət*** *janrı yer alır.*

Sonra dərslikdəki “Təsviri sənət qalereyası” blokunda verilimiş rəsm əsərlərini təhlil edirlər. Müəllim müzakirə üçün aşağıdakı sualları da verə bilər:

– Janr nə deməkdir?
– Janrlar nəyi əks etdirir? Təsviri sənətdə onların rolu nədir?
– Təsviri incəsənətdə janrlar hansı əsaslara görə ayrılır? Siz nəyin təsvir olunması və əsərin məzmunu arasındakı fərqi necə izah edərsiniz?



LAYİHƏ

– Janrlar arasında fərq nədən ibarətdir? (mənzərə və süjet, süjet və portret, süjet və natürmort arasında fərq müzakirə oluna bilər. Bunu Venn diaqramı vasitəsilə də edə bilərlər).

– **“Təsvir obyekti”** və **“əsərin məzmunu”** anlayışları arasında bərabərlik işarəsi qoymaq olarmı?

**təsvir obyekti** = ? ≠ **əsərin məzmunu**

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər janrlarda nə təsvir olunduğunu deyə bilərlər. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Təsviri sənətin müxtəlif növ və janrlarına aid reproduksiyalar toplamaq. |
| Orta | Rəsm əsərlərindəki janrlar haqqında anlayışları müəyyənləşdir və cədvəldə qeyd etmək. |
| Yüksək | Tanınmış Azərbaycan rəssamlarının əsərlərində onlara xarakterik olan janrları müəyyən etmək. |

**Yaradıcı tətbiqetmə**

Janrlar haqqında əlavə məlumat toplamaq və bu janrlarda işləyən rəssamlar haqqında məlumat yazmaq.

**Qiymətləndirmə meyarları**

• Şərhetmə; • Münasibətbildirmə; • İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri sənətdə “janr” anlayışını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətdə “janr” anlayışını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətdə “janr” anlayışını xarakterik xüsusiyyətlərinə görə kiçik səhvlərlə şərh edir. | Təsviri sənətdə “janr” anlayışını xarakterik xüsusiyyətlərinə görə düzgün şərh edir. |
| Bədii sənət əsərlərini janrlara görə çətinliklə ayırır (obraz, obyekt və hadisələr), estetik münasibət bildirir. | Bədii sənət əsərlərini janrlara görə müəllimin köməyi ilə ayırır (obraz, obyekt və hadisələr), estetik münasibət bildirir. | Bədii sənət əsərlərini janrlara görə kiçik səhvlərlə ayırır (obraz, obyekt və hadisələr), estetik münasibət bildirir. | Bədii sənət əsərlərini janrlara görə ayırır (obraz, obyekt və hadisələr), estetik münasibət bildirir. |
| Təsviri sənətin natürmort, mənzərə, portret janrlarını xarakterik xüsusiyyətlərinə görə çətinliklə ayıraraq izah edir. | Təsviri sənətin natürmort, mənzərə, portret janrlarını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə ayıraraq izah edir. | Təsviri sənətin natürmort, mənzərə, portret janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq kiçik səhvlərlə izah edir. | Təsviri sənətin natürmort, mənzərə, portret janrlarını xarakterik xüsusiyyətlərinə görə ayıraraq ətraflı izah edir. |

**Nə öyrəndiniz**

Təsviri sənət əsərləri müxtəlif **janrlar**a ayrılır. Təsviri sənətin janrları bunlardır: **portret, natürmort, mənzərə**. Rəssamın tamaşaçıya çatdırmaq istədiyi ideya əsərin **məzmunu** adlanır.



LAYİHƏ

## 17. RƏSSAM YARADICILIĞINDA İNSAN OBRAZI

| | |
|---|---|
| **Məşğələ növü:** | təsviri sənət haqqında söhbət |
| **Alt-standart:** | 1.1.1; 1.2.1; 3.1.1; 3.1.2. |
| **Təlim nəticələri:**<br>• portret janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh edir;<br>• təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• portret janrında olan bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir;<br>• təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir. | |
| **Təchizat:** | dərslik, müxtəlif rəssamların təsvir etdiyi portretlərin reproduksiyası (müəllimin seçiminə əsasən), fotoşəkillər. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dərslikdə janrlarla bağlı mövzular müəyyən plan üzrə təqdim olunmuşdur:*

- *insan mədəniyyətinin bir hissəsi olan janr tarixi ilə ümumi tanışlıq;*
- *rəngkarlıq, heykəltəraşlıq, qrafika növlərində olan portretlərin xüsusiyyətlərinin qavranılması;*
- *insan başının konstruksiyası, forması ilə tanışlıq;*
- *şagirdlərin janr haqqında şəxsi fikir və mülahizəsi.*

*Mövzuları zəngin rəssam reproduksiyaları müşayiət edir.*

*İnsan – dünya incəsənətinin əsas mövzusudur, lakin baş verən hadisələr arasından uzaqlaşaraq o, portretlərdə tamaşaçı qarşısında bütün şəxsi keyfiyyətləri ilə canlanır. Portret konkret insan obrazını əks etdirir, bu səbəbdən portret sahibinin təsvirlə oxşarlığı ən vacib meyarlardan sayılır. Portret nəinki sahibinin xarici görünüşünü, hətta müəllifin şəxsiyyətinin bədii keyfiyyətini, şəxsi dünyagörüşünü ifadə edir.*

Müəllim sinfə suallar verə bilər:

– İnsan surəti, xarakteri, özünəməxsus keyfiyyətləri təsvir olunan sənət əsərləri necə adlanır?

– ***Portret*** rəngkarlığın, heykəltəraşlığın və qrafikanın əsas janrlarından olub (fransızca *"portrait" – dəqiq cizgiləri təsvir etmək* deməkdir) mövcud olmuş, yaxud hazırda fəaliyyətdə olan hansısa insanın və ya insanlar qrupunun təsviri deməkdir.

Portret mövzusunun məktəbdə öyrənilməsi – müşahidəçiliyi, kompozisiya təfəkkürünü, dəqiq göz ölçülərini inkişaf etdirmək baxımından ən əsas məsələlərdəndir.

**Portret** – müəyyən, real insanın obrazıdır. Təsvir xarakterinə görə iki növə ayrılır:




Şagirdlər insanın cəmiyyətdə tutduğu mövqeyi əks etdirən portretlərin **təntənəli,** fərdi xüsusiyyətlərini vurğulayan portretlərin isə ***kameral portretlər*** adlandırıldığını öyrənirlər.

Tədqiqat sualı: **Portretin mövzusu nədir? Təntənəli və kameral portretlərin oxşar və fərqli cəhətləri nədədir?**



LAYİHƏ

Şagirdlər mövzunu sərbəst oxuyur və onunla tanış olurlar. Sonra müəllim onları müxtəlif portret şəkilləri vasitəsilə 4 qrupa ayıra bilər. *1 və 2-ci* qrupların qarşısına çoxlu sayda müxtəlif portret düzmək olar. Bu portretlər rəngkarlıq, heykəltəraşlıq və qrafika növlərində ola bilər. Onlara sualla müraciət etmək olar:

– Heykəltəraşlıqdakı portret rəngkarlıqda, yaxud qrafikada təsvir olunan portretlərdən nə ilə fərqlənir?

*3 və 4-cü* qrupların da qarşısına o qaydada müxtəlif portretlər qoyulur. Tapşırıq isə təntənəli və kameral portretləri ayırmaq ola bilər.

Müxtəlif suallar verməklə müzakirə təşkil olunur:

– Qarşınızda qoyulan müxtəlif dövrlərin rəssam əsərlərini təhlil edin. Təsvirlərdə nə kimi dəyişikliklər vardır?

– Rəssamlar təsvirində insanın daxili aləmini, fərdi xüsusiyyətlərini necə ifadə etmişlər?

– Portretin sənət əsəriedən nədir?

– Ailə portretləri evinizin otaqlarını bəzəyirmi? Onları nə üçün divardan asırlar?

– Təntənəli portret və kameral portret bir-birindən nə ilə fərqlənir?

– Portretləri seyr edən zaman “oxşayır” anlayışı kifayət edirmi?

Müzakirədən sonra Venn diaqramı vasitəsilə təntənəli və kameral portretlərin oxşar və fərqli cəhətlərini taparaq onları həm şifahi, həm də yazılı şəkildə müqayisə etmək olar. Sonra dərslikdəki “Yadda saxla” bloku oxunaraq müzakirə edilir.




Dərslikdəki mövzuda “Təsviri sənət qalereyası” başlığı altında olan hissədəki suallara cavab verirlər.

*Diferensial təlim.* Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Portret haqqında danışmaq. |
| Orta | Təntənəli və kameral portretlər arasında fərqi izah etmək. |
| Yüksək | Portret və portretçi rəssamlar haqqında ümumi məlumat toplamaq. |

**Yaradıcı tətbiqetmə**

Ailə fotoşəkilləri arasından təntənəli və kameral portretləri müəyyən etmək.

**Qiymətləndirmə meyarları**

• Şərhetmə; • Münasibətbildirmə; • İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Portret janrının insanların həyatındakı rolunu və əhəmiyyətini çətinliklə şərh edir. | Portret janrının insanların həyatındakı rolunu və əhəmiyyətini istiqamətləndirici suallar əsasında şərh edir. | Portret janrının insanların həyatındakı rolunu və əhəmiyyətini nümunələr əsasında şərh edir. | Portret janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh edir. |
| Təsviri sənətin portret janrını | Təsviri sənətin portret janrını | Təsviri sənətin portret janrını | Təsviri sənətin portret janrını |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| xarakterik xüsusiyyətlərinə görə çətinliklə şərh edir. | xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | xarakterik xüsusiyyətlərinə görə kiçik səhvlərə yol verməklə şərh edir. | xarakterik xüsusiyyətlərinə görə düzgün şərh edir. |
| Portret janrında olan bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Portret janrında olan bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Portret janrında olan bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) dərslikdəki nümunələr əsasında estetik münasibət bildirir. | Portret janrında olan bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |
| Təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə çətinliklə ayıraraq izah edir. | Təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə ayıraraq izah edir. | Təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq səthi izah edir. | Təsviri sənətin portret janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq tam izah edir. |

**Nə öyrəndiniz**

İnsan obrazının özünəməxsus keyfiyyətləri olan təsviri sənət əsərləri **portret** adlanır. Portretlər **təntənəli** və **kameral** olur. İnsanın cəmiyyətdəki mövqeyini göstərən portret **təntənəli** adlanır. İnsanın fərdi keyfiyyətlərini daha çox qabardan portretlər isə **kameral** adlanır.

## 18. ZƏRİFLİK VƏ MƏRHƏMƏT SİMVOLU

| | |
|---|---|
| **Məşğələ növü**: | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.2.1; 1.3.1; 2.1.1; 2.1.2; 3.1.2. |

**Təlim nəticələri**:
- portret janrında ana obrazını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- görkəmli rəssam Rafael Santi və onun əsərləri haqqında məlumatları şərh edir;
- qadın–ana obrazının real təsvirində sadə və rəngli karandaşlar, pastel təbaşirlərdən istifadə edir;
- qadın–ana obrazını portret janrında real təsvir edir;
- təsviri sənətin müxtəlif növlərində portret janrında qadın obrazını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir.

| | |
|---|---|
| **Təchizat:** | dərslik, sadə və rəngli karandaşlar, pastel təbaşirlər, A3 və ya A4 formatlı rəsm vərəqi |

– Hansı obraz rəssam və heykəltəraşlar üçün əbədi gözəllik, mərhəmət və ilham mənbəyi hesab olunur?

– **Qadın** və **ana** mövzuları – incəsənətin əbədi mövzularındandır.



LAYİHƏ

Müəllim qeyd edir ki, dərsdə Rafaelin madonna tablolarında gözəllik, xeyirxahlıq və harmoniyanın hakimiyyəti, qadın obrazının təsviri ardıcıllığı haqqında öyrənəcəklər.

**Tədqiqat sualı: Rafael Santi yaradıcılığının əsas xüsusiyyəti nədədir? Qadın obrazını hansı ardıcıllıqla təsvir etmək olar?**

Şagirdlər dərslikdəki mövzu ilə "Ziqzaq" üsulundan istifadə etməklə tanış olurlar. Onları "Doğma" qruplara ayırmaq lazımdır. Rafael Santi yaradıcılığına və qadın obrazına müraciət edən rəssamlar haqqında bildiklərini yazmalarını müəllim xahiş edə bilər. Qruplar yazdıqlarını təqdim edirlər. "Doğma" qruplar 1, 2, 3, 4 saymaqla "Ekspert" qruplarına ayrılır. 1-ci "Ekspert" qrupu – mövzunun 1-ci səhifəsindəki məlumatı, 2-ci "Ekspert" qrupu görkəmli rəssamın gözəllik ideallarını, 3-cü "Ekspert" qrupu rəssam haqqında qeydləri, 4-cü "Ekspert" qrupu isə yeni sözləri öyrənir. Bunun üçün müəyyən vaxt ayırmaq olar. Sonra "Ekspert" qrupları "Doğma" qruplara qayıdıb öyrəndiklərini bir-birinə söyləyir. Nəticədə şagirdlər "Doğma" qruplarda bütün mövzunu mənimsəyirlər. Müəllim bu mövzunu BİBÖ, fasilələrlə oxu üsulları ilə də mənimsədə bilər.

Bu reproduksiyaları müzakirə etmək də olar.

1

2

3


*1. "Ana Məryəm" əsəri. Qranduka. 1500-cü il, Florensiya, Palasso Pitti.*
*2. "Kiçik ana Məryəm" əsəri. Kouper. 1504-1505-ci illər. Vaşinqton, Milli Qalereya.*
*3. "Böyük ana Məryəm" əsəri. Kouper. 1508-ci il, Vaşinqton, Milli Qalereya.*

İntibah dövrünün sənətkarları dünyanın bütövlüyü və dolğunluğunu əks etdirən **tondo formasını** sevirdilər. Təsvir olunmuş əsərləri kvadrat formasına daxil edilmiş dairədə yerləşdirirdilər. Tondo forması mənzərə və obrazın vahidliyini təmin edir, bütün görünüşə ahəngdar ruh verir.

Sonra qruplara təsvir üçün tapşırıqlar verilir. Şagirdlər istədikləri qadın simasını çəkə bilərlər. Müəllim xatırladır ki, rəsmdə yaşa uyğun gələn cəhətləri (gənclik, cavanlıq, ahıl dövrləri) əks etdirməyə çalışmaq lazımdır.



LAYİHƏ



Başın ovalını və orta xətti qeyd edirlər. Göz xətlərini, qaşüstü qövsləri, burun və qulaqların olduğu hissələri çəkirlər. Çənə, burun, qaş və alın arasındakı məsafə eynidir. Cüt olan və simmetrik yerləşən dayaq nöqtələrini, hərəkətlərin mahiyyətini və perspektiv ixtisarlarını başın orta xəttinə əsasən təsvir etmək izah olunur. Başın ümumi forma və detallarını karandaşla aydın cizgiləmək lazımdır. Yüngülcə işıq-kölgə işlənməsi də mümkündür.

Qruplar işlərini qurtardıqdan sonra təsvirləri yazı lövhəsindən asırlar. Suallar, təriflər və təkliflər üsulu vasitəsilə təsvir olunmuş portretlər təhlil edilir.

Müəllim ümumiləşdirmək üçün aşağıdakı sualları da verə bilər:

– Rəngkarlıq üslubunun xüsusi cizgiləri Rafael yaradıcılığında aydın əks olunmuşdur: ritm, zəriflik, xətlərin axımlılığı, obrazların ahəngdarlığı. Bu xüsusiyyətləri anlaya bilirsinizmi?

– Nə üçün Rafaeli "qadın gözəlliyinin tərənnümçüsü" adlandırırlar?

– Əsərlərində qadın obrazını vəsf edən hansı Azərbaycan rəssamlarını tanıyırsınız?

Rafael Santi yaradıcılığı ilə bu saytda tanış olmaq olar: http://www.rafaelsanti.ru/

*Diferensial təlim.* Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Rafael Santinin yaradıcılığı haqqında əlavə məlumat toplamaq. |
| Orta | Təxəyyülə əsasən rəngli karandaşlarla qadın portreti çəkmək. |
| Yüksək | Sulu boyalarla qadınla körpə portretini çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Ananızın obrazını çəkmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsviretmə;
- Təsvir materiallarından istifadəetmə;
- İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Portret janrında ana obrazını xarakterik | Portret janrında ana obrazını xarakterik | Portret janrında ana obrazını xarakterik xüsusiyyətlərinə görə səthi şərh edir. | Portret janrında ana obrazını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| xüsusiyyətlərinə görə çətinliklə şərh edir. | xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | | |
| Görkəmli rəssam Rafael Santi və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Görkəmli rəssam Rafael Santi və onun əsərləri haqqında məlumatları istiqamətləndirici suallar əsasında şərh edir. | Görkəmli rəssam Rafael Santi və onun əsərləri haqqında məlumatları kiçik səhvlərlə şərh edir. | Görkəmli rəssam Rafael Santi və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Qadın-ana obrazının portret janrında real təsvirində sadə və rəngli karandaşlar, pastel təbaşirlərdən istifadə etməkdə çətinlik çəkir. | Qadın-ana obrazının portret janrında real təsvirində sadə və rəngli karandaşlar, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Qadın-ana obrazının portret janrında real təsvirində sadə və rəngli karandaşlar, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Qadın-ana obrazının portret janrında real təsvirində sadə və rəngli karandaşlar, pastel təbaşirlərdən istifadə edir. |
| Qadın-ana obrazını real təsvir etməkdə çətinlik çəkir. | Qadın-ana obrazını müəllimin köməyi ilə real təsvir edir. | Qadın-ana obrazının real təsvirində səliqəsizliyə yol verir. | Qadın-ana obrazını sərbəst olaraq real təsvir edir. |
| Təsviri sənətin müxtəlif növlərində portret janrında qadın obrazını xarakterik xüsusiyyətlərinə görə çətinliklə ayıraraq izah edir. | Təsviri sənətin müxtəlif növlərində portret janrında qadın obrazını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında ayıraraq izah edir. | Təsviri sənətin müxtəlif növlərində portret janrında qadın obrazını xarakterik xüsusiyyətlərinə görə ayıraraq səthi izah edir. | Təsviri sənətin müxtəlif növlərində portret janrında qadın obrazını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir. |

**Nə öyrəndiniz**

Təsviri sənətin əbədi mövzusu **qadın** obrazıdır. Dairə formalı tablolara **tondo** deyilir. İtalyan dilində qadın obrazına **madonna** deyilir.

## 19. ƏŞYALAR ALƏMİ

| | |
|---|---|
| **Məşğələ növü:** | naturadan rəsm |
| **Alt-standart:** | 1.1.1; 1.2.1; 2.1.1; 2.1.2; 3.1.2. |

**Təlim nəticələri:**
- natürmort janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh edir;
- təsviri sənətin natürmort janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;
- məişət əşyalarından tərtib olunmuş natürmortu real təsvir edir;
- natürmortun real təsvirində akvarel və quaşdan istifadə edir;
- natürmort janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir.

| | |
|---|---|
| **Təchizat:** | dərslik, sadə karandaş, akvarel, quaş, A3 və ya A4 formatlı rəsm vərəqi. |



LAYİHƏ

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Dünya incəsənəti tarixində NATÜRMORT – rəssam fırçası ilə çəkilmiş "cansız təbiət"– müxtəlif dövrlərdə dünyanı dərketmənin xüsusiyyətlərinin dəyişkənliyinin, insanın dünyagörüşünün salnaməsidir. Bu, hiss və emosiyaların canlandığı ƏŞYALAR ALƏMİDİR.*

*Bizi əhatə edən əşyaların əsasını sadə həndəsi fiqurlar və ya cisimlər təşkil edir. Bunu oyun vasitəsilə də təqdim etmək olar: müəllim əvvəlcə sinifdə olan sadə əşyaları göstərir, şagirdlər isə həmin əşyanın hansı həndəsi fiqurdan ibarət olduğunu söyləyirlər. Oyun prosesində müəllim təhlil etmək üçün daha çətin, yəni bir neçə həndəsi fiqurdan ibarət əşyalar göstərir.*

Müəllim suallar verir:

– Təsviri sənətdə müxtəlif cansız əşyaların təsviri necə adlanır?

Müəllim sonra izahat verir:

– Hər bir dövrün və hər bir xalqın sevimli əşyaları, onları təsvir etməyə səbəbləri var idi.

**Tədqiqat sualı: Natürmort janrını fərqləndirən əsas xüsusiyyətlər hansılardır? Natürmortun təsvirində hansı qaydalardan və ardıcıllıqdan istifadə etmək olar?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar.

**Konstruksiya** sözü quruluş, qurulma kimi anlaşılır, belə ki, cismin hissələrinin qarşılıqlı yerləşməsi və onların bir-birinə nisbəti deməkdir. İstənilən formanın təsvirində bunu bilmək və anlamaq vacib sayılır.

Adətən, həyatda formalar yastı deyildir, həcmə – uzunluğa, enə və hündürlüyə malik olur. Müəllim bu mövzunu BİBÖ, fasilələrlə oxu üsulları ilə də mənimsədə bilər. Sonra qruplara aşağıdakı tapşırıqlar verilir:

*1-ci və 2-ci qruplar* məktəbdə, yaxud evdə istifadə etdiyi müxtəlif qabları, bardaqları və ya adi əşyaları qarşılarına qoyurlar. Onların konstruksiyasında hər hansı həndəsi fiqurların olduğunu tapır və təsvir edirlər. *3-cü qrup* natürmort çəkir. Həndəsi cisimlərin köməyi ilə onun konstruksiyasını nümayiş etdirməyə çalışırlar. *4-cü qrup* bu və ya digər əhvalı əks etdirən (bayramsayağı və ya qəmli, sirli və ya təntənəli) natürmort çəkir. Bu tapşırığı monotipiya texnikasına əsasən yaradırlar. *5-ci qrup* kontrast rənglərdən ibarət natürmort çəkir. Şagirdlərə kompozisiya mərkəzini dəqiqləşdirmək, planları necə tapmaq və əşyaları necə yerləşdirmək haqqında düşünmək tapşırıla bilər.

Sinfin səviyyəsini nəzərə alan müəllim dörd tapşırıqdan birini seçib bütün qruplara eyni tapşırıq da verə bilər. Müzakirə üçün suallar:

– Əşyaların forma quruluşunun təhlili təsvir üçün nə kimi əhəmiyyət daşıyır?
– Konstruksiya nədir və əşyanın konstruksiyasını necə göstərmək mümkündür?
– Natürmortlarda işıq və kölgənin nə kimi rolu vardır?
– Natürmortun digər janrlardan fərqi nədədir?

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər natürmortun aplikasiyasını düzəldirlər. Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir.



LAYİHƏ

Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Sadə əşyalardan natürmort çəkmək |
| Orta | Natürmortun əşyalarını həndəsi fiqurlarla göstərmək. |
| Yüksək | Natürmort çəkib sulu boyalarla rəngləmək. |

**Yaradıcı tətbiqetmə**
Natürmort janrı haqqında əlavə məlumat toplamaq və təqdimat hazırlamaq.
**Qiymətləndirmə meyarları**

- Şərhetmə; Təsviretmə; Təsvir materiallarından istifadəetmə; İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Natürmort janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh etməkdə çətinlik çəkir. | Natürmort janrının insanların həyatındakı rolunu və əhəmiyyətini müəllimin köməyi ilə şərh edir. | Natürmort janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh edərək kiçik səhvlərə yol verir. | Natürmort janrının insanların həyatındakı rolunu və əhəmiyyətini tam şərh edir. |
| Təsviri sənətin natürmort janrını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin natürmort janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin natürmort janrını xarakterik xüsusiyyətlərinə görə səthi şərh edir. | Təsviri sənətin natürmort janrını xarakterik xüsusiyyətlərinə görə düzgün şərh edir. |
| Məişət əşyalarından tərtib olunmuş natürmortu real təsvir etməkdə çətinlik çəkir. | Məişət əşyalarından tərtib olunmuş natürmortu müəllimin köməyi ilə real təsvir edir. | Məişət əşyalarından tərtib olunmuş natürmortu səliqəsiz real təsvir edir. | Məişət əşyalarından tərtib olunmuş natürmortu sərbəst şəkildə real təsvir edir. |
| Natürmortun real təsvirində akvarel və quaşdan istifadə etməkdə çətinlik çəkir. | Natürmortun real təsvirində akvarel və quaşdan müəllimin köməyi ilə istifadə edir. | Natürmortun real təsvirində akvarel və quaşdan səliqəsiz istifadə edir. | Natürmortun real təsvirində akvarel və quaşdan düzgün istifadə edir. |
| Natürmort janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah etməsində çətinlik çəkir. | Natürmort janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə ayıraraq izah edir. | Natürmort janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq kişik səhvlərlə izah edir. | Natürmort janrını xarakterik xüsusiyyətlərinə görə ayıraraq izah edir. |

**Nə öyrəndiniz**
Əşyalar aləminin təsviri **natürmort** adlanır. Natürmort – təsviri sənətin **janr**larından biridir. Müxtəlif əşyaların təsvirində **forma, işıq-kölgə** və **perspektiv** hökmən nəzərə alınmalıdır.



LAYİHƏ

## 20. TƏBİƏT MOTİVLƏRİ

| | |
|---|---|
| **Məşğələ növü:** | mövzu üzrə rəsm |
| **Alt-standart:** | 1.1.1; 1.2.1; 2.1.2; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• mənzərə janrının insanların həyatındakı rolunu və əhəmiyyətini şərh edir;<br>• təsviri sənətin mənzərə janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• mənzərənin real və abstrakt təsvirində rəngli karandaşlar, akvarel, quaşdan istifadə edir;<br>• mənzərə janrına aid əsərlərdə milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, akvarel, quaş, pastel təbaşirlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*İlk dəfə MƏNZƏRƏ janr kimi Çin, Yaponiya incəsənətində meydana gəlmişdir. Bu ölkələrin incəsənətində ən önəmli yeri məhz bu janr tutur. Mənzərə lirikası, mənzərə rəngkarlığı və mənzərəli bağlar incəsənəti hər zaman tarixi-mədəni əlaqədə olub. Həyatın bütün gözəllikləri, bütün dərin hislər, emosiyalar təbiətlə müqayisə edilirdi. Məkan təsvirinə münasibət, onun təsvir qaydaları hər zaman fərqli idi, çünki insanların yaşadığı dövr, dünyagörüşü dəyişirdi.* ***Mənzərə*** *– incəsənət əsəri kimi insanın hiss və əhvalını ifadə edən təbiət obrazıdır.*

Müəllim suallarla müraciət edir:

– Təbiəti əks etdirən təsvirlər necə adlanır?

Tədqiqat sualı: **Mənzərə janrının əsas xüsusiyyətləri nədir? Mənzərənin təsvirində hansı qaydalardan və ardıcıllıqdan istifadə etmək lazımdır?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar. Sonra müəllim suallar verir:

– Hansı ölkə mənzərənin vətəni sayılır? Rəssamlar öz təsvirlərində məkanı göstərmək üçün hansı nöqteyi-nəzəri seçmişlər?

– Rəssam əsərlərinin məzmunu nəyi bildirir? Müxtəlif tərzdə olaraq, bu təsvirlər təbiətin əzəməti və gözəllikləri haqqındakı anlayışları necə meydana çıxarır?

Şagirdlər 4 qrupa ayrılır.

*1-ci qrup* təbiətin dəyişkən və rəngarəng hallarını müşahidə etməklə yanaşı, səmanın, torpağın, suyun, ağacların xarakterini göstərməyə çalışır. Yaz təbiətinin obrazını yaradır. Müəllim qeyd edir ki, ilk öncə üfüq xəttini göstərməyi unutmasınlar. *2-ci qrup* “Keçmək istədiyim yol”, *3-cü qrup* “Görmək istədiyim mənzərə” (keçmiş, indiki və gələcək zamanlara dair mənzərələrdən biri ola bilər) mövzularında eskiz çəkir. *4-cü qrup* isti və ya soyuq koloritdə mənzərə çəkə bilər. Müəllim xatırladır ki, vərəqin üfüqi və ya şaquli formatda, üfüq xəttinin hündür və ya alçaq olacağını müəyyən etsinlər.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlər karandaşla çəkilmiş mənzərəni rəngləyirlər. Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.



LAYİHƏ

| | |
|---|---|
| Zəif | Ağac çəkmək və akvarellə rəngləmək. |
| Orta | “Keçmək istədiyim yol”, “Görmək istədiyim mənzərə” mövzularında eskiz çəkmək. |
| Yüksək | İsti və yaxud soyuq çalarlarda mənzərə çəkmək. |

**Yaradıcı tətbiqetmə**

Plastilindən mənzərə təsviri yaratmaq.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə; • Təsvir materiallarından istifadə; • Münasibətbildirmə; • İzahetmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mənzərə janrının insanların həyatındakı rolu və əhəmiyyəti haqqında məlumata malikdir. | Mənzərə janrının insanların həyatındakı rolu və əhəmiyyəti haqqında səthi məlumatlar verir. | Mənzərə janrının insanların həyatındakı rolu və əhəmiyyətini səthi şərh edir. | Mənzərə janrının insanların həyatındakı rolunu və əhəmiyyətini sərbəst şərh edir. |
| Təsviri sənətin mənzərə janrını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin mənzərə janrını xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin mənzərə janrını xarakterik xüsusiyyətlərinə görə kiçik səhvlərlə şərh edir. | Təsviri sənətin mənzərə janrını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Mənzərənin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan istifadə etməkdə çətinlik çəkir. | Mənzərənin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan müəllimin köməyi ilə istifadə edir. | Mənzərənin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan səliqəsiz istifadə edir. | Mənzərənin real və abstrakt təsvirində pastel təbaşirlər, akvarel, quaşdan istifadə edir. |
| Mənzərə janrına aid əsərlərdə milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Mənzərə janrına aid əsərlərdə milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Mənzərə janrına aid əsərlər əsasında milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirərkən səhvlərə yol verir. | Mənzərə janrına aid əsərlərdə milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**

Təbiətin təsvir olunduğu əsərlərə **mənzərə** deyilir. **Perspektiv** elmi təsvir müstəvisində məkanın dərinliyini öyrənir. Bizdən uzaqlaşan paralel xətlərin **üfüq xətt**ində birləşdiyi yer **qovuşma nöqtəsi** adlanır. Mənzərə təsvirləri süjetə əsasən fərqləndirilir və **motiv** adlanır.

---

**Kiçik summativ qiymətləndirmə** (KSQ №5) nümunəsi vəsaitin sonunda verilmişdir.



LAYİHƏ

# 1. DEKORATİV-TƏTBİQİ SƏNƏT NÖVLƏRİ

21. Qədim dünyanın keramika sənəti
22. Keramika üzərində rəngkarlıq
23. Metalın bədii emal üsulları
24. Zərgərlik sənəti
25. Dünyanın təsviri sənət xəzinəsi




## 21. QƏDİM DÜNYANIN KERAMİKA SƏNƏTİ

| | |
|---|---|
| **Məşğələ növü:** | yapma |
| **Alt-standart:** | 1.1.1; 1.2.2; 2.1.2; 2.2.1. |
| **Təlim nəticələri:**<br>• müxtəlif dövrlərdə dulusçuluğun cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir;<br>• keramika sənətinin xarakterik xüsusiyyətlərini şərh edir;<br>• sadə məişət əşyasının real və abstrakt şəkildə yapılmasında plastilin, gil və ya duzlu xəmirdən istifadə edir;<br>• yapılmış məişət əşyası üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | |
| **Təchizat:** | dərslik, plastilin, gil və ya duzlu xəmir, plastik lövhə, heykəltəraş bıçaqları (steklər). |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***
*Mövzuda şagirdlər gildən qabların necə hazırlaması, keramik qabların hansı məqsədlər üçün istifadə olunması, dulusçuluq sənətinin nə vaxt və necə yaranıb inkişaf etməsi haqqında öyrənəcəklər.*

Müəllim şagirdlərə aşağıdakı sualı verə bilər:
– Dulusçuların yapma üsulu ilə hazırladıqları qabların materialı, sobada bişirdikləri məmulatlar necə adlanır?
Sonra müəllim izahat verir:
– Dulusçuluq – çox qədim tarixə malik xalq sənətkarlığı növlərindən biridir.

Tədqiqat sualı: **Keramika sənəti haqqında nə bilirsiniz? Hər hansı bir sadə məişət əşyasını hansı ardıcıllıqla yapmaq və hansı usulla bəzəmək olar?**

Şagirdlərə mövzunu mənimsətmək üçün İQS üsulundan istifadə etmək olar. Bunun üçün onlara dərslikdə olan mətnin üzərində karandaşla işləmək məsləhət görülür. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓" – bilirəm, "+" – yeni informasiyadır, "?"– anlamadım). Oxuyub qurtardıqdan sonra müəllim deyə bilər:



LAYİHƏ

– İndi işarələmə cədvəli tutun. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəldə sistemləşdirin.

| "✓" – bilirəm | "+" – yeni informasiyadır | "?" – anlamadım |
|---|---|---|
| | | |

Oxuyub qurtardıqdan sonra şagirdlər yoldaşları ilə cütlükdə mətni müzakirə edə bilərlər. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra onların anlamadığı fikirləri müəllim müzakirə vasitəsilə izah etməlidir. Onlara sual vermək olar:

– Keramikanın hansı növləri ilə tanışsan?
– Keramikanı daha harada tətbiq etmək mümkündür?

Şagirdlər cütlükdə müəllimin verdiyi tapşırığı yerinə yetirirlər. Bunun üçün məişətdə vacib sayılan, eyni zamanda sadə formalı məişət əşyası yapırlar. Onun yaraşıqlı görünməsi üçün qabı dərslikdə nümunədə verilən ornamentlərlə bəzəyir, yaxud üzərini cızır və ya yazı yazırlar. Müəllim xatırladır ki, təkcə ənənəvi naxışlara – nəbati və ya həndəsi naxışlara üstünlük verməsinlər, həmçinin süjetli rəsmlərdən, atalar sözlərindən istifadə etsinlər. Milli mövzulu rəsmlər də diqqətdən kənarda qalmamalıdır.

Şagirdlər cütlükdə işlərini görən zaman müəllim partalar arasında gəzib məsləhət verə bilər. Bitirdikdən sonra işlərini yazı lövhəsinin qarşısına düzürlər. Müəllim şagirdlərlə birlikdə suallar, təriflər, təkliflər üsulundan istifadə edib işləri təhlil edir.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdləri təlim nəticələri yüksək olan şagirdlərlə birgə fəaliyyətə cəlb etmək məqsədəuyğundur.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Məişət əşyası düzəldərək üzərini həndəsi və ya nəbati naxışlarla bəzəmək. |
| Orta | Məişət əşyası düzəldərək üzərini süjetli rəsmlə bəzəmək. |
| Yüksək | Məişət əşyası düzəldərək üzərinə atalar sözləri yazmaq. |

**Yaradıcı tətbiqetmə**

Plastilindən "Çay dəsti" düzəldib üzərini naxışlarla bəzəmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Yapma materiallarından istifadə;
- Tərtibat və dizayn bacarıqlarını nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif dövrlərdə dulusçuluğun cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh etməkdə çətinlik çəkir. | Müxtəlif dövrlərdə dulusçuluğun cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini dərslikdəki suallar əsasında şərh edir. | Müxtəlif dövrlərdə dulusçuluğun cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edərkən kiçik səhvlərə yol verir. | Müxtəlif dövrlərdə dulusçuluğun cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini sərbəst şərh edir. |
| Keramika sənətinin xarakterik xüsusiyyətlərini şərh | Keramika sənətinin xarakterik xüsusiyyətlərini müəllimin köməyi ilə şərh edir. | Keramika sənətinin xarakterik xüsusiyyətlərini çətinliklə şərh edir. | Keramika sənətinin xarakterik xüsusiyyətlərini şərh edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| etməkdə çətinlik çəkir. | | | |
| Sadə məişət əşyasının real və abstrakt şəkildə yapılmasında plastilin, gil və ya duzlu xəmirdən istifadə etməkdə çətinlik çəkir. | Sadə məişət əşyasının real və abstrakt şəkildə yapılmasında plastilin, gil və ya duzlu xəmirdən müəllimin köməyi ilə istifadə edir. | Sadə məişət əşyasının real və abstrakt şəkildə yapılmasında plastilin, gil və ya duzlu xəmirdən səliqəsiz istifadə edir. | Sadə məişət əşyasının real və abstrakt şəkildə yapılmasında plastilin, gil və ya duzlu xəmirdən istifadə edir. |
| Yapılmış məişət əşyası üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Yapılmış məişət əşyası üzərində tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Yapılmış məişət əşyası üzərində tərtibat və dizayn bacarıqlarını səliqəsiz nümayiş etdirir. | Yapılmış məişət əşyası üzərində tərtibat və dizayn bacarıqlarını sərbəst nümayiş etdirir. |

**Nə öyrəndiniz**
**Dulusçuluq** – ən qədim xalq sənətkarlığı növlərindən sayılır. Şumer sənətkarlığına məxsus **mixi yazılar** çox məşhurdur. Qədim şumerlər yazını kəşf edərək **gil lövhə** üzərində yazırdılar. Misirdə keramika məmulatlarını **naxışla** bəzəyirdilər.

## 22. KERAMİKA ÜZƏRİNDƏ RƏNGKARLIQ

| | |
|---|---|
| **Məşğələ növü:** | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | 1.2.2; 2.1.2; 2.2.1; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• qədim yunan keramikasını xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• qədim yunan keramikasına bənzər əşyaların təsvirində akvarel və quaşdan istifadə edir;<br>• təsvir etdiyi məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir;<br>• qədim yunan keramika nümunələrindəki milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, akvarel, quaş, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***
*Dulusçuluq sənəti Qədim Yunanıstanda ən maraqlı incəsənət növlərindən sayılırdı. Qədim Yunanıstanın təsviri sənəti əsasən **qab rəngkarlığı** ilə təmsil olunurdu. Ən qədim üslub **həndəsi üslub** hesab edilirdi. Sonralar **qarafiqurlu üslub** meydana gəldi. Ən nəfis və mükəmməl üslub – **qırmızıfiqurlu üslub** sayılır.*

Müəllim mövzunun əvvəlində olan sualı verir:
– Qədim Yunanıstanda Olimpiya Oyunlarında qalibə verilən hədiyyə nə idi və o, hansı materialdan hazırlanırdı?



LAYİHƏ

**Tədqiqat sualı: Qədim dünyanın keramika sənətinin özünəməxsus xüsusiyyətləri nədədir? Qədim Yunan keramikasına bənzər əşyanı və ya natürmortu hansı ardıcıllıqla çəkmək, bəzəmək olar?**

Şagirdlər mövzu ilə tanış olurlar. Sonra müzakirə üçün suallar verilir:

– Qarafiqurlu üslub nə zaman və harada mövcud olmuş və inkişaf etmişdir?
– Qırmızıfiqurlu üslub nə üçün başqa üslublardan daha mükəmməl hesab edilir?
– Qədim yunan sənətkarları qabı hansı ornamentlərlə bəzəyirdi?

Müzakirədən sonra şagirdlər qruplarda rəsm çəkməyə başlaya bilərlər. Onları 6 qrupa ayırmaq olar. *1, 2 və 3-cü qruplar* qədim yunan keramik qablarından ibarət natürmort çəkə bilər. Qabları bəzəyərkən dərslikdə nümunə kimi verilmiş naxışlardan istifadə edirlər. 4, *5 və 6-cı qruplar* istənilən formaya malik qab üzərində qarafiqurlu və yaxud qırmızıfiqurlu üslublarda süjet əks etdirə bilər.

***Qədim yunan vazalarının forması (silueti) və üzərini bəzəyən təsvir və naxışlar***



Müəllim şagirdlərin diqqətini yunan keramik qablarının forma və adlarına – əlavə məlumata yönəldə bilər.

*Əlavə məlumat:*

***Amfora*** – yağ və şərab saxlamaq üçün uzunsov qab.
***Krater*** – şəraba su qarışdırmaq üçün istifadə edilən qab.
***Skifos və kilih*** – şərab içmək üçün qısaayaqlı, genişturnumlu qədəhlər.
***Hidriya*** – su daşımaq və saxlamaq üçün istifadə edilən qab.
***Dinos*** – anbarlarda buğda saxlamaq üçün nəhəng ölçülü qab.

Təsviri bitirdikdən sonra şagirdlər onları yazı lövhəsinin qarşısına düzə bilərlər. Qalereya gəzintisi vasitəsilə şagirdlərə yoldaşlarının işlərini təhlil etmək məqsədəuyğundur.



LAYİHƏ

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdləri 1-ci qrupda əyləşdirmək olar. Natürmort çəkən zaman müəyyən işlər belə şagirdlərə tapşırılır.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Sadə formalı qədim yunan keramik qablarından birinin rəsmini çəkmək. |
| Orta | Qədim yunan keramikasından ibarət natürmortu nisbi dəqiqliklə çəkmək. |
| Yüksək | İstənilən formaya malik qab üzərində qarafiqurlu və yaxud qırmızıfiqurlu üslublarda süjet əks etdirmək. |

**Yaradıcı tətbiqetmə**
Qədim yunan keramik qablarından ibarət yapma düzəltmək və üzərini bəzəmək.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsvir materiallarından istifadə;
- Nümayişetdirmə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qədim yunan keramikasını xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Qədim yunan keramikasını xarakterik xüsusiyyətlərinə görə suallar əsasında şərh edir. | Qədim yunan keramikasını xarakterik xüsusiyyətlərinə görə kiçik səhvlərlə şərh edir. | Qədim yunan keramikasını xarakterik xüsusiyyətlərinə görə şərh edir. |
| Qədim yunan keramikasına bənzər əşyaların təsvirində akvarel və quaşdan istifadə etməkdə çətinlik çəkir. | Qədim yunan keramikasına bənzər əşyaların təsvirində akvarel və quaşdan müəllimin köməyi ilə istifadə edir. | Qədim yunan keramikasına bənzər əşyaların təsvirində akvarel və quaşdan səliqəsiz istifadə edir. | Qədim yunan keramikasına bənzər əşyaların təsvirində akvarel və quaşdan düzgün istifadə edir. |
| Təsvir etdiyi məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqlarını nümayiş etdirməkdə çətinlik çəkir. | Təsvir etdiyi məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Təsvir etdiyi məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqlarını sadə şəkildə nümayiş etdirir. | Təsvir etdiyi məişət əşyaları üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. |
| Qədim yunan keramika nümunələrindəki milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Qədim yunan keramika nümunələrindəki milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) suallar əsasında estetik münasibət bildirir. | Qədim yunan keramika nümunələrindəki milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) kiçik səhvlərə yol verməklə estetik münasibət bildirir. | Qədim yunan keramika nümunələrindəki milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |



LAYİHƏ

**Nə öyrəndiniz**
Qədim yunan dulusçuluq sənətində üç **keramik** qab rəngkarlığı mövcud idi. Ən qədim üslub – **həndəsi idi.** ən nəfis və mükəmməl üslub – **qırmızıfiqurlu** idi. Dulusçu dəzgahında formalaşan qablar **ornament**lərlə bəzədilirdi.

## 23. METALIN BƏDİİ EMAL ÜSULLARI

| | |
|---|---|
| **Məşğələ növü:** | yapma |
| **Alt-standart:** | 1.1.1; 1.2.2; 2.1.2; 2.2.1. |
| **Təlim nəticələri:**<br>• metalın bədii emal üsullarının cəmiyyət həyatındakı rolunu şərh edir;<br>• metalın bədii emal üsullarına aid əşyaları xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• metalın bədii emal üsullarına aid əşyaların üçölçülü və ya müstəvi səth üzərində real təsvirində plastilin, gil və ya akvareldən istifadə edir;<br>• metal əşyalar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirir. | |
| **Təchizat:** | dərslik, plastilin, gil, akvarel. |

Müəllim mövzunun adını açar sözlərlə şagirdlərdən ala bilər. Bunun üçün aşağıdakı sözlərin nəyi xatırlatdığı soruşula bilər:

– Bəşəriyyət tarixində ən qədim kəşflərdən olan **metal** indiyədək həyatın müxtəlif sahələrində, o cümlədən məişətdə və hərbi sənayedə ən lazımlı materiallardan sayılır. Qədim dövrdə bu məqsədlə, əsasən, tunc, mis, gümüş və qızıldan istifadə edilirdi.




Bu metallar zərgərlik məmulatlarının, dekorativ sənət əsərlərinin və memarlıq detallarının hazırlanmasında material kimi istifadə edilirdi. Metalın bu emal sahəsi **bədii** adlanırdı.

Tədqiqat sualı: **Metalın bədii emalının insanların həyatında nə əhəmiyyəti var? Plastilindən düzəldilmiş əşyanın üzərində naxışları hansı üsullarla və necə həkk etmək olar?**

Yeni dərsi şagirdlərə mənimsətmək üçün BİBÖ cədvəlindən istifadə etmək olar. Bunu vaxta qənaət etmək üçün qruplarla deyil, kollektiv şəkildə aparmaq məsləhətdir. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsi çəkilir. 3-cü – “Öyrəndim” hissəsinə isə toxunulmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |



LAYİHƏ

Sinifdən bədii metal və onun üzərinə naxışları həkketmə yolları haqqında bildiklərini soruşub cədvəlin 1-ci – "Bilirik" hissəsinə yazmaq olar. Sonra bu haqda nə öyrənmək istədiklərini soruşub və meydana gələn sualları cədvəlin "İstəyirik bilək" hissəsinə yazmaq lazımdır.

Şagirdlər dərslikdəki məlumatla tanış olurlar. Müəllim onlardan dərslikdən nə öyrəndikləri haqda soruşur. Sonra cədvəlin 3-cü hissəsindəki "Öyrəndik" sözünü əlavə edə və oraya şagirdlərin əlavə öyrəndiklərini yaza bilər.

Şagirdlər mövzunu mənimsədikdən sonra onlara qruplarda işləmək tapşırıla bilər.

*1 və 2-ci qruplar* Azərbaycan sənətkarları tərəfindən hazırlanan mis əşyalar əsasında yapma hazırlaya bilər. Müəllim xatırlada bilər ki, müxtəlif növ ornamentlər cızmaqla forma üzərindəki naxışları da göstərmək olar.

*3 və 4-cü qruplar* Azərbaycan zərbetmə sənətinə məxsus məmulatların yaddaş əsasında natürmortunu çəkə bilər. Müəllim izah edir ki, natürmortun kompozisiya qaydalarını gözləməklə əşyalarını düzgün quruluşda yerləşdirmək lazımdır. Onları ornamentlərlə bəzəmək və akvarel texnikasında rəngləmək olar.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlərə plastilindən sadə məişət əşyası düzəldib üzərini bəzəmək tapşırıla bilər.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Plastilindən sadə məişət əşyası düzəldərək üzərini bəzəmək. |
| Orta | Mis qablardan ibarət natürmort çəkin, üzərini naxışlarla bəzəyin və akvarellə rəngləyin. |
| Yüksək | Plastilindən mürəkkəb əşya düzəltmək və üzərini cızaraq naxışlamaq. |

**Yaradıcı tətbiqetmə**

İstənilən qədim mədəniyyətə məxsus əşyaların plastilindən yapmasını düzəltmək və üzərini bəzəmək.

**Qiymətləndirmə meyarları**

- Şərhetmə;
- Təsvir materiallarından istifadə;
- Tərtibat və dizayn bacarıqları nümayişetdirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Metalın bədii emal üsullarının cəmiyyət həyatındakı rolunu şərh etməkdə çətinlik çəkir. | Metalın bədii emal üsullarının cəmiyyət həyatındakı rolunu dərslikdəki suallar əsasında şərh edir. | Metalın bədii emal üsullarının cəmiyyət həyatındakı rolunu səthi şərh edir. | Metalın bədii emal üsullarının cəmiyyət həyatındakı rolunu sərbəst şərh edir. |
| Metalın bədii emal üsullarına aid əşyaları xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Metalın bədii emal üsullarına aid əşyaları xarakterik xüsusiyyətlərinə görə sualların köməkliyi ilə şərh edir. | Metalın bədii emal üsullarına aid əşyaları xarakterik xüsusiyyətlərinə görə şərh edərkən kiçik səhvlərə yol verir. | Metalın bədii emal üsullarına aid əşyaları xarakterik xüsusiyyətlərinə görə sərbəst şərh edir. |



LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Metalın bədii emal üsullarına aid əşyaların üçölçülü və ya müstəvi səth üzərində real təsvirində plastilin, gil və ya akvareldən istifadə etməkdə çətinlik çəkir. | Metalın bədii emal üsullarına aid əşyaların üçölçülü və ya müstəvi səth üzərində real təsvirində plastilin, gil və ya akvareldən çətinliklə istifadə edir. | Metalın bədii emal üsullarına aid əşyaların üçölçülü və ya müstəvi səth üzərində real təsvirində plastilin, gil və ya akvareldən istifadə edərkən kiçik səhvlərə yol verir. | Metalın bədii emal üsullarına aid əşyaların üçölçülü və ya müstəvi səth üzərində real təsvirində plastilin, gil və ya akvareldən istifadə edir. |
| Metal əşyalar üzərində tərtibat və dizayn bacarıqları nümayiş etdirməkdə çətinlik çəkir. | Metal əşyalar üzərində tərtibat və dizayn bacarıqlarını çətinliklə nümayiş etdirir. | Metal əşyalar üzərində tərtibat və dizayn bacarıqlarını səthi nümayiş etdirir. | Metal əşyalar üzərində tərtibat və dizayn bacarıqlarını sərbəst nümayiş etdirir. |

**Nə öyrəndiniz**

İnsanların istifadə etdiyi ən qədim materiallardan biri də **metal**dır. Metalın bədii emalının ən qədim növlərindən biri də **zərbetmə**dir. Azərbaycan sənətkarları tərəfindən hazırlanan mis məmulatlar **naxışlar**la fərqlənirdi.

## 24. ZƏRGƏRLİK SƏNƏTİ

| | |
|---|---|
| **Məşğələ növü:** | dekorativ-tətbiqi fəaliyyət |
| **Alt-standart:** | 1.1.1; 1.2.2; 2.1.2. |
| **Təlim nəticələri:**<br>• zərgərlik sənətinin inkişafının cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir;<br>• dekorativ-tətbiqi sənətin zərgərlik növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir;<br>• zərgərlik məmulatlarının təsvirində rəngli karandaşlar, flomasterlər, gel qələmlərdən istifadə edir. | |
| **Təchizat:** | dərslik, sadə və rəngli karandaşlar, flomasterlər, gel qələmlər, albom, A3 və ya A4 formatlı rəsm vərəqi. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Mövzuda şagirdlər dekorativ-tətbiqi sənətin ən qədim növlərindən birinin **zərgərlik sənəti** olduğunu öyrənirlər. Keçmişdə zərgərlik məmulatlarının sehrli, özünəməxsus rəmzi mənaya malik olduğu və sahibinin cəmiyyətdəki mövqeyini bildirdiyi zənn edilirdi.*

*Şagirdlər zərgərlik sənətinin qədim dünya tarixindəki rolunu izləyəcək, Qədim Şumer, Misir, Yunanıstan, Roma və Azərbaycanın zərgərlik nümunələri ilə tanış olacaqlar.*

– Qiymətli metaldan hazırlanan bəzək əşyaları necə adlanır?

– Dekorativ-tətbiqi sənətin bu növü necə adlanır? Dekorativ-tətbiqi sənətin ən qədim növlərindən biri də **zərgərlik sənəti** sayılır.



LAYİHƏ

**Tədqiqat sualı: Dekorativ-tətbiqi sənətin zərgərlik növü hansı fərqli xüsusiyyətlərə malikdir? Belə məmulatları hansı ardıcıllıqla təsvir etmək və ya hazırlamaq olar?**

Şagirdlərə mövzunu mənimsətmək üçün İQS üsulundan istifadə etmək olar. Bunun üçün onlara dərslikdəki mətnin üzərində karandaşla işləmək məsləhət görülə bilər. Onlar mətni fərdi şəkildə oxuyurlar. İşarələr yazı lövhəsindən asılır ("✓"–bilirəm, "+"– yeni informasiyadır, "?"– anlamadım). Oxuyub qurtardıqdan sonra müəllim deyə bilər:

– İndi işarələmə cədvəli çəkin. Bildikləriniz, yeni və anlamadığınız informasiyaları cədvəldə sistemləşdirin.

| "✓" – bilirəm | "+" – yeni informasiyadır | "?" – anlamadım |
|---|---|---|
| | | |

Oxuyub qurtardıqdan sonra şagirdlər cütlükdə mətni müzakirə edə bilərlər. Bəzi cütlüklərin fikirləri dinlənildikdən sonra onların anlamadığı fikirləri müəllim müzakirə vasitəsilə izah etməlidir.

Yüksək bədii dəyərə malik olan və qiymətli materiallardan hazırlanan zərgərlik əşyalarının hazırlanmasında müxtəlif **texniki üsullar**dan istifadə edilib.

| **Metal üzərində bədii emal üsulları** | |
|---|---|
| Zərbetmə | Məmulatın səthinə relyefli naxış və təsvirlər **zərblə vurulur.** |
| Həkketmə | Məmulatın səthində rəsm, naxış, yazı və müxtəlif təsvir itiuclu alətlərlə cızılaraq **həkk olunur.** |
| Döymə | Mexaniki emal – qızmar metal döyəcləmə vasitəsilə istənilən **formaya salınır.** |
| Tökmə | Əridilmiş metal qəlibə **tökülür** və formaya salınır. |

– Qədim dövrə məxsus zərgərlik məmulatlarında hansı təbiət motivlərini daha çox bəyəndiniz? Nə üçün?
– Məmulatın gözəlliyini hansı naxışlar daha çox bildirir?
– "Zinət əşyaları qadın gözəlliyini tamamlayır" ifadəsini necə izah etmək olar?

Müəllim şagirdlərə cütlükdə işləmək üçün tapşırıqlar verir. Hər sıradakı cütlüklərin tapşırığı müxtəlif olur.

*1-ci sıra* – istənilən zərgərlik məmulatının bir neçə eskiz variantını çəkir. Müəllim xatırladır ki, hazırlanma texnikasının xüsusiyyətlərini göstərməyə çalışsınlar. Hazırladıqları bəzəkdə hansı naxışın, daşın və formanın olacağını düşünsünlər.

*2-ci sıra* – rəngli kağızdan aplikasiya texnikasına əsasən qolbaq, toqqa və ya asmalıq hazırlayır. Müəllim təklif edir ki, "məmulatın" üzərində flomaster vasitəsilə naxış qoymaqla kompozisiyanı milli üslubda göstərməyə çalışsınlar.

*3-cü sıra* – plastilindən istənilən bəzək əşyası hazırlayır.

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlərə plastilindən və ya muncuqdan istədikləri bəzək əşyası hazırlamaq tapşırığı verilə bilər.



LAYİHƏ

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər.

| | |
|---|---|
| Zəif | Plastilindən istənilən bəzək əşyası hazırlamaq. |
| Orta | Aplikasiya texnikasında qolbaq, toqqa və ya asmalıq hazırlamaq. |
| Yüksək | İstənilən zərgərlik məmulatının eskizini çəkmək. |

**Yaradıcı tətbiqetmə**
Müxtəlif materiallardan istifadə edərək zərgərlik məmulatı fikirləşib düzəltmək.
**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsvir materiallarından istifadə (rəngli karandaşlar, flomasterlər, gel qələmlər).

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Zərgərlik sənətinin inkişafının cəmiyyət həyatındakı rolu və əhəmiyyəti haqqında məlumata malikdir. | Zərgərlik sənətinin inkişafının cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini istiqamətləndirici suallar əsasında şərh edir. | Zərgərlik sənətinin inkişafının cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini səthi şərh edir. | Zərgərlik sənətinin inkişafının cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir. |
| Dekorativ-tətbiqi sənətin zərgərlik növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh etməkdə çətinlik çəkir. | Dekorativ-tətbiqi sənətin zərgərlik növünü xarakterik xüsusiyyətlərinə görə suallar əsasında fərqləndirərək şərh edir. | Dekorativ-tətbiqi sənətin zərgərlik növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək səthi şərh edir. | Dekorativ-tətbiqi sənətin zərgərlik növünü xarakterik xüsusiyyətlərinə görə fərqləndirərək şərh edir. |
| Zərgərlik məmulatlarının təsvirində rəngli karandaşlar, flomasterlər, gel qələmlərdən istifadə etməkdə çətinlik çəkir. | Zərgərlik məmulatlarının təsvirində rəngli karandaşlar, flomasterlər, gel qələmlərdən müəllimin köməyi ilə istifadə edir. | Zərgərlik məmulatlarının təsvirində rəngli karandaşlar, flomasterlər, gel qələmlərdən səliqəsiz istifadə edir. | Zərgərlik məmulatlarının təsvirində rəngli karandaşlar, flomasterlər, gel qələmlərdən istifadə edir. |

**Nə öyrəndiniz**
**Zərgərlik sənəti** – dekorativ-tətbiqi sənətin ən qədim növlərindən biridir. Azərbaycan zərgərlik sənətində **qarasavad, xatəmkarlıq, minaçılıq** üsullarından istifadə olunur.



LAYİHƏ

## 25. DÜNYANIN TƏSVİRİ SƏNƏT XƏZİNƏSİ

| | |
|---|---|
| **Məşğələ növü:** | təsviri sənət haqqında söhbət |
| **Alt-standart:** | 1.1.1; 3.1.1. |
| **Təlim nəticələri:**<br>• muzeylərin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh edir;<br>• Luvr muzeyində nümayiş etdirilən bədii sənət əsərlərinin milli-üslubi cəhətlərinə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | |
| **Təchizat:** | dərslik, müəllim tərəfindən seçilmiş müxtəlif reproduksiyalar. |

***Təlim məqsədlərinin reallaşdırılmasına dair tövsiyələr və müəllim üçün əlavə məlumat***

*Sonuncu dərs, bir növ, ümumiləşdirici sayıla bilər. Şagirdlər bu dərsdə əsərlərin kolleksiya edilməsinin muzeylərin meydana çıxmasına səbəb olduğunu öyrənirlər. Bu dərs ili ərzində tanış olduqları qədim dünya incəsənət nümunələrinin bir neçəsinin Luvr muzeyində qorunub saxlandığını dərslikdəki şəkillər vasitəsilə və dərsin sonunda verilmiş internet saytı ilə virtual görürlər. Luvr – dünyanın ən məşhur muzeyi olmaqla yanaşı, həm də memarlıq abidəsi və Fransa krallarının sarayıdır. Parisin və bütün dünyanın tarixində bu muzeyin əhəmiyyəti olduqca böyükdür. Yerli əhali Luvru Fransa mədəniyyətinin simvolu kimi qəbul edir.*

Müəllim şagirdlərə aşağıdakı sualı verə bilər:

– Dünya təsviri sənət inciləri harada qorunur və nümayiş etdirilir?

Tədqiqat sualı: **Muzeylər ölkə, xalq və insanlar üçün nə kimi əhəmiyyətə malikdir? Burada saxlanılan və nümayiş etdirilən sənət əsərləri bizə nədən xəbər verir?**

Şagirdlər dərslikdəki mövzu ilə tanış olurlar. Sonra müzakirə üçün müəllim suallar verir:

– "Muzey" sözü nə deməkdir?
– Luvrun kolleksiyasında sənə tanış olan hansı ölkələrin eksponatları cəmlənir?
– Onlardan hansı səni daha çox cəlb edir və niyə? Muzeylər kimlər tərəfindən yaradılmışdır? Muzeylərin mövcudluğu nəyi bildirir?




Mövzunu "fasiləli oxu" üsulu ilə də vermək mümkündür. Hər hissədən əvvəl və sonra şagirdlərə suallarla müraciət etmək olar və beləliklə, mövzu hissə-hissə mənimsənilər. Müəllim mövzunun müzakirəsindən sonra bütün sinfə tapşırıqlar verir:

– 6-cı sinifdə tanış olduğunuz və Luvrda yerləşən incəsənət əsərlərinin adını sadalayın.



LAYİHƏ

– Tədris ili ərzində nələri öyrəndiklərinizi yada salın, hər bir əsərə baxaraq mənimsədiyiniz bilikləri tətbiq edin.

Ümumiləşmə aparmaq üçün müəllim dəyirmi masa (karusel) üsulundan istifadə edə bilər. Dörd vərəq götürüb onların hərəsinə yuxarıda verilən suallardan birini yaza bilər.

Bu suallar yazılan vərəqlər dörd qrup arasında fırlanır. Qruplar növbə ilə onlara cavab yazır.

Aşağıdakı saytlara daxil olmaqla virtual Luvr muzeyi ilə tanış olmaq olar:
http://www.louvre.fr/
http://louvre.historic.ru/

*Diferensial təlim.* Xüsusi qayğıya ehtiyacı olan şagirdlərə tanıdıqları muzeylər haqqında esse yazmaq tapşırığı verilə bilər.

Müəllim şagirdlərə tapşırıq verərkən diferensial təlim prinsiplərini əsas götürməlidir. Şagirdlərə təlim nəticələrinə uyğun olaraq aşağıdakı tapşırıqlar verilə bilər:

| | |
|---|---|
| Zəif | Sizə tanış olan dünya və ya Azərbaycan muzeyləri haqqında esse yazın. |
| Orta | Luvr muzeyi haqqında məlumat hazırlayın. |
| Yüksək | Məşhur muzeylər haqqında təqdimat hazırlayın. |

**Yaradıcı tətbiqetmə**
Luvr muzeyinin eksponatları haqqında əlavə məlumat topla.

**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Dəyərləndirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Muzeylərin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini şərh etməkdə çətinlik çəkir. | Muzeylərin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini suallar əsasında şərh edir. | Muzeylərin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini səthi şərh edir. | Muzeylərin cəmiyyət həyatındakı rolunu və əhəmiyyətini sərbəst şərh edir. |
| Luvr muzeyində nümayiş etdirilən bədii sənət əsərlərinin milli-üslubi cəhətlərinə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Luvr muzeyində nümayiş etdirilən bədii sənət əsərlərinin milli-üslubi cəhətlərinə (obraz, obyekt və hadisələr) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Luvr muzeyində nümayiş etdirilən bədii sənət əsərlərinin milli-üslubi cəhətlərinə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirərkən kiçik səhvlərə yol verir. | Luvr muzeyində nümayiş etdirilən bədii sənət əsərlərinin milli-üslubi cəhətlərinə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |



LAYİHƏ

**Nə öyrəndiniz**
Muzeylərin meydana gəlməsinə əsərlərin şəxsi **kolleksiyalar**da toplanması səbəb oldu. Luvrun kolleksiyası özündə 400 min **eksponatı** cəmləşdirir. **Luvr** – Fransa mədəniyyətinin simvolu sayılır.

---

**Kiçik summativ qiymətləndirmə** (KSQ № 6) nümunəsi vəsaitin sonunda verilmişdir.

---

### Ümumiləşdirici dərs və onun təşkili

Ümumiləşdirici dərsin əsas didaktik məqsədi – mövzuların tədrisi zamanı əldə edilən biliklərin sistemləşdirilməsi və möhkəmləndirilməsidir. Belə dərslər biliklərin daha da dərinləşdirilməsinə və nəzərdə tutulmuş bacarıqların təkmilləşdirilməsinə yardım edir. Ümumi sorğu keçirməklə şagirdlərin çətinlik çəkdikləri mövzuları və nisbətən zəif reallaşdırılmış standartları müəyyən etmək olar. Bu zaman dərsi şagirdlərin zəif cəhətlərinin aradan qaldırılması istiqamətində qurmaq məqsədəuyğundur.

---

# Gündəlik planlaşdırmaya dair dərs nümunələri

## 1. İNSAN VƏ TƏSVİRİ SƏNƏT

<table>
<tr><td>Məşğələ növü:</td><td colspan="2">mövzu üzrə rəsm</td></tr>
<tr><td>Alt-standart:</td><td colspan="2">1.1.1; 1.2.1; 2.1.2; 3.1.1.</td></tr>
<tr><td colspan="3">Təlim nəticələri:<br>• təsviri sənətin cəmiyyət həyatındakı rolunu nümunələr əsasında şərh edir;<br>• təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə şərh edir;<br>• həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomasterlər, pastel təbaşirlər və sulu boyalardan istifadə edir;<br>• təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) estetik münasibət bildirir.</td></tr>
<tr><td>Dərsin tipi:</td><td colspan="2">deduktiv</td></tr>
<tr><td>Fənlərarası inteqrasiya:</td><td colspan="2">T. – 1.1.2; İnf. – 1.2.1; X-d. – 2.1.3.</td></tr>
<tr><td rowspan="2">İstifadə olunan</td><td>iş formaları</td><td>qrup işi, kollektiv iş, fərdi iş</td></tr>
<tr><td>üsullar</td><td>BİBÖ, müzakirə</td></tr>
<tr><td>Təchizat:</td><td>müəllim üçün</td><td>dərslik, metodik vəsait, qiymətləndirmə cədvəli, əyani vəsait</td></tr>
<tr><td></td><td>şagird üçün</td><td>dərslik, flomaster, pastel təbaşirlər, akvarel, quaş, albom, A3 və ya A4 formatlı rəsm vərəqi</td></tr>
</table>



LAYİHƏ

**Dərsin gedişi / Motivasiya**

Müəllim şagirdləri qruplara ayırmaq üçün təsviri incəsənətin növlərini yazı lövhəsində yazır: rəngkarlıq, qrafika, heykəltəraşlıq, dekorativ-tətbiqi sənət, memarlıq.




Sonra şagirdlərdən soruşur:

– Bu sözlər sizə nəyi xatırladır? (*təsviri incəsənəti, onun növlərini*)
  Daha sonra müəllim izahat verir:
– Bizim bugünkü dərsimiz təsviri sənətin insanın həyatında roludur.
– İnsan nə vaxtdan rəsm çəkir, gildən fiqurlar yapır və özünə yurd tikir? Bu fəaliyyətlər necə adlanır? (*fərziyyələr*)

Bu ilk dərs olduğu üçün müəllim təsviri sənətin növləri haqqında diaqnostik qiymətləndirmə apara bilər.

Lövhədə tədqiqat sualı və şagirdlərin fərziyyələri yazılır.

**Tədqiqat sualı: Təsviri sənətin insanın həyatında rolunu nədə görürsünüz? Təsviri sənətlə rastlaşdığınız məkana aid rəsmi necə çəkmək olar?**

**Tədqiqatın aparılması**

Yeni dərsi şagirdlərə mənimsətmək üçün BİBÖ cədvəlindən istifadə etmək olar. Bunu vaxta qənaət etmək üçün qruplarla deyil, kollektiv şəkildə aparmaq məsləhətdir. Yazı lövhəsində cədvəlin öncə BİB hissəsi çəkilir. 3-cü "Öyrəndik" hissəsinə isə toxunulmur.

| Bilirik | İstəyirik bilək | Öyrəndik |
|---|---|---|
| | | |

Şagirdlərdən təsviri incəsənətin insan həyatında rolu, onun növləri haqqında bildiklərini soruşub cədvəlin "Bilirik" sütununa yazmağı xahiş etmək olar. Sonra bu haqda nə öyrənmək istədiklərini və yaranan sualları şagirdlər cədvəlin "İstəyirik bilək" hissəsinə yazırlar.

Şagirdlər dərslikdəki məlumatla tanış olur, öyrəndiklərini cədvəlin 3-cü hissəsində yazılan "Öyrəndik" hissəsinə əlavə edirlər.

Şagirdlər mövzu ilə tanış olduqdan sonra hər qrupa təsviri sənət növlərini bir-biri ilə müqayisə etmək tapşırığı verilir. Bu onlara təsviri incəsənətin növlərini daha dərindən mənimsəməyə kömək edər.



LAYİHƏ




1-ci qrup




2-ci qrup




3-cü qrup




4-cü qrup

Şagirdlər təsviri sənətin növlərini təhlil etdikdən sonra qruplarda gündəlik həyatlarında təsviri sənətlə harada rastlaşdıqlarını düşünür və çəkirlər. Çəkdikdən sonra sulu boya ilə rəngləyirlər. Müəllim dərsin sonunda şagirdlərin ***qrup fəaliyyətinin qiymətləndiriləcəyini*** xatırladır.

**Məlumat mübadiləsi**

Qruplar təsvir etdiklərini təqdim edir.

**Məlumatın müzakirəsi və təşkili**

– Təsviri sənətin növlərini sadalayın. Onların arasında ümumi nə var? Onlar insanların həyatında təyinatına görə necə fərqlənir?
– Siz həyatınızda təsviri sənətlə harada qarşılaşırsınız?

**Ümumiləşdirmə və nəticə**

– Memarın işi nədən ibarətdir?
– Təsviri sənətin hər bir növünün təsvir və ifadə vasitələri nədir?
– Rəssam kimə deyilir?

**Yaradıcı tətbiqetmə**

Birinci dərs olduğu üçün müəllim şagirdlərə yay tətili təəssüratlarını çəkməyi tapşıra bilər.

**Qiymətləndirmə**

***Qrup fəaliyyətinin qiymətləndirilməsi** aparılır. Müəllim özü meyarlar üzrə qrup qiymətləndirməsini həyata keçirə bilər.*

| Qruplar | MEYARLAR | | | | | |
|---|---|---|---|---|---|---|
| | Dinləyir | Əməkdaşlıq edir | Tapşırığı tam və müvafiq şəkildə yerinə yetirir | Tərtibat | Vaxtında yerinə yetirir | Nəticə |
| I | | | | | | |
| II | | | | | | |
| III | | | | | | |
| IV | | | | | | |



LAYİHƏ

**Qiymətləndirmə meyarları:**

- Şərhetmə;
- Təsvir materiallarından istifadə;
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təsviri cəmiyyət həyatındakı rolunu nümunələr əsasında şərh etməkdə çətinlik çəkir. щ | Təsviri sənətin cəmiyyət həyatındakı rolunu müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin cəmiyyət həyatındakı rolunu nümunələr əsasında şərh edərkən kiçik səhvlərə yol verir. | Təsviri sənətin cəmiyyət həyatındakı rolunu nümunələr əsasında şərh edir. |
| Təsviri sənətin növlərini fərqləndirməkdə və xarakterik xüsusiyyətlərinə görə şərh etməkdə çətinlik çəkir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə müəllimin köməyi ilə şərh edir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə səthi şərh edir. | Təsviri sənətin növlərini fərqləndirir və xarakterik xüsusiyyətlərinə görə tam şərh edir. |
| Həyati görüntülərin real təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyaların istifadəsində çətinlik çəkir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər, sulu boyalardan müəllimin köməyi ilə istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyalardan səliqəsiz istifadə edir. | Həyati görüntülərin real və ya abstrakt təsvirində sadə karandaş, flomaster, pastel təbaşirlər və sulu boyalardan istifadə edir. |
| Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) estetik münasibət bildirməkdə çətinlik çəkir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) səthi estetik münasibət bildirir. | Təsviri sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt, hadisə və naxışlar) estetik münasibət bildirir. |



LAYİHƏ

# 12. TİKİLİLƏRDƏ FORMA VƏ KONSTRUKSİYA

| | | |
|---|---|---|
| **Məşğələ növü:** | mövzu üzrə rəsm | |
| **Alt-standart:** | 1.1.1; 2.1.2; 3.1.1. | |
| **Təlim nəticələri:**<br>• memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini şərh edir;<br>• Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvani və onun əsərləri haqqında məlumatları şərh edir;<br>• sadə həndəsi formalarda olan memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən istifadə edir;<br>• memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. | | |
| **Dərsin tipi:** | induktiv | |
| **Fənlərarası inteqrasiya:** | A-d. – 1.1.2; A.t. – 5.1.1; Tex. – 1.3.3. | |
| **İstifadə olunan** | **iş formaları** | kollektiv iş, qrup işi |
| | **üsullar** | kublaşdırma |
| **Təchizat:** | **müəllim üçün** | dərslik, metodik vəsait, qiymətləndirmə cədvəli, əyani vəsait |
| | **şagird üçün** | dərslik, akvarel, quaş, pastel təbaşirlər, A3 və ya A4 formatlı rəsm vərəqi |

## Dərsin gedişi / Motivasiya





Müəllim yazı lövhəsinə bərkidilən şəkilləri göstərib şagirdlərə sual verir:
– Təbiətdə hansı formalar mövcuddur və onlar memarlıqda necə əks olunmuşdur? (*dördbucaq, üçbucaq, dairə və s.* )
Lövhədə tədqiqat sualı və şagirdlərin fərziyyələri yazılır.

Tədqiqat sualı: **Əcəmi Əbubəkr oğlu Naxçıvani yaradıcılığının əsas xüsusiyyətləri nədir? Memarlıq abidəsini yaratmaq üçün nə etmək lazımdır?**

## Tədqiqatın aparılması

Müəllim mövzunun mənimsədilməsində kublaşdırma üsulundan istifadə edə bilər.



LAYİHƏ

Kublaşdırma mövzuya müxtəlif cəhətlərdən nəzər salmağı asanlaşdıran tədris üsuludur. Bu üsul təfəkkür və yazı üçün hər tərəfində müxtəlif qısa göstərişlər olan kubdan istifadəni nəzərdə tutur. Tili təqribən 15–20 sm olan kub kağızdan hazırlanır. Kubun tərəflərinə aşağıdakı 6 qısa göstəriş yazılır:




*1. Memarlıq abidəsi (forma, ölçü, hissələr, rəng) haqqında nə deyə bilərsiniz?(**təsvir edin**).*
*2. Onun digər tikililərdən oxşar və fərqli cəhətləri hansılardır?(**müqayisə edin**).*
*3. Bu sizi nə haqqında düşünməyə vadar edir? Nəyi xatırladır? (**əlaqələndirin, assosiasiya yaradın**).*
*4. O, hansı materialdan və necə tikilmişdir?(**təhlil edin, təsvir edin, müqayisə edin, əlaqələndirin**).*
*5. Ondan necə istifadə edə bilərsiniz?(**tətbiq edin**).*
*6. Əvvəlcədən öz mövqeyinizi müəyyən edin. İstədiyiniz kimi məntiqli, mənasız və ya ikisinin arasında olan dəlillərdən istifadə edin (**lehinə, yaxud əleyhinə müqayisə edin).** Qruplara A1 formatlı kağız (vatman) verə bilərsiniz və onlar mövzunu öyrəndikdən sonra kubun tərəflərində yazılan suallara cavab verirlər.*

Müəllim şagirdləri 6 qrupa ayıra bilər. *1 və 2-ci qruplara* Misir ehramlarının, *3 və 4-cü qruplara* Babil qülləsinin, *5 və 6-cı* qruplara Kolizeyin fotoşəklini verə bilər. *Nümunə: **Misir ehramları** haqqında.*

**1. Təsvir edin:** piramida formadan ibarətdir.
**2. Müqayisə edin:** dağa bənzəyir. Digər memarlıq tikililərindən çoxömürlülüyü, əzəməti, görünüşü, rəngi ilə fərqlənir. Dünyanın yeddi möcüzəsinə aid yeganə tikilidir ki, indiyədək qorunub saxlanılır.
**3. Assosiasiya yaradın (əlaqələndirin):** “Piramida” riyaziyyatdakı formanı xatırladır. Yunan dilində tərcümədə “çoxbucaqlı” deməkdir.
**4. Təhlil edin:** əhəng və daş bloklardan hörülüb və möhkəmdir.
**5. Tətbiq edin:** piramidaların ikili təyinatı vardır. Bir tərəfdən bu ehramlar mərhum fironun cəsədini çürüməkdən qorumalı, digər tərəfdənsə, fironun möhtəşəmliyini əbədiləşdirməli və gələcək nəsillərə onun mövcudluğu haqqında daim xatırlatmalıdır.
**6. Lehinə, yaxud əleyhinə müqayisə edin:** bu, möhtəşəm abidədir. Hamıda təəccüb və maraq doğurur. Eyfel qülləsi tikilənədək Xeops ehramı Yer üzündə ən hündür tikili sayılırdı. Amma onun tədqiq edilməsində nə qədər insan ömrünə son qoyulub.

***Qeyd:** kublaşdırma üsulu çox vaxt aparарsa, onu BİBÖ ilə əvəz etmək olar.*

Yazı müddəti bitdikdən sonra şagirdlər kubun hər üzünə dair öz fikirlərini bölüşə bilərlər. Sonra təsvir üçün tapşırıqlar verilir. *1 və 2-ci qruplar* istənilən memarlıq tikilisinin forma və quruluşunu (konstruksiyasını) nəzərə alaraq layihə hazırlayırlar. Tapşırığı yerinə yetirərkən təbiət formalarına əsaslanmağı xatırlatmaq olar. Ümumi görünüşdən başqa, tikilini yan və yuxarı tərəfdən göstərməyə də çalışmaq lazımdır. *3*



LAYİHƏ

*və 4-cü qruplar* konstruksiyasına görə təbiət formalarına malik olan məişət əşyası çəkə bilər. *5 və 6-cı qruplar* müxtəlif həndəsi cisimlərdən istifadə edərək qeyri-adi tikili yarada bilər.

***Müəllim üçün əlavə məlumat:***

Yer kürəsində maraqlı və zəngin mədəniyyətə malik müxtəlif xalqlar yaşayır. Dünya xalqlarının incəsənət inciləri ilə sadəcə tanış olmaq yox, həm də bəşər tarixində silinməz izlər buraxmış **sivilizasiyanın incəsənət** və **mədəniyyətlərini**, həmin mədəniyyətlərin özünəməxsusluğunu və səciyyəvi qanunauyğunluqlarını anlamaq vacibdir.

Dünya mədəniyyətlərinin sonrakı inkişafına və müasir mədəniyyətə təsir göstərmiş qədim mədəniyyətlər mövcud olmuşdur. İlk rəssamların heyranedici mağara yazıları, Qədim Misirin möhtəşəm ehram və sirli sfinksləri, Mesopotamiyada şumer salnamələri, nəfis qədim yunan heykəlləri, Qədim Romaya məxsus ülviləşdirilmiş, mükəmməl gözəllik nümunələri olan memarlıq tikililəri – mühəndis xəyalının zirvəsi hesab edilir.

***Sivilizasiya*** (lat. “civilis*”*– “dövlət, cəmiyyət və ictimaiyyət” deməkdir) – cəmiyyətin maddi və mənəvi inkişaf səviyyəsi.

***Mədəniyyət*** (lat. “cultura*” – ruhun maarif və tərbiyələnməsi* deməkdir) – insan cəmiyyətinin sənaye, sosial və mənəvi nailiyyətləri.

***İncəsənət*** — yaradıcılıq forması; insanın hissetmə ifadə vasitələri ilə (səs, bədən plastikası, təsvir, rənglər və s.) mənəvi cəhətdən özünü təsdiq etməsi.

Müəllim xatırladır ki, şagirdlər ***qrupun özünüqiymətləndirmə cədvəli****ndən istifadə edəcəklər.*

**Məlumat mübadiləsi**

Qruplar təsvir etdiklərini təqdim edir.

**Məlumatın müzakirəsi və təşkili**

– Formanın əsasında nə durur? Nümunələr göstərin.
– İnsanlar tərəfindən yaradılmış formalı əşyalara hansı amillər təsir göstərir? Formanın xarici dizaynına dair nümunə göstərin və bunun nə ilə əlaqədar olduğunu təhlil edin.

**Ümumiləşdirmə və nəticə**

– Memarlıqla heykəltəraşlığın fərqi nədir? Hansı memarlıq abidələrini tanıyırsınız?

**Yaradıcı tətbiqetmə**

Memarlıq abidəsinin konstruksiyasını düzəldir.

**Qiymətləndirmə**

***Qrupun özünüqiymətləndirmə cədvəlindən*** *istifadə edərək şagirdlər öz qruplarını qiymətləndirirlər.*

| № | MEYARLAR | Əla | Yaxşı | Orta | Zəif |
|---|---|---|---|---|---|
| 1. | Memarlığın cəmiyyət həyatındakı rolunu şərh edə bilirik. | | | | |



LAYİHƏ

| | | | | | |
|---|---|---|---|---|---|
| 2. | Memarlıq abidələrinin real və abstrakt təsvirində pastel təbaşirlər, sulu boyalardan istifadə edə bilirik. | | | | |
| 3. | Bədii sənət əsərlərində milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildiririk. | | | | |
| 4. | Təsviri tapşırılan vaxt ərzində yerinə yetirmişik. | | | | |

**Qiymətləndirmə meyarları**
- Şərhetmə;
- Təsvir materiallarından istifadəetmə (akvarel, quaş, pastel təbaşirlər);
- Münasibətbildirmə.

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini çətinliklə şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini müəllimin köməyi ilə şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini suallar əsasında şərh edir. | Memarlığın cəmiyyət həyatında rolunu və əhəmiyyətini şərh edir. |
| Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvani və onun əsərləri haqqında məlumatları çətinliklə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvani və onun əsərləri haqqında məlumatları müəllimin köməyi ilə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvani və onun əsərləri haqqında məlumatları kiçik səhvlərə yol verməklə şərh edir. | Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvani və onun əsərləri haqqında məlumatları şərh edir. |
| Sadə həndəsi formalarda olan memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən çətinliklə istifadə edir. | Sadə həndəsi formalarda olan memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən müəllimin köməyi ilə istifadə edir. | Sadə həndəsi formalarda olan memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən səliqəsiz istifadə edir. | Sadə həndəsi formalarda olan memarlıq abidələrinin real və abstrakt təsvirində akvarel, quaş, pastel təbaşirlərdən istifadə edir. |
| Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) çətinliklə estetik münasibət bildirir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) müəllimin köməyi ilə estetik münasibət bildirir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) səthi şəkildə estetik münasibət bildirir. | Memarlıq abidəsində forma və konstruksiya müxtəlifliyinə, milli-üslubi cəhətlərə (obraz, obyekt və hadisələr) estetik münasibət bildirir. |

**Nə öyrəndiniz**
Memarlıq tikililəri müxtəlif **forma** və **konstruksiya**ya malikdir. Mesopotamiyada Şumer memarlığına xas olan pilləli məbəd **zikkurat** adlanır. Pilləkəni əvəz edən maili səthə **pandus** deyilir.



LAYİHƏ

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №1)

Ad______________Soyad____________________Sinif________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | … |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | … |
| | Qrafika (xətt) | | | | | | | | | | |
| | Fantastik rəsm | | | | | | | | | | |
| | Qeyri-adi obrazlar | | | | | | | | | | |
| | Orijinallıq | | | | | | | | | | |
| | | | | | | | | | | | … |

**1. Təsviri sənət növləri bunlardır:**
a) rəngkarlıq, natürmort, mənzərə
b) qrafika, rəngkarlıq, heykəltəraşlıq
c) heykəltəraşlıq, qrafika, portret

**2. Qravüra — çap qrafikasıdır:**
a) çox nüsxədə
b) tək şəkildə
c) üç nüsxədə

**3. Tikililəri qurma sənəti:**
a) memarlıq b) qrafika c) keramika

**4. Qaralama – rəsmin növüdür:**
a) elmi b) uzunmüddətli
c) qısamüddətli

**5. Təsvir qaydalarının öyrənilməsi üçün çəkilmiş rəsm belə adlanır:**
a) qaralama b) tədris c) eskiz

**6. Qrafikanın növü:**
a) qravüra b) dizayn c) portret

**7. Litoqrafiya – çap qrafikasıdır:**
a) metal üzərində b) linoleumda
c) daş üzərində

**8. Qravürün növləri:**
a) mənzərə, natürmort b) ofort, ksiloqrafiya c) rəngkarlıq, qrafika

**9. Albrext Dürer:**
a) heykəltəraş b) qrafik c) memar

**10. Monoqram nədir?**
a) işarə b) əsər
c) heykəl

**11. Yaradıcı tapşırıq.** Qrafika növündə fantastik bir rəsm çəkin. Bu, qeyri-adi canlanmış əşyalar, nəqliyyat, heyvanlar və ya şəhər ola bilər. Xətlər vasitəsilə sadə karandaş və flomasterlə işləyin. Rəsmdə maraqlı obrazlar yaratmağa çalışın, ümumi kompozisiyanın bütövlüyünü nəzərə alın.



LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №2)

Ad______________Soyad_____________________Sinif_________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | ... |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | ... |
| | Kolorit | | | | | | | | | | |
| | Orijinal məzmun | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | |
| | | | | | | | | | | | ... |

1. **Rəng dairəsində iştirak etməyən rənglər:**
a) ağ b) narıncı c) bənövşəyi

**2. Rənglər haqqında elm adlanır:**
a) rəngkarlıq b) rəngşünaslıq
c) rəngarənglik

**3. Soyuq rəngləri qeyd edin:**



a) b) c)

**4. Spektr nədir?**
a) rəngsiz xətlər
b) rəngarəng ləkələr
c) yeddirəngli zolaq

**5. Əşyanın əsas öz rəngi necə adlanır?**
a) kontrast b) lokal c) kolorit

**6. Miniatür – təsvirdir:**
a) iri ölçüdə b) kiçik ölçüdə
c) daş üzərində

**7. Miniatürün növləri bunlardır:**
a) cilalı, portret b) natürmort, mənzərə c) qrafika, rəngkarlıq

**8. Təbriz miniatür məktəbinin nümayəndəsi:**
a) Vəcihə Səmədova b) Sadiq bəy Əfşar c) heç biri

**9. Petroqlif – təsvirdir:**
a) qayalar üzərində b) keçə üzərində c) kağız üzərində

**10. Rəssam əsərlərində kolorit nədir?**
a) rəng nisbəti b) rəng kontrastı
c) rəng uyğunluğu

**11. Yaradıcı tapşırıq.** Quaş və ya akvareldən istifadə edərək istədiyiniz rəsmi çəkin. Rəsminizi soyuq, yaxud isti koloritdə çəkin. Orijinal məzmun fikirləşin, boyalarla səliqəli rəngləyin.



LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №3)

Ad______________Soyad____________________Sinif________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | ... |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | ... |
| | Küçə və ya şəhər mənzərəsi | | | | | | | | | | |
| | Heykəl | | | | | | | | | | |
| | Materialın rəngi | | | | | | | | | | |
| | Orijinal məzmun | | | | | | | | | | |
| | | | | | | | | | | | ... |

**1. Heykəltəraşlığın iki növü mövcuddur:**
a) barelyef və qorelyef
b) tors və büst
c) dəyirmi və relyef

**2. Təsviri sənətin hansı növündə insan əsas təsvir obyekti sayılır və üçölçülü formaya malikdir?**
a) portret b) heykəl
c) heykəltəraşlıq

**3. Heykəltəraşlığa aiddir:**
a) büst b) abidə c) fasad

**4. Kiçik heykəltəraşlıq nümunəsi adlanır:**
a) statuya b) statuyetka c) büst

**5. Baş, əl və ayaqlar istisna olmaqla, insan bədəninin təsviri adlanır:**
a) büst b) relyef c) tors

**6. İnsanın sinəyədək olan heykəli adlanır:**
a) büst b) relyef c) tors

**7. Səth üzərində yarıdan az qabardılan heykəltəraşlıq növü:**
a) relyef b) qorelyef c) barelyef

**8. Səth üzərində yarıdan çox qabardılan heykəltəraşlıq növü:**
a) relyef b) qorelyef c) barelyef

**9. Heykəltəraşlığa xarakterik olan janr:**
a) natürmort b) mənzərə
c) portret

**10. İki və daha çox fiqur adlanır:**
a) heykəl b) relyef
c) heykəllər qrupu

**11. Yaradıcı tapşırıq.** Küçə və şəhər mənzərəsində heykəl nümunələri çəkin. Heykəlin insan və ya heyvan olacağına özünüz qərar verin. Heykəlin yerləşdiyi məkanı kompozisiyanızın mərkəzində yerləşdirin, onun hansı materialdan olduğunu rəng vasitəsilə göstərin. Oijinal məzmun fikirləşin.

LAYİHƏ

# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №4)

Ad____________Soyad__________________Sinif________Tarix___________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | ... |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | ... |
| | Məbəd | | | | | | | | | | |
| | Forma | | | | | | | | | | |
| | Konstruksiya | | | | | | | | | | |
| | Landşafta uyğunluq | | | | | | | | | | |
| | | | | | | | | | | | ... |

**1. Forma görünüşdür:**
a) ümumi b) qarşıdan c) yuxarıdan

**2. Konstruksiya nədir?**
a) layihə b) quruluş c) uzunluq

**3. Zikkurat – mərtəbəli...**
a) məbəddir b) evdir c) abidədir

**4. Yer səthinin sahəsi:**
a) məscid b) landşaft c) binalar

**5. Memar Əcəminin əsəridir:**
a) Babil qülləsi b) Kolizey
c) Yusif ibn Küseyir türbəsi

**6. Ornament nədir?**
a) yarpaqların düzümü b) güllərin çələngi c) naxışların təkrarı

**7. Zoomorf ornamenti təşkil edir:**
a) çiçəklər b) fiqurlar c) heyvanlar

**8. Korinf kapitelinin görünüşü:**
a) yarpaqlı b) yarpaqsız c) çiçəkli

**9. Azərbaycanın Naxçıvan memarlıq məktəbinin nümunəsidir:**
a) Qız qalası b) Bibi heybət məscidi
c) Möminə xatın türbəsi

**10. Hansı kapitel iri, nəhəng və sadədir?**
a) ionik b) dorik c) korinf

**11. Yaradıcı tapşırıq.** Məbəd fikirləşin və çəkin. Formasını, konstruksiyasını göstərməyə çalışın. Onu sütunlarla bəzəyin. Məbədi landşafta uyğunlaşdırın, ümumi yaşıllıq ahəngi yaradın.



LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №5)

Ad______________Soyad____________________Sinif________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | … |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | … |
| | Janr | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | |
| | Səliqəli işləmə | | | | | | | | | | |
| | Orijinal məzmun | | | | | | | | | | |
| | | | | | | | | | | | … |

**1. Əşyalar aləminin təsviri:**
a) natürmort b) mənzərə c) portret

**2. Rəssam əsərinin məzmunu:**
a) janr b) növ c) üslub

**3. İnsanın cəmiyyətdə tutduğu mövqeyi əks etdirən portretlər:**
a) təntənəli b) kameral c) qrup

**4. İnsanın fərdi xüsusiyyətlərini vurğulayan portret:**
a) təntənəli b) kameral c) qrup

**5. Təbiətin təsviri adlanır:**
a) portret b) mənzərə c) natürmort

**6. İtalyan dilində qadın obrazı:**
a) Ana b) Mona Liza c) Madonna

**7. "Qadın gözəlliyi"ni tərənnüm edən rəssam:**
a) Leonardo da Vinçi b) Rafael Santi
c) Dürer

**8. Rəngkarlıq əsəri və ya dəyirmi forma:**
a) tondo b) qorelyef c) spektr

**9. Perspektiv elmində öyrənilir:**
a) təsvir məkanının dəyişkənliyi
b) rəngin tündlüyü
c) obyektlərin hündürlüyü

**10. Hava perspektivi dəyişkənlikdir:**
a) ətrafın b) rəngin
c) formanın

**11. Yaradıcı tapşırıq.** Təsviri sənətin janrlarına aid rəsm çəkin. Bu, portret, natürmort və ya mənzərə təsviri ola bilər. Rəsmdə kompozisiyanın düzgün qurulmasını, rəng həllini göstərin. İstədiyiniz ləvazimatlarla səliqəli işləyə bilərsiniz. Rəsminiz üçün maraqlı və orijinal məzmun seçin.



LAYİHƏ

## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ (KSQ №6)

Ad______________Soyad____________________Sinif________Tarix____________

| Suallar | 1. | 2. | 3. | 4. | 5. | 6. | 7. | 8. | 9. | 10. | Ümumi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cavab variantı | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | a. | … |
| | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | b. | |
| | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | c. | |
| | | | | | | | | | | | |
| 11. Yaradıcı tapşırıq / meyarlar | Kompozisiya | | | | | | | | | | |
| | Forma | | | | | | | | | | |
| | Misgərlik nümunələri | | | | | | | | | | |
| | Natürmort | | | | | | | | | | |
| | Rəng həlli | | | | | | | | | | |
| | | | | | | | | | | | … |

| | |
|---|---|
| **1. Keramika məmulatı hazırlanır:**<br>a) şüşədən b) gildən c) metaldan | **2. Mixi yazı yaranmışdır:**<br>a) Qədim Şumerdə b) Qədim Yunanıstanda c) Qədim Romada |
| **3. Qırmızıfiqurlu qab rəngkarlığının xüsusiyyəti:**<br>a) fonu qara, təsvir qırmızı b) fonu ağ, təsvir qara c) fonu qara, təsvir ağ | **4. Qədim Yunanıstanın qab rəngkarlığı hansıdır?**<br>a) sarıfiqurlu b) qarafiqurlu<br>c) ağfiqurlu |
| **5. Meandr, çevrə, çarpaz xətlərdən ibarət olan qab rəngkarlığı:**<br>a) qırmızıfiqurlu b) qarafiqurlu<br>c) həndəsi üslublu qab | **6. QədimYunanıstanda ən geniş yayılmış amforanın materialı:**<br>a) şüşə b) keramika c) metal |
| **7. Metalın emal üsulu deyil:**<br>a) zərbetmə b) oyma c) döymə | **8. Qızılın texniki üsulu deyil:**<br>a) xatəmkarlıq b) basma c) oyma |
| **9. Leonardo da Vinçinin məşhur "Mona Liza" əsəri saxlanılır:**<br>a) Luvrda b) Topqapıda<br>c) Drezdendə | **10. Fransa mədəniyyətinin simvolu sayılır:**<br>a) ehramlar b) Luvr<br>c) İsgəndərriyyə kitabxanası |
| **11. Yaradıcı tapşırıq.** Azərbaycanın misgərlik sənətinə aid nümunələr çəkin. Natürmortda kompozisiya həllini düzgün yerinə yetirin. Qabların üzərində nəbati naxışlar çəkin. Misin rənginə uyğun onları rəngləyin. | |



LAYİHƏ

**Qeyd.** Bütün summativ qiymətləndirmə nümunələrində tövsiyə olunan tapşırıqların sayı 11-dir. İlk 10 tapşırıq şagirdin bölmədə öyrəndikləri bilik və bacarıqları qiymətləndirmək üçün tərtib olunmuşdur. Sonuncu – 11-ci tapşırıq isə şagirdin yaradıcılıq qabiliyyətlərinin qiymətləndirilməsi üçün nəzərdə tutulmuşdur. Sonuncu tapşırığın əhəmiyyəti böyük olduğuna görə şagirdin qiymətinin 50% test tapşırıqları + 50% yaradıcı tapşırıq düsturu ilə hesablanması məqsədəuyğundur.

**Müəllim qiymətləndirmə vasitələrinin hazırlanmasında aşağıdakı tapşırıq növlərindən istifadə edə bilər:**

1. **Qrafik materialın adını qeyd edin:**

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|

2. **Kompozisiya haqqında bildiklərinizi qeyd edin**:



Müəllif__________________________________

İncəsənət növü______________________________

Material__________________________________

Məzmun__________________________________

3. **Həndəsi formalardan tikili fikirləşin və çəkin.**



4. **Qəhvəyini hansı rəng qarışığından almaq olar?**





LAYİHƏ

5. **Ornament növlərini qeyd edin:**

a. 

b. 

c. 

___________________ ___________________ ___________________

6. **Rəng dairəsində isti və soyuq, əsas və qarışıq, kontrast və lokal rəngləri boyayın və qeyd edin.**



7. **Göy rəngin çalarlarını göstərin:**

| | | | |
|---|---|---|---|
| | | | |

8. **Meandr (su) naxışını çəkin:**

9. **Portretlərin müəlliflərini qeyd edin:**







___________________ ___________________ ___________________



LAYİHƏ

## MƏNBƏLƏR


1. "Ümumtəhsil məktəblərinin I–IX sinifləri üçün təsviri incəsənət fənni üzrə kurikulumlar". Bakı, 2012.
2. Y.Ş.Kərimov. "Təlim metodları". Bakı, 2007.
3. Z.Veysova. "Fəal/interaktiv təlim". Müəllimlər üçün vəsait, UNICEF, Bakı, 2007.
4. Təsviri incəsənət proqramı. Ümumtəhsil məktəblərinin I–VII sinifləri üçün. "Kövsər" nəşriyyatı, Bakı, 2007.
5. "Azərbaycan Milli Ensiklopediyası". Elmlər Akademiyası, Bakı, 2007.
6. C.Həsənzadə, E.Hacınski. "Ayna" Uşaq Ensiklopediyası. "İncəsənət. Bəşəriyyətin misilsiz sərvəti". Bakı, "Ayna Mətbu Evi", 1999.
7. R.Əfəndiyev. "Azərbaycanın daş plastikası". "İşıq" nəşriyyatı, Bakı, 1986.
8. R.Əfəndiyev "Azərbaycan xalq sənəti". "İşıq" nəşriyyatı, Bakı, 1984.
9. R.Əfəndiyev. "Azərbaycan incəsənəti". "Şərq-Qərb", Bakı, 2007.
10. R.Əfəndiyev. "Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində". "İşıq" nəşriyyatı, Baкı, 1980.
11. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". Bakı, "İşıq" nəşriyyatı, 1971.
12. Məmmədov V.S., Əmiraslanov İ.R., Nəcəfov H.N., Mirsəliyev A.A. "Naxışların yaddaşı". Azərnəşr, Bakı, 1981.
13. Hüseynov M., Bretanitski M., Salamzadə M. "Azərbaycan memarlığı tarixi". Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu.
14. "İnşaat, memarlıq və inşaat materialları ədəbiyyatı", Dövlət nəşriyyatı, Moskva, 1963.
15. C.Qiyasi. "Nizami dövrü memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1991.
16. Rzayev N., Qeybullayev Q., Rzayev Ş. "Rusca–azərbaycanca memarlıq-inşaat lüğəti", "Elm", Bakı, 1998.
17. Lətif Kərimov. "Azərbaycan xalçası". "Yazıçı ", Bakı, 1985.
18. K.Əliyeva, E.İbrahimov. "Lətif Kərimov: həyat və yaradıcılığı". "Aspoliqraf" nəşriyyatı. Bakı, 2007.
19. R.Tağıyeva. "Azərbaycan xalçası". "Şərq-Dizayn". 1999, Bakı, s.260.
20. AZERBAIJAN CARPETS. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı, s.16.
21. "Azərbaycan". Bakı, 1998, s. 416.
22. "Arxeoloji albom – Bakı, İcərişəhər", Oka Ofset, Bakı, 2002, s.112.
23. Ş.H.Sadıqzadə. "Qədim Azərbaycan bəzəkləri". "İşıq" nəşriyyatı , Bakı, 1971.
24. Ə.Salamzadə. "Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri". "İşıq" nəşriyyatı, Bakı, 1976.
25. N.Məmmədova. "Ksiloqrafiya və linoqravür", "Bakı" nəşriyyatı, Bakı, 2012, 100 s.
26. K. Kərimov. "Azərbaycan miniatürləri" , "İşıq", Bakı, 1980.
27. "Azərbaycan dilinin izahlı lüğəti", 4 cilddə. Bakı, "Şərq-Qərb", 2006.
28. "Azərbaycan dilinin orfoqrafiya lüğəti". "Lider", Bakı, 2004.
29. R.Məlikov, N.İbrahimov. "Məktəblinin tarix lüğəti". "Ayna Mətbu Evi", Bakı, 2004.
30. Автор-составитель М.Наджафов. "Живопись Азербайджанской ССР — 1960-е годы. "Советский художник", Москва, 1976 г.
31. "Эльмира Шахтахтинская". Советский художник, Москва.1981.
32. Джамиля Новрузова. "Ибрагим Зейналов". "İşıq", Bakı, 1981.
33. "Изобразительное искусство Азербайджанской ССР". "Советский художник", Москва, 1978.
42. "Çocuklar için sanat". "Tudem", Alsancaq, İzmir, 2009.
43. Durmuş Akbulut. "Resm neyi anlatır". "Etik yayınlar", İstanbul, 2011.
45. Искусство Советского Азербайджана. Живопись. Графика. Скульптура. Москва, "Советский художник".
46. Преттье М.К. и Капальдо А. "Творчество и выражение", том 2. Москва, "Советский художник", 1985.
47. "Детская энциклопедия" – том 12. Москва, издательство "Педагогика", 1977.




LAYİHƏ

48. Лавров А.М. “Школа. Учитель. Искусство”. “Просвещение”, Москва ,1981.
49. Белютин Э.М. “Основы изобразительной грамоты”. Издательство “Советская Россия”, Москва, 1961.
50. “Рисунок и живопись”, том 1. Государственное издательство “Искусство”. Москва, 1961.
51. “Энциклопедический словарь юного художника”. “Педагогика”, Москва, 1983.
52. Сокольникова Н.М., Ломов С.П. “Изобразительное искусство для детей. Виды и жанры изобразительного искусства”. Книга для семейного чтения и творческого досуга. АСТ. Астрель, Москва, 2009.
53. Ю.Аксенов, М.Левидова. “Цвет и линия – практическое руководство по рисунку и живописи”. “Советский художник”, Москва, 1976.
54. Роджер Эрб, Стефан Зелевски. “Цвет и свет”. Энциклопедия. Издательство “Мир книги”, 2007.
55. Ящухин А.П. “Живопись”. “Просвещение”, Москва, 1985.
56. Кастерман Ж. “Живопись”. “Рисуй и самовыражайся”. Детское справочное бюро. Москва, издательство “АСТ”, Астрель, 2002.
57. Элвин Крошо, “Акварель – как рисовать”, Москва, издательство АСТ. Астрель, 2006.
58. Н.М. Конышева. “Наш рукотворный мир”. М. 1996.
59. “Архитектура древнего и ранне-средневекового Азербайджана”. Азербайджанское государственное издательство, Баку, стр.311, 1986.
60. “Rysowanie dla poczatkujacych”. Mark i Mary Willenbrink. Wydawnictwo K.E.Liber, 2008.
61. “Moja pierwsza ksiazka o risowaniu”. Jan Jager and Ica Bokforlaq. Wydawnictwo REA. Warszawa, 2010.
62. http://muzey1355.narod.ru/metall.HTML – Виды художественной обработки металла.
63. http://iznedr.ru/books/item/f00/s00/z0000020/st016.shtml – Виды обработки драгоценного металла в ювелирном деле.
64. http://dic.academic.ru/dic.nsf/enc_pictures/1386/%D0%9A%D0%B5%D1%80%D0%B0%D0%BC%D0%B8%D0%BA%D0%B0 – Виды керамики.
65. http://www.megabook.ru/Article.asp?AID=639193 – Виды керамики.
66. http://www.trend.az/news/society/2098422.html – Zərgərlik.
67. http://www.azerbaijans.com/content_168_az.html – Misgərlik.
68. http://kayzen.az/blog/kulturologiya/5585/q%C9%99dim-misir-yunan-v%C9%99-roma-inc%C9%99s%C9%99n%C9%99ti.html – Qədim Misir, Yunanıstan və Roma incəsənəti.
69. http://arx.novosibdom.ru/node/424 – Античное искусство.
70. http://ancientrome.ru/art/ – Античное искусство.
71. http://www.bibliotekar.ru/polk-20/index.htm – Римское искусство.
72. http://www.artprojekt.ru/Menu.html – Всемирная энциклопедия искусства.
73. http://www.islam.by/at/?id=40 – Выдающийся османский архитектор Мимар Синан.
74. http://www.artap.ru/cult/iart_p.htm – Культура и культурология.
75. http://www.ellada.spb.ru/ – Культура Древней Греции.
76. http://www.onelegend.ru/centaur.html – Кентавр, легенды народов мира.
77. http://forum.lah.ru/forum/44-3886-1
78. http://great-egypt.ru/iskusstvoinauka/remesla-kotoryimi-zanimalis-v-drevnem-egipte – Великий Египет
79. http://www.krugosvet.ru/enc/kultura_i_obrazovanie/religiya/ZIKKURAT.html – Кругосвет. Универсальная научно-популярная онлайн-энциклопедия.
80. http://www.istorya.ru/strany/shumerranny.php – Шумер раннединастического периода
81. http://architecturesss.blogspot.com/2010/12/blog-post_25.html – Древний Египет. Пирамиды.
82. http://arx.novosibdom.ru/node/1453 – Архитектурные формы Древнего Египта.
83. http://www.lepninaplast-fasad.ru/articles.php
84. http://www.antic-art.ru/catalogue/ – Шедевры античного искусства.



LAYİHƏ

**Təsviri incəsənət – 6**
*Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün*
*Təsviri incəsənət fənni üzrə dərsliyin*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəllif: | **Yeganə Qələndər qızı Cəlilova** |
| | **Kəmalə Əhməd qızı Cəfərzadə** |
| | **Məhsəti İsa qızı Məmmədova** |
| Nəşriyyat redaktoru | **K.Abbasova** |
| Texniki redaktor | **Z.İsayev** |
| Dizayner | **P.Məmmədov** |
| Korrektor | **A.Məsimov** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2017-059

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2021**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 4,6. Fiziki çap vərəqi 6. Səhifə sayı 96.
Kağız formatı 70x100 1/16. Tiraj . Pulsuz. Bakı – 2012

“BAKI” nəşriyyatı
Bakı, AZ 1001, H.Seyidbəyli küç. 30



LAYİHƏ

Pulsuz

LAYİHƏ